RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 34 (9489) 15 FEVRAL 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Tarixin ən qüdrətli Azərbaycanı yeni dövrə qədəm qoydu

## Qalib Prezident, Müzəffər Ali Baş Komandan İLHAM ƏLİYEV and içdi

Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyəm.

Dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağam.

Xalqa ləyaqətlə xidmət edəcəyəm.

Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq olacağam, onları daim uca tutacağam.



2-5

# Tarixin ən qüdrətli Azərbaycanı yeni dövrə qədəm qoydu

## Qalib Prezident, Müzəffər Ali Baş Komandan İLHAM ƏLİYEV and içdi





Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, andiçmə mərasimində birinci xanım Mehriban Əliyeva, dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin deputatları iştirak ediblər.

Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.

Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olundu.

Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının Dövlət Bayrağını və Azərbaycan Respublikası Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətirdilər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olundular.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri **Fərhad Abdullayev** çıxış edərək dedi:

- Hörmətli xanımlar və cənablar.

Bildiyiniz kimi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2024-cü il 13 fevral tarixli qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə and içməyə dəvət olunur.

Azərbaycan Respublikasının Prezidenti **İlham Əliyev** əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içdi:

- Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

Sonra Prezident müqəddəs "Qurani-Şərif"ə əl basaraq and içdi:

- Əlimi "Qurani-Şərif"ə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq olacağam, onları daim uca tutacağam.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.

Prezident İlham Əliyev təzim edərək Azərbaycan Respublikasının Dövlət Bayrağını öpdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində nitq söylədi.

# Prezident İlham Əliyevin nitqi

- Hörmətli xanımlar və cənablar.

İlk növbədə, prezident seçkilərində mənə yenidən böyük etimad və dəstək göstərən doğma Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirmək istəyirəm. Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm.

İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi.

2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik.

Verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi. O vaxt və ondan sonrakı illərdə, o cümlədən 2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi 2 il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik.



Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların və on minlərlə Azərbaycan gəncinin şücaəti, fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün azad Qarabağda yaşayırıq, qururuq, ərazi bütövlüyümüzü bərpa edən, öz ləyaqətini bərpa edən xalq kimi qururuq, yaradırıq, şəhər və kəndlərimizi yenidən qururuq.

İkinci Qarabağ müharibəsi şanlı tariximizdir. Ancaq müharibə olmaya bilərdi, əgər Ermənistan və onun rəhbərliyi, onun arxasında dayanan qüvvələr beynəlxalq hüquqa əməl etsəydilər, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə əməl etsəydilər. Əgər böyük dövlətlər Ermənistana onun işğalçılıq siyasətinə görə sanksiyalar tətbiq etsəydilər, heç olmasa, onların işğalçılıq siyasətini pisləsəydilər, bəlkə də müharibəyə ehtiyac qalmazdı. Azərbaycan dövləti uzun illər ərzində təmkinlilik göstərirdi, eyni zamanda aparılan danışıqlara sadiqlik göstərirdi. Baxmayaraq ki, illər keçdikcə bizim ümidlərimiz də tükənirdi, işğalçı dövlət daha da azğınlaşırdı, hesab edirdi ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlaya bilər.

O inamı onlara verənlər Ermənistan rəhbərliyi ilə bərabər bütün məsuliyyəti daşıyırlar və bölüşürlər. Mən dəfələrlə müxtəlif tədbirlərdə, eyni zamanda Ermənistan rəhbərliyi ilə, onlara dəstək verən böyük dövlətlərin rəhbərləri ilə söhbətlər əsnasında deyirdim ki, Azərbaycan heç vaxt bu vəziyyətlə barışmayacaq. Deyirdim ki, nə qədər gec deyil, Ermənistanı inandırın və özünüz də lazımi addımlar atın ki, bu işğala son qoyulsun. Ancaq əfsuslar olsun ki, bütün çağırışlarım, bütün xəbərdarlıqlarım havada qaldı. Sanki kimsə hesab edirdi ki, Azərbaycan xalqı bu işğalla barışmalı olacaq. Biz isə döyüş meydanında göstərdik ki, nəyə qadirik. Biz döyüş meydanında cəmi 44 gün ərzində Ermənistan ordusunu tamamilə darmadağın etmişdik. Elə günə salmışdıq ki, özlərinin etirafına görə, 12 mindən çox fərarisi olmuşdur.

*Ardı 3-cü səh.*

# Tarixin ən qüdrətli Azərbaycanı yeni dövrə qədəm qoydu

## Qalib Prezident, Müzəffər Ali Baş Komandan İLHAM ƏLİYEV and içdi

*Əvvəli 2-ci səh.*

Azərbaycan Ordusundan bir nəfər də döyüş meydanını tərk edib qaçmamışdır. Bu, bir daha Azərbaycan xalqının əyilməz ruhunu göstərir. Bir daha göstərir, elə gənc nəsil yetişib ki, Vətən uğrunda, torpaq uğrunda, milli ləyaqət uğrunda ölümə getməyə hazırdır və ölümə də gedirdilər bizim gənclərimiz. Biz bütün dünyada Ermənistanın uzun illər ərzində yaratmağa çalışdığı mifləri darmadağın etdik, erməni ordusunu qorxaq və təslimçi ordu kimi təqdim etdik. Bunu bizim cəsur döyüşçülərimiz qan tökərək, irəliyə gedərək, 5-6 müdafiə xəttini aşaraq sübut etmişlər və 44 günlük Vətən müharibəsi, bir daha demək istəyirəm, bizim əyilməz ruhumuzu göstərmişdir, Azərbaycan xalqının iradəsini göstərmişdir, Azərbaycan dövlətinin gücünü göstərmişdir. Xalq bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində bütün tarixi və strateji vəzifələr təmin edildi. Bu 44 gün ərzində bir dəfə də olsun ordumuz geriyə addım atmamışdır, ancaq irəli gedirdik. Şuşanın azad edilməsi tarixi hadisə olaraq, eyni zamanda İkinci Qarabağ müharibəsinə son qoydu. Çünki ondan sonra Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur olmuşdur, bizim qarşımızda ağ bayraq qaldırmışdır, təslim olmuşdur və beləliklə, İkinci Qarabağ müharibəsi başa çatdı.

Müharibədən keçən dövr ərzində biz öz prinsipial mövqeyimizi bütün məsələlərdə göstərmişdik, həm beynəlxalq vasitəçilik etməyə çalışanlarla, həm Ermənistan tərəfi ilə çoxsaylı görüşlər zamanı bildirilmişdir ki, onların üzərinə götürdükləri bütün öhdəliklər yerinə yetirilməlidir. Kapitulyasiya aktında hər şey açıq-aydın göstərilmişdir. Düzdür, bəzi öhdəliklər yerinə yetirildi, o da məcburən, qorxudan. Çünki İkinci Qarabağ müharibəsi işğalçılara elə bir sarsıdıcı zərbə vurdu ki, onlar uzun müddət ərzində özlərinə gələ bilmirdilər. Ancaq vaxt keçdikcə gördük ki, yenidən bizə qarşı ərazi iddiaları irəli sürülür, onlar yenidən o çirkin əməllərindən əl çəkmək istəmirlər. Biz isə haqlı olaraq tələb edirdik ki, bütün şərtlər və öhdəliklər icra edilməlidir. Ermənistan özü bu öhdəliklərin altında imza atmışdır. Onların arasında, ilk növbədə, qanunsuz silahlı birləşmələrin Azərbaycan ərazisindən çıxarılması və Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasındakı yol bağlantısı öhdəlikləri dururdu və üç il ərzində bu öhdəliklərin yerinə yetirilməsi məsələsi öz həllini tapmamışdır. Ermənistan sanki İkinci Qarabağ müharibəsinin nəticələrini unutmuşdu. Bəlkə kimsə onlara müəyyən məsləhətlər də verirdi ki, bu öhdəliklər yerinə yetirilməsin.

Üç il ərzində biz yenə də səbir göstərmişdik, biz yeni gərginləşmə vəziyyəti yaratmaq fikrində deyildik və İkinci Qarabağ müharibəsindən antiterror əməliyyatına qədər keçən dövr ərzində bunun bütün xronoloji məqamları bir daha onu göstərir ki, Azərbaycanın mövqeyi ədalətli mövqedir. Düzdür, Ermənistan və onun arxasında duran qüvvələr bunu görmək istəmirlər. Ancaq hər şey sənədləşdirilib, bu gün heç nəyi gizlətmək mümkün deyil. Üç il ərzində nəinki Ermənistan öz silahlı qüvvələrini Qarabağ bölgəsindən çıxarmayıb, hətta əlavə silah-sursat göndərib, minalar göndərib, bizə qarşı mina terroru davam edib, daha geniş vüsət almışdır. Ermənistan sanki bütün dünyanı və o cümlədən bizi aldatmağa çalışırdı ki, Ermənistan ordusunun silahlı birləşmələri Qarabağda mövcud deyil, bu, sən demə, hansısa özünümüdafiə qüvvələridir. Bu cəfəng versiyalara inananlar Ermənistan rəhbərliyi ilə birlikdə bütün məsuliyyəti daşıyırlar.

Ona görə antiterror əməliyyatı qaçılmaz idi. Ermənistan mövqeyində təzadlı məqamlar artıq bir qayda kimi müşahidə olunur. Əgər Ermənistan tərəfindən bir həftə təzadlı, bir-birini inkar edən hər hansı açıqlama verilməsə, biz artıq şübhə etməyə başlayırıq ki, görəsən, nələr baş verir. Bir tərəfdən Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıyan və 2022-ci ilin oktyabr ayında bunu bəyan edən dövlət, digər tərəfdən bizə qarşı ərazi iddialarından əl çəkmirdi. Bunu, həm onların açıqlamaları göstərirdi, həm də onların qanunları, o cümlədən onların əsas qanunu bunu göstərir, eyni zamanda separatçı qüvvələrə Ermənistan rəhbərliyi tərəfindən göndərilən təbrik məktubları göstərirdi. Bunu görmək istəməyənlər, bu gün Ermənistanın arxasında durmağa çalışanlar bilməlidirlər ki, heç nəyi gizlədə bilməyəcəklər.





Bizim ərazi bütövlüyümüz tam bərpa olunmalı idi və biz İkinci Qarabağ müharibəsindən sonra bu məqsədə doğru məqsədyönlü şəkildə addımlayırdıq. İndi bütün hadisələri yenidən dilə gətirməyə ehtiyac yoxdur, Azərbaycan xalqı hər şeyi bilir və hər şeyi yadda saxlayır. Hər bir addımımızın məntiqi mənası var idi, hər bir addım əvvəlki addımın məntiqi davamı idi, istər Laçın-Xankəndi yolu ilə əlaqədar, istər antiterror əməliyyatının keçirilməsi ilə əlaqədar. Mən digər addımları da qeyd etməliyəm, o cümlədən Azərbaycan və Ermənistan şərti sərhədində baş vermiş hadisələr, hesab edirəm ki, bax bugünkü reallığın əldə edilməsi üçün çox önəmli rol oynamışdı. Ola bilər o vaxt bəziləri obyektiv səbəblərə görə bunu tam dərk edə bilmirdi, ancaq bu gün keçmişə baxdıqda hər kəs görür ki, bir dənə də olsun addımımız situativ xarakter daşımırdı, avantüra xarakteri daşımırdı və mənasız deyildi. Biz, ümumiyyətlə, heç vaxt mənasız addımlar atmırıq, atmamışıq və atmayacağıq. Bu gün hansı addımlar atılırsa, o addımların hədəfə doğru getmək üçün böyük mənası var.

Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı bir daha Silahlı Qüvvələrimizin gücünü göstərdi. Cəmi bir neçə saat ərzində Ermənistan ordusunun təxminən 15 minlik ekspedisiya korpusu tamamilə iflic vəziyyətinə salınmışdır və onlar ikinci dəfə kapitulyasiya aktına imza atmağa məcbur olmuşlar. Bununla da Azərbaycan ərazisində separatizmin kökü kəsildi. Bununla da Azərbaycan həm öz ərazi bütövlüyünü, həm də dövlət suverenliyini tam bərpa etdi.

Bu, tarixi hadisədir və bu tarixi hadisə bizim çoxəsrlik tariximizdə xüsusi yerə malikdir. Bu prezident seçkilərinin əsas əlaməti, xüsusiyyəti və önəmi ondadır ki, müstəqillik dövründə ilk dəfə idi ki, seçkilər ölkəmizin bütün ərazilərində keçirilmişdir. Mən, bildiyiniz kimi, səsvermə prosesində Xankəndidə iştirak etmişdim. Mən Azərbaycanın istənilən yerində səs verə bilərdim, ancaq hesab etdim ki, Xankəndidə səs verməyim daha düzgün olar. Məhz Xankəndidə hələ 1980-ci illərin sonlarında xalqımıza qarşı qanlı cinayətlər başlamışdır. Məhz Xankəndidə səs verdiyim binada xalqımıza qarşı soyqırımı planlaşdırılırdı və oradan idarə olunurdu. Məhz səs verdiyim binanın önündə yerləşən meydanda erməni millətçiləri və ondan sonra Ermənistan dövləti bizə qarşı ərazi iddialarını irəli sürmüşdü. Məhz o binada Qarabağı Azərbaycandan ayırmaq üçün hələ sovet dövründə xüsusi komitə yerləşdirilmişdi və o komitənin əsas məqsədi Qarabağı Azərbaycandan ayırmaq idi, bunu hər kəs bilir. Ona görə məhz orada otuz il bizim tarixi yerimizi, Pənahəli xan tərəfindən salınan o məkanı qanunsuz zəbt edən şeytanlar məhz orada da öz süqutunu özləri təsdiq etmişlər, təbii ki, məcburən. Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi.

İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir. Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik. Uzun danışıqlar prosesi çərçivəsində dəfələrlə bizə hansısa yarımçıq təkliflər irəli sürülürdü, təklif edilirdi. Ancaq o təkliflər bizim üçün qəbuledilməz idi, mən hər dəfə deyirdim ki, Azərbaycan Bayrağı ərazimizin hər bir yerində dalğalanacaq.

Hələ Bayraq Meydanının açılışında demişdim ki, bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq, bizim siyasətimiz bundan ibarət idi. Biz bütün gücümüzü səfərbər edib bu hədəfə doğru gedirdik, biz hər gün, hər saat bu müqəddəs günü yaxınlaşdırırdıq.

Təbii ki, yeni dövrə qədəm qoyarkən böyük ümidlərlə yaşayırıq. Əminəm ki, bütün Azərbaycan xalqı böyük ümidlərlə yaşayır və biz, əlbəttə, elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun.

Hesab edirəm ki, növbəti illərdə qarşımızda duran əsas vəzifələrdən biri ordumuzun, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsidir. İkinci Qarabağ müharibəsindən sonra bu istiqamətdə çox böyük addımlar atıldı və mən müxtəlif vaxtlarda bu məsələ ilə bağlı öz sözlərimi demişdim. Demişdim ki, bu gün Azərbaycan Ordusu 2020-ci ildəkindən daha güclüdür və cəmi bir neçə saat davam edən antiterror əməliyyatı bunun bariz nümunəsidir.

Bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, lazımi silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılıb, yeni yaradılmış "Komando" silahlı birləşmələrində hərbçilərin sayı minlərlə ölçülür və bu proses davam edir. Biz elə ordu yaratmışıq ki, - bundan sonra da bu işlər davam edəcək, - heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz. Bu günlərdə Ermənistan tərəfindən törədilmiş yeni təxribata dərhal adekvat cavab verildi, düşmən cəzalandırıldı. Bu, bir daha onlara və əsasən onlara ürək-dirək verən, üstümüzə göndərən qüvvələrə siqnal idi ki, bizim qabağımızda heç kim dura bilməz. Ermənistanın nə qədər havadarları olsa da, heç kim bizi dayandıra bilməz. Bizim siyasətimiz beynəlxalq hüquqa əsaslanır. Bizim Ermənistan ərazisinə iddiamız yoxdur, ancaq onlar da öz iddialarını geri döndərməlidirlər. Bizimlə əsassız iddialarla şantaj dili ilə danışmaq onlara baha başa gələcək və onu yəqin ki, hər kəs görür. Beləliklə, ordu quruculuğu prosesi davam etdiriləcək. Bizim dövlət büdcəmizdə bu gün də ən böyük xərclər hərbi xərclərdir və hərbi xərclərlə bərabər, Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır.

Biz çox güclü hərbi-sənaye kompleksi yaradırıq, artıq bunun birinci mərhələsi başa çatdı. İkinci mərhələsi daha genişmiqyaslı olacaq. Təkcə bu il bu məqsədlər üçün həm özəl, həm dövlət müəssisələri tərəfindən ən azı bir milyard manat sərmayə qoyulacaq və biz özümüzü bundan sonra daha böyük həcmdə silah-sursatla, texnika ilə təmin edəcəyik, daha böyük həcmdə ixrac edəcəyik və bu sahədə də müəyyən dərəcədə, deyə bilərəm ki, böyük dərəcədə xarici asılılıqdan canımızı qurtaracağıq. Necə ki, siyasi sahədə, iqtisadi sahədə bizim xarici təsirə məruz qalma şansımız sıfra bərabərdir, çünki biz müstəqil siyasət aparırıq.

Bu gün dünyada gedən prosesləri hər kəs görür. Dünya faktiki olaraq Üçüncü Dünya müharibəsinə çox yaxındır. Bəziləri hesab edir ki, artıq bu Üçüncü Dünya müharibəsi başlamışdır, müxtəlif fərziyyələr ola bilər. Təbii ki, müasir müharibələr əvvəlki müharibələrdən fərqlənir. İkinci Dünya müharibəsi ilə bugünkü müharibələri müqayisə etmək belə mümkün deyil və təbii ki, bir çox ölkələr bu gün hərbi sahəyə diqqət yetirməyə başlamışlar. Biz isə bunu artıq 20 ildən çoxdur ki edirik və bu gün bizdə əldə edilmiş təcrübə, o cümlədən döyüş təcrübəsi əvəzolunmazdır. Bizim ordumuz təlimlərdə yox, paradlarda yox, döyüş meydanında öz gücünü göstərmişdir. Ermənistan və ona hərbi cəhətdən dəstək verənlər bilməlidirlər ki, bizi heç nə dayandıra bilməz. Əgər bizə qarşı ərazi iddialarına son qoyulmazsa, əgər Ermənistan öz qanunvericiliyini normal qaydaya salmazsa, təbii ki, sülh müqaviləsi olmayacaq. Bu, bir daha onu deməyə əsas verir ki, ordu quruculuğu, hərbi potensialın gücləndirilməsi əsas vəzifədir. Bu gün onu da bildirməliyəm ki, bir çox ölkələr üçün bu, əsas vəzifə kimi artıq qəbul olunub, onların hərbi doktrinalarında, onların büdcə xərclərində və digər addımlarda da bunu əyani şəkildə görmək olur.

*Ardı 4-cü səh.*

# Tarixin ən qüdrətli Azərbaycanı yeni dövrə qədəm qoydu

## Qalib Prezident, Müzəffər Ali Baş Komandan İLHAM ƏLİYEV and içdi

*Əvvəli 3-cü səh.*





Bizim üstünlüyümüz ondan ibarətdir ki, ordumuz döyüş meydanında öz gücünü göstərib, ordumuzda çox yüksək mənəvi ruh var, bizim peşəkarlığımız artır və biz Ermənistanı döyüş meydanında məğlub etmişik. Ona görə bu amil həmişə mövcud olacaq.

Biz eyni zamanda sərhədlərimizi daha da güclü qorumalıyıq. Bunu da qarşıya önəmli vəzifə kimi qoyuram. Bu istiqamətdə də önəmli addımlar atılmışdır. Xüsusilə nəzərə alsaq ki, İkinci Qarabağ müharibəsindən sonra biz həm o vaxt işğal altında olan Azərbaycan-İran sərhədinə qayıtmışıq, həm də Azərbaycan-Ermənistan şərti sərhədində yerləşmişik. Əlbəttə ki, sərhəd infrastrukturunun qurulması xüsusi əhəmiyyət daşıyır və biz burada da ən müasir üsullardan istifadə edirik və edəcəyik. Sərhədimiz elə möhkəm bağlı olmalıdır ki, bir quş belə uça bilməsin. Sərhədlərimizin qorunması, eyni zamanda bizi xarici risklərdən qoruyacaq. Çünki ölkə daxilində risklər yoxdur. Bütün mümkün olan potensial risklər ölkəmizin hüdudlarından kənarda yerləşir və formalaşır. Təhlükəsizlik tədbirlərinin bundan sonra da görülməsi vacib vəzifə kimi qarşıya qoyulur. Biz özümüzü təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və sərhədlərimizin möhkəmləndirilməsi nəticəsində həm fiziki risklərdən qorumalıyıq, həm də özümüzü ideoloji risklərdən qorumalıyıq. İdeoloji risklər sərhəd tanımır, xüsusilə indiki şəraitdə. Ona görə burada əsas vəzifə gənc nəslin vətənpərvərlik ruhunda, milli ənənələr ruhunda tərbiyə olunmasıdır. Bu məsələyə çox ciddi yanaşmalıyıq və mən bunu əsas vəzifələrdən biri kimi qarşıya qoyuram. Gənc nəslin tərbiyə edilməsi bizim gələcəyimizin təmin edilməsi deməkdir.

Bu gün Azərbaycan xalqı bir yumruq kimi birləşib. Bizi birləşdirən ümummilli məsələ Qarabağın azad edilməsi idi. Bu məsələ artıq öz həllini tapdı və bu birlik daimi olmalıdır. Milli birlik daimi olmalıdır, çünki Azərbaycanın önəmi artır, dünyada oynadığı rolu artır. Əlbəttə, bizə qarşı bundan sonra da ideoloji təxribatlar nəinki istisna deyil, bunlar qaçılmazdır və biz bunu demək olar ki, gündəlik həyatda görürük. Bizim işimizə kölgə salmaq, bizi diskriminasiyaya uğratmaq, Azərbaycan haqqında əsassız və yalançı, mənfi imic yaratmaq - biz bütün bunları gündəlik həyatda görürük, Azərbaycan xalqı görür və bundan hiddətlənir.

Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın və burada, əlbəttə ki, ilk növbədə, ailə tərbiyəsi ön plana çıxır. Xoşbəxtlikdən Azərbaycan ailəsi sağlam ailədir, ənənələr, milli dəyərlər üzərində qurulan ailədir. Ailə tərbiyəsi hər bir gənc üçün, hər bir uşaq üçün əsas tərbiyədir. İkinci yerdə məktəb tərbiyəsidir və belə müzəffər gənclərimizin yetişdirilməsində də Azərbaycan məktəbinin çox böyük rolu vardır. Məktəblərdə uşaqlara aşılanan dəyərlər, müstəqilliklə bağlı, milli ləyaqətlə bağlı, əsrlər boyu bizə qarşı edilən ədalətsizliklə, - təkcə son 30 il ərzində yox, - torpaqlarımızın müxtəlif dövrlərdə əlimizdən alınması ilə bağlı və bizim qəhrəmanlıq tariximizlə bağlı uşaqlara verilən tərbiyə və biliklər çox böyük önəm daşıyır. Bütövlükdə milli-mənəvi dəyərlərə gəldikdə, bu, bizim cəmiyyətimizin əsasıdır və bu, sarsılmaz varlıqdır, sarsılmaz dəyərdir və bunu sarsılmaz etmək bizim əlimizdədir. Çünki burada hər hansı bir kənar qüvvə öz çirkin niyyətlərinə çatsa, o zaman bizim ciddi problemlərimiz olacaq. Ona görə gənclərimizin milli ruhda tərbiyə edilməsi, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi - bu vəzifə bizim hamımızın qarşısında durur, hər bir ailə qarşısında durur və dövlət qarşısında durur. Burada, əlbəttə ki, dövlət siyasəti də aparılır və aparılacaq. Eyni zamanda dediyim kimi, bütün cəmiyyət burada həmrəy olmalıdır və biz bu həmrəyliyi görürük. Bu seçkilərdə göstərilən həmrəylik cəmiyyətimizi bir qaya kimi möhkəmləndirir və belə olan halda heç bir kənar qüvvə bizə qarşı heç bir məkrli plan həyata keçirə bilməz.

Biz bundan sonra da Azərbaycanda vətəndaş cəmiyyətinin yaradılması ilə bağlı addımlar atacağıq. Azərbaycan xalqının həmrəyliyi əsas uğurlarımızdan biridir. İkinci Qarabağ müharibəsindəki parlaq Qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır. Azərbaycanda yaşayan bütün etnik qruplar, bütün xalqlar Azərbaycan Bayrağı altında birləşib. Bu Qələbədə, bu tarixi Zəfərdə ölkəmizdə yaşayan hər bir xalqın öz dəyərli töhfəsi var.

Azərbaycançılıq ideologiyası, azərbaycançılıq prinsipləri Azərbaycanda çoxdan bərqərar olub. Ulu Öndər Heydər Əliyevin bizə qoyduğu dəyərli miraslardan biri də məhz azərbaycançılıq məfkurəsidir. Biz - onun davamçıları isə bu müsbət meyilləri öz tərəfimizdən daha da gücləndiririk. Azərbaycanda yaşayan bütün xalqlar vahid, mehriban ailə kimi yaşayır. Bizim birliyimizi pozmaq istəyənlər nə qədər cəhd göstərsələr də buna nail ola bilməyiblər və heç vaxt nail ola bilməyəcəklər. Çünki biz hamımız bir amal uğrunda birləşmişik. Biz hamımız şəhidlər vermişik, qan tökmüşük. Erməni işğalçılara qarşı sinəmizi qabağa verib döyüşə getmişik. Bu birlik, bu həmrəylik və bu şanlı Zəfər tarixi Azərbaycanda yaşayan bütün xalqları daha da sıx birləşdirir və bu da əsas vəzifələrdən biri kimi qarşıya qoyulur. Deyə bilərəm ki, bu sahədə çox böyük tarixi nailiyyətlər var, baxmayaraq ki, müxtəlif istiqamətlərdən bu birliyi pozmaq, bizim aramıza girmək, təxribat xarakterli uydurmaları ortaya atmaq cəhdləri kifayət qədər çox olub və olacaq. Çünki bizi istəməyən qüvvələr, bizim gücümüzü qəbul etməyən, Ermənistan üzərində parlaq Qələbəmizi həzm edə bilməyən anti-Azərbaycan qüvvələr çalışacaqlar ki, bu amildən istifadə etsinlər. Onların səyləri əbəs olacaq. Bizim birliyimiz bu səylər qarşısında bir sədd kimi durmalıdır və durur. Bu istiqamətdə bundan sonra da lazımi addımlar atılacaq. Təbii ki, cəmiyyət, vəzifəli şəxslər, dövlət qurumları burada vahid siyasət aparır və bu siyasət gündəlik həyatda özünü göstərir.

Növbəti önəmli vəzifə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir. Deyə bilərəm ki, burada görülən işlər azad edilmiş torpaqlara gələn hər bir qərəzsiz xarici qonağı valeh edir. Çünki bu dərəcədə dağıntılardan sonra bu sürətlə bərpa işlərinin aparılması, yəqin ki, tarixdə görünməmiş bir hadisədir. Onu da nəzərə almalıyıq ki, mənfur düşmən bizim ərazilərimizi minalayıb və 300-dən çox insan artıq həyatını, ya da ki, öz sağlamlığını itirib. Əfsuslar olsun ki, biz hər həftə belə ağır xəbərləri eşidirik. Minalardan təmizləmə prosesi gedir, 120 min hektar artıq təmizlənib, amma minalanmış ərazi qat-qat daha genişdir. Bütün bunlara baxmayaraq, keçmiş köçkünlərin öz dədə-baba torpaqlarına qaytarılması prosesi uğurla gedir. Bu günə qədər təxminən 5400 keçmiş köçkün artıq beş yaşayış məntəqəsinə göndərilib, orada yerləşdirilib və bu il ən azı 20 yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıdacaq. Bizim planımız azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkünü yerləşdirməkdir. Yüzdən çox şəhərin və kəndin baş planları hazırlanıb, təsdiqlənib. Bir çox şəhər və kəndlərdə artıq inşaat işləri başlamışdır. Biz Böyük Qayıdış proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdıracağıq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq. Bununla paralel olaraq, bütün sosial infrastruktur inşa edilir, xəstəxanalar, məktəblər, idman obyektləri, infrastruktur obyektləri, yollar, 130-dan çox tunel və körpü, - 40 tunel və 90 körpü, - inşa edilir. Yəni, bu, sadəcə olaraq işin miqyasını göstərir, bütün elektrik təsərrüfatı yenidən qurulub, dəmir yolları çəkilir, iki beynəlxalq hava limanı açılıb, üçüncüsü də Laçında açılacaq. Yəni, geniş quruculuq işləri görüləcək. Əlbəttə ki, köçkünlər üçün yeni evlər, bütün müasir şəhərsalma qaydalarına uyğun olan yaşayış yerləri qurulacaq və tarixi şəhərlərimizin tarixi siması bərpa ediləcək.

Əlbəttə ki, bütün bunlara nail olmaq üçün iqtisadiyyatımız inkişaf etməlidir. Bu ilin yanvar ayının nəticələri ümidvericidir. Ümumi daxili məhsul 5 faiz, qeyri-neft sektorunda isə 12 faizdən çox artıb. Bu, ümidverici göstəricidir və onu göstərir ki, biz indi yavaş-yavaş öz iqtisadi templərimizi bərpa edirik. Müqayisə üçün deyə bilərəm ki, 2003-cü ildə bizim ümumi daxili məhsulumuz 7 milyard dollar idi, keçən ilin yekunlarına görə isə bu rəqəm 72 milyard dollardır. Yəni, bu, 20 ildə iqtisadiyyatımızın inkişafının əsas göstəricisidir. Bizim 2003-cü ildə valyuta ehtiyatlarımız 1,6 milyard dollar idisə, bu gün bu, artıq 69,5 milyard dollardır və biz bu 20 il ərzində görün öz valyuta ehtiyatlarımızı nə qədər artırmışıq. Bu, bizə iqtisadi və maliyyə müstəqilliyi verən əsas amillərdən biridir. Aparılan siyasət nəticəsində birbaşa xarici borcumuz 6,4 milyard dollara düşüb, bu da ümumi daxili məhsulumuzun cəmi 9 faizini, ondan da az təşkil edir. İnkişaf etmiş ölkələrdə bu rəqəm 100 faiz, bəlkə də 140 faiz təşkil edir, bizdə isə 9 faizdən az. Yəni, bu, nəyi göstərir? Bizim sağlam maliyyə sistemimizin göstəriciləridir və bu, bizə imkan verir ki, biz müstəqil siyasət aparaq. Bu gün heç kimdən asılı olmayan Azərbaycan inamla, uğurla inkişaf edir, öz xarici siyasətini də buna uyğun şəkildə aparır.

Sosial sahədə görülmüş işlər də göz qabağındadır. 2003-cü ildə bizim minimum əməkhaqqı, - bəlkə də çoxlarının yadında deyil, - 9 manat idi. İndi 345 manatdır. Əlbəttə ki, bu da yetərli deyil, ancaq dinamika var və dinamika davam edəcək. Minimum pensiya 2003-cü ildə 20 manat idi. Bu gün 280 manata çatıb. Orta pensiya 500 manatdan çoxdur. Orta əməkhaqqı 940 manatdır. Əlbəttə ki, yenə də deyirəm, bu, bizi qane edə bilməz. Ancaq dinamika var, inkişaf var və ən önəmlisi, gözəl perspektivlər var. Bu gün iqtisadi sahədə aparılan islahatlar artıq Azərbaycanda tamamilə yeni bir investisiya iqlimi yaratmışdır. Əgər əvvəlki illərdə investisiyalar daha çox neft-qaz sahəsinə qoyulurdusa, bu gün qeyri-neft sektoruna qoyulan sərmayə milyardlarla dollar səviyyəsindədir. Əldə edilmiş razılaşmalar, imzalanmış kontraktlar yaxın bir neçə ildə özünü elə göstərəcək, sıçrayış elə böyük olacaq ki, bunu hər kəs görəcək.

Biz əlbəttə ki, yoxsulluqla bağlı və işsizliklə bağlı öz fəaliyyətimizi davam etdirməliyik. Yoxsulluq Azərbaycanda 5 faiz səviyyəsindədir. 2003-cü ildə təxminən 50 faiz idi. İşsizliklə bağlı daim işlər aparılmalıdır ki, işsizlik aşağı səviyyədə olsun. Müstəqillik dövründə əhalimiz 3 milyon artıb və artan əhalisi olan ölkələrdə işsizlik bir qayda olaraq ciddi problemdir, o cümlədən bizim üçün. Biz hər il 10 minlərlə yeni iş yeri yaratmalıyıq. Bunun üçün əlbəttə ki, daxili resurslar kifayət deyil. Xarici sərmayəyə ehtiyac var və iqtisadi islahatlar, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, rəqabətlə bağlı, inhisarçılığa qarşı olan tədbirlər bu biznes mühitini yaxşılaşdıracaq. Əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzur bizim iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaqdır. O bölgələrdə həm kənd təsərrüfatı, həm bərpaolunan enerji ilə bağlı layihələr, turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcəkdir.

Sosial sahədə vacib məsələlərdən biri şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsidir. Deyə bilərəm ki, bu kateqoriyadan olan insanlara dövlət tərəfindən 14 min 800 fərdi ev və ya mənzil verilmişdir. Bu kateqoriyadan olan insanların 100 faiz evlərlə təmin edilməsi prosesi sürətlə gedir, o cümlədən bu il və gələn il bu işlər görüləcək.

Vacib vəzifələrdən biri texnoloji inkişafımızdır. Bu gün istər sənaye inkişafı sahəsində, istər hərbi-sənaye kompleksi sahəsində və ümumiyyətlə, hərbi sahədə texnoloji inkişaf və üstünlük böyük əhəmiyyət daşıyır. İkinci Qarabağ müharibəsi zamanı hər kəs bunu gördü, antiterror əməliyyatı zamanı da. Təbii ki, Qələbəmizin əsas amili Azərbaycan döyüşçüsüdür. Düşməni məhv edən və bayrağı azad edilmiş torpaqlara sancan insandır, əsgərdir, zabitdir. Ancaq texniki vasitələr az rol oynamır. Biz texniki vasitələr hesabına İkinci Qarabağ müharibəsindən minimum itkilərlə çıxmışıq. Ona görə texnoloji inkişafla bağlı hədəflər müəyyən edildi, bütün aidiyyəti qurumlara tapşırıqlar verildi və bu iş əlbəttə ki, böyük bir səfərbərlik tələb edən işdir. Sadəcə olaraq, dövlət siyasəti burada yetərli deyil. Biz əlbəttə ki, yeni texnologiyaları alırıq, texnoloji inkişafa böyük dəstək veririk, ancaq burada vacib məsələlərdən biri kadr hazırlığıdır.

*Ardı 5-ci səh.*

# Tarixin ən qüdrətli Azərbaycanı yeni dövrə qədəm qoydu

## Qalib Prezident, Müzəffər Ali Baş Komandan İLHAM ƏLİYEV and içdi

Əvvəli 4-cü səh.

Deyə bilərəm ki, bu istiqamətdə son 1-2 il ərzində böyük inkişaf mövcuddur, bəlkə də ictimaiyyət o qədər də məlumatlı deyil. Ancaq kadr hazırlığı olmadan heç bir texnoloji yenilik kifayət etməyəcək. Son müddət ərzində bir neçə min Azərbaycan gənci treninqlərdən keçib, xüsusi proqramlardan keçib. Texnoloji inkişaf, rəqəmsallaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiq edilməsi - bütün bunlar bizim gündəlik həyatımızın əlamətlərinə çevrilməlidir. Dövlət qurumları, özəl sektor və cəmiyyətin bütün digər seqmentləri buna hazır olmalıdırlar. Əks təqdirdə, biz geridə qalacağıq. Biz isə geridə qala bilmərik. Biz elə bir bölgədə yerləşirik, bizə qarşı elə bir qüvvələr birləşib ki, bizə ziyan vurmaq üçün fürsət axtarırlar. Biz, - İkinci Qarabağ müharibəsi zamanı və antiterror əməliyyatı zamanı mən bunu artıq demişdim, - sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edir ki, bizdən əl çəkəcəklər, səhv edir. Biz hazır olmalıyıq, səfərbər olmalıyıq, əlbəttə ki, cəmiyyət rahat yaşamalıdır. Mən Azərbaycan üçün hər hansı bir təhlükə, təhdid görmürəm. Ancaq nə üçün görmürəm, çünki bilirlər ki, bizim cavabımız amansız olacaq, sarsıdıcı olacaq və heç nəyə baxmadan o cavab veriləcək. Ona görə texnoloji inkişafa nail olmasaq, burada geniş, yəni, bir neçə min yox, on minlərlə azərbaycanlı bu işdə olmasa, biz geridə qala bilərik. Ona görə hesab edirəm ki, bütün qurumlar və eyni zamanda cəmiyyət bunu da vəzifə kimi bilməlidir və görməlidir.

Digər vacib vəzifələrdən biri bərpaolunan enerji ilə bağlıdır. Burada da biz ön sıralardayıq, artıq işlərə start verildi. Bizim planlarımıza görə 2030-cu ilin sonuna qədər Azərbaycanda 5 min meqavata yaxın bərpaolunan enerji növləri, yeni enerji növləri yaradılmalıdır, əsasən günəş, külək və hidro - su elektrik stansiyaları. Dediyim rəqəm tam realdır, bu, artıq imzalanmış kontraktlar əsasında olacaqdır. Niyyət protokolları isə daha böyük rəqəm haqqında bəhs edir, təqribən 10 min meqavat. Beləliklə, biz böyük həcmdə təbii qazımızı ixrac edə biləcəyik, ona qənaət olunacaq. Elektrik enerjisinin böyük hissəsi bərpaolunan enerji hesabına istehsal ediləcək. Biz iqlim dəyişikliyi məsələlərinə də öz töhfəmizi vermiş olacağıq, xüsusilə nəzərə alsaq ki, Azərbaycan bu il COP29-a - dünya miqyasında ən böyük beynəlxalq konfransa evsahibliyi edəcəkdir. Ona görə bərpaolunan enerji növləri ilə bağlı bizim hədəflərimiz aydındır. Onu da bildirməliyəm ki, bütün bu layihələr xarici investorlar tərəfindən icra edilir və ediləcək. Əgər belə demək mümkündürsə, biz indi xarici investorların rəqabət prosesini də görürük. Çünki o qədər çox ölkə Azərbaycanda bu sahəyə vəsait qoymaq istəyir ki, bizim bu qədər imkanımız hələ ki, yoxdur. Halbuki Dünya Bankının qolu olan Beynəlxalq Maliyyə Korporasiyası təkcə dənizdə külək potensialımızı 157 min meqavat səviyyəsində təsbit edib.

Ənənəvi yanacaq növləri - neft-qaz sahəsində işlər davam etdiriləcək. Neft hasilatının sabitləşməsi istiqamətində işlər gedir, hesab edirəm ki, yaxın gələcəkdə nəticələr olacaq. Bizə sabit neft hasilatı lazımdır və biz investorlar qarşısında bu vəzifəni qoymuşuq. Müəyyən narahatedici məqamlar olub və işgüzar qaydada təmaslar əsnasında bu məsələlərin həlli gözlənilir.

Təbii qazla bağlı. Biz artıq səkkiz ölkəyə təbii qaz ixrac edirik. Tələbat daha böyükdür, ilk növbədə, təbii ki, Avropa İttifaqı məkanından. Bizdən xahiş edənlərin sayı artır ki, biz kömək edək. Bax, bizə edilən xahişlər bu məqsədi daşıyır. Biz isə etibarlı tərəfdaş kimi həmişə ehtiyacı olanlara kömək etməyə hazırıq və bu köməyi göstəririk, bu da qiymətləndirilir. Düzdür, hər zaman qiymətləndirilməsə də, prinsip etibarilə bu vəziyyət bizi qane edir.

Gələcəkdə bizim ixrac coğrafiyamız artacaq, təbii ki, Avropa istiqaməti üzrə. Bu yaxınlarda bizim yeni resurs bazamız işə salınıb. "Şahdəniz" yatağından sonra ikinci resurs bazamız "Abşeron" qaz-kondensat yatağından ilk qaz çıxarılıb və yəqin ki, biz yaxın gələcəkdə bu yatağın işlənilməsinin ikinci mərhələsinə də başlayacağıq. Gələn il "Azəri-Çıraq-Günəşli" yatağının dərin laylarından qaz hasilatı nəzərdə tutulur. Bu da bizim resurs bazamızı artıracaq. Ondan başqa, "Ümid", "Babək", "Şəfəq", "Asiman", "Qarabağ" neft və qaz-kondensat yataqlarından hasilata başlamaq üçün bir çox xarici investorlar tərəfindən təkliflər var. Vaxtilə bizi istəməyən qüvvələr şayiə yayırdılar ki, Azərbaycanda neft yoxdur. Azərbaycan 1997-ci ildən bəri neft hasilatını yüksək səviyyədə saxlayır və bir çox ölkələrə neft ixrac edir. Sonra deyirdilər ki, Azərbaycanda qaz yoxdur. Təbii ki, bu da cəfəngiyyatdır, bax, sadaladığım bu yataqlar onu əyani şəkildə göstərir.





Təbii ki, biz nəqliyyat sahəsində işləri davam etdirəcəyik. Bu gün Azərbaycan dünya miqyasında nəqliyyat mərkəzi kimi qəbul edilir. Bizə həm Qərbdən, həm Şərqdən, həm Şimaldan, həm Cənubdan müraciətlər daxil olur. Azərbaycan ərazisində bütün nəqliyyat infrastrukturu işlək vəziyyətdədir. Sadəcə olaraq bəzi dəmir yollarında modernləşdirmə işləri aparılmalıdır və biz bunu da edirik. Dünyadakı geosiyasi vəziyyətin yaxın gələcəkdə dəyişməsi, yəqin ki, mümkün deyil. Belə olan halda bizim nəqliyyat infrastrukturumuza olan ehtiyac daha da artacaq.

Bizim üstünlüyümüz ondan ibarətdir ki, biz vaxtilə bütün lazımi infrastruktur layihələrini icra etmişik, həm Xəzər dənizində, həm dəmir yolu infrastrukturunda, həm avtomobil yolları, həm dəniz limanı, gəmiqayırma zavodu, hansı ki, bu gün tam gücü ilə işləyir. İlk dəfə olaraq, o zavod işə salınanda sifarişlər onu 100 faiz işlə təmin edib.

Səkkiz beynəlxalq aeroportumuz var, doqquzuncu Laçında inşa edilir. Yəni, biz tam hazırıq. Hazır olmayanlar da öz işlərini görsünlər, öz ərazilərində çatışmayan infrastruktur layihələrini icra etsinlər. Əlbəttə ki, beynəlxalq təcrübəyə əsaslanaraq biz tranzit ölkə kimi öz imkanlarımızı təqdim edirik. Əlbəttə ki, bundan həm iqtisadi, həm siyasi dividendlər alacağıq.

Azərbaycan o ölkələrdəndir ki, açıq dənizlərə çıxışı yoxdur. Ancaq buna baxmayaraq, dediyim o səbəblərə görə bu gün biz nəqliyyat mərkəzlərindən birinə çevrilmişik. Getdikcə rolumuz artacaq, bizə müraciətlər də çoxalacaq, necə ki, bu gün xahişlə müraciət edirlər ki, "bizə qaz verin, bizə qaz verin, bizdə qaz çatmır" və sair, burada da eyni mənzərə olacaqdır.

Biz heç kimdən heç nə xahiş etmirik. Mən 20 ildən çoxdur ki, prezidentəm, bu günə qədər heç kimdən heç nə xahiş etməmişəm, çünki buna ehtiyac da olmayıb. Biz özümüzü tam təmin edən ölkəyik. Biz ikitərəfli formatda əməkdaşlığın tərəfdarıyıq və xarici siyasətimiz də buna hesablanıb - bərabərhüquqlu münasibətlər, bir-birinə hörmət, bir-birinə, necə deyərlər, xoş münasibət, bir-birinin işinə qarışmamaq. Bu, bizim prinsiplərimizdir və bu prinsipləri biz diktə etmişik, bunları qəbul etdirə bilmişik.

Güclü iqtisadiyyat, güclü ordu, daxili sabitlik, xalq-iqtidar birliyi xarici siyasətimizin əsas amilləridir. Çünki xarici siyasət, - bunu hamı bilir, - daxili siyasətin davamıdır. Ona görə bundan sonra da xarici siyasətimiz çox aydın olacaq, açıq olacaq və bu gün dünya ictimaiyyəti bizim siyasətimizi bəyənir və dəstəkləyir. Əgər belə olmasaydı, 155 ölkə bizi BMT Təhlükəsizlik Şurasına üzv seçməzdi. Əgər belə olmasaydı, 120 ölkə bizi Qoşulmama Hərəkatına sədr seçməzdi. Əgər belə olmasaydı, dünya birliyi COP29 Konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməzdi.

Bəzən eşidirik ki, hansısa ölkələr, yaxud da ki, ölkələr qrupu beynəlxalq ictimaiyyət funksiyalarını öz üzərinə götürmək istəyir və beynəlxalq ictimaiyyət adından danışmağa çalışır. Sözü olmayanda deyir ki, beynəlxalq ictimaiyyət bu məsələni yaxşı qəbul etməz, beynəlxalq ictimaiyyət o məsələni yaxşı qəbul etməz. Birincisi, bu, təvazökarlıqdan uzaq olan məsələdir. Məhdud sayda olan hər hansı 20-30 ölkə beynəlxalq ictimaiyyət adından danışa bilməz, o ki qaldı bir ölkə, ümumiyyətlə, danışa bilməz. Beynəlxalq ictimaiyyət isə bizim tərəfimizdədir və İkinci Qarabağ müharibəsi zamanı, antiterror əməliyyatı zamanı beynəlxalq ictimaiyyət bizi dəstəkləmişdir. Bu gün Azərbaycanın beynəlxalq nüfuzu hesab edirəm ki, heç kimə sirr deyil.

Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır.

Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni, gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayırıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayırıcı xətlərin əleyhinəyik. Biz hətta, cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqazda bu gün bu ayırıcı xətləri açıq-aydın görürük. Belə olan halda, bizi haradasa qəbul etmək istəməyənlərə biz baş əyməliyikmi? Qətiyyən, bu, olmayacaq! Bizim ailəmiz Türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik.

İslam Əməkdaşlıq Təşkilatı da həmişə - həm işğal dövründə, həm işğaldan sonra, həm də İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı zamanı və ondan sonra Azərbaycanın yanında olub. Azərbaycan bu təşkilatın dəyərli üzvüdür. Azərbaycanda müsəlman dininə və bütün dinlərə olan münasibət bu təşkilat tərəfindən yüksək qiymətləndirilir. Bu təşkilat bütün müsəlman ölkələrini birləşdirir. Əlbəttə ki, bu təşkilatda bizim təşəbbüslərimizin qəbul edilməsi və dəstəklənməsi xüsusi məna daşıyır.

Qoşulmama Hərəkatı. Baxmayaraq ki, biz sədrliyi artıq təhvil vermişik, biz üçlükdə təmsil olunuruq. Qoşulmama Hərəkatı bizim sədrliyimiz dönəmində yeni müstəviyə qədəm qoyub, əlbəttə, imkan verə bilmərik ki, müəyyən dərəcədə tənəzzülə uğrasın. Əminəm ki, bu, olmayacaq. Biz isə öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, Qoşulmama Hərəkatı bir təsisat kimi daha da güclənsin. Əgər üzv ölkələrin qarşısında duran problemlərin həllinə kömək göstərmək lazım olarsa, əlbəttə, biz bunu edəcəyik.

Biz, ümumiyyətlə, bu yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlər açmalıyıq. Əgər əvvəlki dövrdə bizim xarici siyasətimizin əsas istiqaməti Ermənistan-Azərbaycan münaqişəsinin həlli idisə, bu gün artıq bu məsələ demək olar ki, gündəlikdə durmur. Ona görə xarici siyasətimizin yeni istiqamətləri üstünlük təşkil etməlidir. Biz dünyanı narahat edən problemlərin həllində daha fəal olacağıq, o cümlədən iqlim dəyişikliyi ilə əlaqədar. Nəzərə alsaq ki, COP29-un ev sahibi və sədri olacağıq, eyni zamanda dünyada islamofobiyaya qarşı mübarizədə ön sıralarda olmalıyıq. Neokolonializmə qarşı mübarizə aparan ölkələrin yanında olmalıyıq. Neokolonializmi və o eybəcər tarixdən qalan amili Yer üzündən tamamilə silmək üçün öz dəstəyimizi göstəririk və göstərəcəyik. Bunu neokolonializmin başında duranlar da bilsinlər ki, onlar əbəs yerə bizimlə soyuq savaşa çıxıblar. Biz geridə qalmayacağıq, biz heç vaxt müdafiə mövqeyində olmamışıq. Bizə qarşı atılan addımlara adekvat addım atacağıq və bizə qarşı məkrli planlar hazırlayanlar, əminəm ki, peşman olacaqlar.

Nəhayət, Azərbaycan-Ermənistan münasibətləri. Mən çıxışımın sonunda bu məsələyə təsadüfən toxunmuram. Hesab edirəm ki, bu məsələnin əhəmiyyəti süni şəkildə şişirdilir. Ermənistanın havadarları daim bu məsələni müzakirə etmək istəyirlər, öz səylərini göstərmək istəyirlər, deməli, yorğanı öz tərəflərinə çəkmək istəyirlər, vasitəçi olmaq istəyirlər. Birincisi, vasitəçi olmaq üçün sən gərək heç olmasa üzdə bitərəf olasan. Sənin qəlbində nə var, biz bilirik. Amma heç olmasa üzdə, diplomatik qaydalara riayət etməlisən. Bizə bu məsələdə vasitəçi lazım deyil. Mən bunu demişəm, bu yüksək kürsüdən bir daha demək istəyirəm. Biz öz məsələmizi həll etmişik. Ermənistanla sülh müqaviləsinin imzalanmasının da təşəbbüskarı biz olmuşuq. Beş məlum prinsipin də müəllifi biz olmuşuq. Sülh müqaviləsinin mətnini də biz yazmışıq, Ermənistan tərəfinə göndərmişik. İndi Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, bu müqavilə imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək. Mən artıq dedim, bizim qarşımızda duran çağırışlara, bizə qarşı aparılan çirkin siyasətə biz onsuz da hazır olmalıyıq. Ona görə hesab edirəm ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi beynəlxalq gündəlikdən düşməlidir. Çünki yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, gedin, öz işinizlə məşğul olun. Ona görə mən bu mövzuya, ümumiyyətlə, çox vaxt ayırmaq istəmirəm, çünki buna dəyməz. Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək. Bu yolda hamımıza uğurlar, yolumuz açıq olsun!

❖ ❖ ❖

Bununla da təntənəli andiçmə mərasimi başa çatdı.

# Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət

**Fevralın 14-də andiçmə mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gəlib müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsini ehtiramla yad ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım Ulu Öndərin məzarı önünə gül dəstələri qoydular.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət etdilər və üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarlarının üstünə də gül dəstələri düzüldü.





# Şəhidlərin xatirəsinə ehtiram







**Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edərək, "Əbədi məşəl" abidəsinin önünə gül dəstələri qoydular.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva paytaxt Bakının mənzərəsini seyr etdilər.

Sonra xatirə şəkli çəkdirildi.

## Azərbaycan Respublikası Nazirlər Kabineti üzvlərinin səlahiyyətlərinin icra edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 116-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin istefa verməsini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni tərkibi formalaşdırılanadək Azərbaycan Respublikası Nazirlər Kabineti üzvlərinin səlahiyyətlərinin icra edilməsi Nazirlər Kabinetinin əvvəlki tərkibinə həvalə edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 fevral 2024-cü il*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 87** QƏRAR **Bakı şəhəri, 13 fevral 2024-cü il**

### "Təhsil müəssisəsinin əlavə gəlir əldə etmək məqsədilə məşğul olmasına yol verilən sahibkarlıq fəaliyyəti növlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 19 yanvar tarixli 10 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Təhsil müəssisəsinin əlavə gəlir əldə etmək məqsədilə məşğul olmasına yol verilən sahibkarlıq fəaliyyəti növlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 19 yanvar tarixli 10 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 1, maddə 56 (Cild I) 1-ci hissəsinin səkkizinci abzası aşağıdakı redaksiyada verilsin:

"- tədris prosesində və ya təhsil müəssisələrinin tədris-istehsalat və xidmət sahələrində istehsal edilmiş məhsulların satışı, iş və xidmətlərin göstərilməsi;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 89** QƏRAR **Bakı şəhəri, 13 fevral 2024-cü il**

### "Milli məkan məlumatlarının aero, peyk və ya digər vasitələrlə təsdiq edilməsi ilə bağlı monitorinq keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

"Milli məkan məlumatlarının formalaşdırılması və inteqrasiyası Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 448 nömrəli Fərmanının 4.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Milli məkan məlumatlarının aero, peyk və ya digər vasitələrlə təsdiq edilməsi ilə bağlı monitorinq keçirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

2.1. "Milli məkan məlumatlarının aero, peyk və ya digər vasitələrlə təsdiq edilməsi ilə bağlı monitorinq keçirilməsi Qaydası"na uyğun olaraq milli məkan məlumatlarının monitorinqini aparsın;

2.2. milli məkan məlumatlarının monitorinqinin aparılması prosesində Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin kosmik peyk vasitəsilə təqdim etdiyi "Yerin məsafədən müşahidəsi xidmətləri"ndən istifadə etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 88** QƏRAR **Bakı şəhəri, 13 fevral 2024-cü il**

### "Bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış dövlət peşə təhsili müəssisələrində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxeminin və məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 1 fevral tarixli 26 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış dövlət peşə təhsili müəssisələrində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxeminin və məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 1 fevral tarixli 26 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 330 (Cild I) aşağıdakı məzmunda 6-2-ci hissə əlavə edilsin:

"6-2. Bu Qərar adambaşına maliyyələşmə mexanizminin tətbiq edildiyi peşə təhsili müəssisələrinə şamil edilmir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 90** QƏRAR **Bakı şəhəri, 13 fevral 2024-cü il**

### Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin kənd təsərrüfatı texnikası sahəsində dövlət nəzarətini həyata keçirən işçilərinin xüsusi geyim formasının, fərqlənmə nişanlarının təsviri və təchizat normasının və kənd təsərrüfatı texnikası sahəsində dövlət nəzarətinin həyata keçirilməsi üçün zəruri olan nəzarət-ölçü cihazlarının və digər xüsusi vasitələrin siyahısının təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 oktyabr tarixli 1460 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin kənd təsərrüfatı texnikası sahəsində dövlət nəzarətini həyata keçirən işçilərinin xüsusi geyim formasının, fərqlənmə nişanlarının təsviri və təchizat norması" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Kənd təsərrüfatı texnikası sahəsində dövlət nəzarətinin həyata keçirilməsi üçün zəruri olan nəzarət-ölçü cihazlarının və digər xüsusi vasitələrin siyahısı" təsdiq edilsin (2 nömrəli əlavə).

3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

3.1. iki ay müddətində xüsusi geyim formasının daşınması qaydalarını təsdiq etsin;

3.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış formaya uyğun olaraq bu Qərarla təsdiq edilmiş normalar üzrə təminatın cari il dekabrın 31-i vəziyyətinə dair hesabatı növbəti il fevralın 15-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

3.3. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

4. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin kənd təsərrüfatı texnikası sahəsində dövlət nəzarətini həyata keçirən işçilərinin xüsusi geyim forması, fərqlənmə nişanları, nəzarət-ölçü cihazları və digər xüsusi vasitələr ilə təminatı Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin büdcədənkənar vəsaiti hesabına həyata keçirilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizə uğurlar, qardaş xalqınıza isə daha artıq inkişaf və çiçəklənmə arzulayıram.

Zati-alinizə xoş arzu və ehtiramımızı bildiririk.

*Qardaşınız,*

***Salman bin Əbdüləziz Al SƏUD,***
***İki Müqəddəs Ocağın Xadimi,***
***Səudiyyə Ərəbistanının Kralı***

❖ ❖ ❖

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizə müvəffəqiyyətlər, qardaş Azərbaycan xalqına isə daha çox tərəqqi və inkişaf diləyirəm.

*Zati-alinizə hörmət və ehtiramla,*

***Məhəmməd bin Salman bin Əbdüləziz Al SƏUD,***
***Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazir***

❖ ❖ ❖

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuram.

Sizin yeni prezidentlik dövrünüzdə xalqlarımızın rifahı naminə ikitərəfli münasibətlərimizi daha da gücləndirmək niyyətimizi bir daha bildirirəm.

Dost Azərbaycanın və onun xalqının daha çox tərəqqi və firavanlığı naminə fəaliyyətinizdə Sizə uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Heytəm bin Tariq Al SƏİD,***
***Omanın Sultanı***

❖ ❖ ❖

Zati-aliləri.

BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) katibliyi adından zati-alinizə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

UNESCAP-ın Azərbaycan hökuməti ilə davamlı inkişaf və regional əməkdaşlıq sahələrində uzunmüddətli iş birliyi mövcuddur. Bu fürsətdən istifadə edərək BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın 2023-cü ilin noyabrında Bakıda Sammitinin çox yüksək səviyyədə təşkilinə və bizə göstərilən səmimi qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm.

Mən tam əminəm ki, Sizin müdrik liderliyinizlə səmimi münasibətlərimiz daha da inkişaf edəcək və güclənəcəkdir.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Armida Salsiya ALİŞAHBANA,***
***BMT-nin Baş katibinin müavini və Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının icraçı katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Növbədənkənar prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram. Bu seçkilərin nəticələri Sizin müdrik və qətiyyətli rəhbərliyinizlə Azərbaycan Respublikasının gələcəkdə daha da inkişafının təminatıdır.

İnanıram ki, ölkələrimiz arasında bizim illər əvvəl möhkəm təməllər üzərində əsasını qoyduğumuz qarşılıqlı faydalı əməkdaşlıq və dostluq münasibətləri daha da möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, məsuliyyətli vəzifənizdə uğurlar arzu edirəm.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Milo CUKANOVİÇ,***
***Monteneqronun sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Sizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bu qələbə əhalinin rifahının yüksəlməsinə, sosial təminatının gücləndirilməsinə, eləcə də bir çox digər önəmli məsələlərə istiqamətlənən islahat proqramlarınızın xalq tərəfindən dəstəklənməsinin kulminasiya nöqtəsidir. Siz dövlət başçısı vəzifəsində nəhəng işlər görmüsünüz və Azərbaycan xalqının firavanlığı naminə fəaliyyətinizi davam etdirirsiniz.

Mənim Sizə və Sizin ölkənizə xüsusi münasibətimin olduğunu bilirsiniz. Dostluğumuzu və qarşılıqlı etimadımızı yüksək dəyərləndirirəm.

Əziz İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, hər zaman ruh yüksəkliyi və qardaş Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Ölkənizin ərazi bütövlüyünü bərpa etməklə Siz atanız Heydər Əliyevin arzusunu yerinə yetirdiniz, eyni zamanda xalqın qəhrəmanına çevrildiniz.

*Ən xoş diləklərlə,*

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Neft İxrac edən Ölkələr Təşkilatı (OPEC) adından və şəxsən öz adımdan yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırmaqdan böyük məmnunluq duyuram. Seçkilərdə qələbəniz zati-alinizin müdrik liderliyinin təsdiqidir. Mən növbəti səlahiyyət müddətinizdə Sizə davamlı uğurlar arzulayıram.

Azərbaycan Respublikası neft hasil edən vacib ölkə kimi mühüm rola malikdir, OPEC və qeyri-OPEC ölkələrinin Əməkdaşlıq Bəyannaməsinin əsas üzvüdür. Biz ümumi məqsədlərimizə nail olunmasında və qarşıdakı illərdə qlobal neft və enerji sənayesinin qarşısında duran çağırışların həllində ölkənizlə sıx əməkdaşlığı davam etdirməyə ümidvarıq.

Biz, həmçinin bu ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu (COP29) sessiyasına Azərbaycanın evsahibliyi edəcəyi ilə bağlı təbriklərimizi çatdırırıq. Bu tədbirdə OPEC də iştirak edəcək.

Cənab Prezident, icazə verin Sizi bir daha təbrik edim və Zati-alinizə ən yüksək hörmət və ehtiramımı bildirim.

***Haysam ƏL-QAYS,***
***Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Avropa futbol ictimaiyyəti adından ürəkdən təbrik edirəm.

Seçkilərdə yenidən qazandığınız inamlı qələbə Azərbaycan xalqının Sizə göstərdiyi etimad və inamın bariz sübutudur. Sizin rəhbərliyinizlə Azərbaycan xalqı müxtəlif sahələrdə, o cümlədən idman və futbolda böyük nailiyyətlər əldə edib. Futbola göstərdiyiniz yüksək qayğıya görə Sizə təşəkkürümü bildirirəm. Bundan əlavə, Bakı UEFA-nın "Avro-2020"nin həlledici oyunlarına evsahibliyi edərkən hər kəsin əsl həyəcan hissləri keçirdiyini xatırlatmaq istəyirəm.

Bildiyiniz kimi, 30 il əvvəl - 1994-cü ildə Azərbaycan Futbol Federasiyaları Assosiasiyası UEFA-nın üzvü seçilib. Hökumətin dəstəyi və milli assosiasiyanın fəaliyyəti sayəsində Azərbaycanda futbol bütün səviyyələrdə davamlı olaraq inkişaf edir. Futbol infrastrukturu inkişaf edir və bu, oyunlara yeni yanaşmaları təmin edir. Klubların mütəmadi olaraq Avropa səviyyəsində çıxışları fəxr etməyə və gələcəyə böyük ümidlə baxmağa imkan yaradır.

Cənab Prezident, bu çox gözəl ölkəyə və xalqa liderliyinizi davam etdirməyiniz münasibətilə ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Aleksander ÇEFERİN,***
***UEFA-nın prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Bu gün Azərbaycan dünyada sürətlə inkişaf edərək öz vətəndaşları üçün böyük imkanlar yaradan, həmçinin davamlı tərəqqini təmin edən ölkə kimi tanınır. Bu tərəqqi Sizin Azərbaycanı daha güclü və qüdrətli dövlət etmək bacarığınızdan xəbər verir. İnanıram ki, yeni prezidentliyiniz dövründə Azərbaycan inkişafını davam etdirəcəkdir.

Sizin bütün sahələrə, xüsusilə də idman sahəsinə dəstəyinizi alqışlayıram. Azərbaycan bir çox mühüm idman tədbirlərinə, festivallara, xüsusilə də "Formula-1" yarışlarına evsahibliyi edir. Buna görə də Bakı bütün dünyada idmanın mərkəzi kimi tanınır.

Zati-aliləri, Sizə və ailə üzvlərinizə ən dərin ehtiramımı və xoş arzularımı bildirirəm.

*Hörmətlə,*

***Roy BEYKER ,***
***Dünya Kikboksinq Təşkilatları Assosiasiyasının prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.



Sizin seçkilərdə inamlı qələbəniz xalq arasında siyasi nüfuzunuzun yüksək səviyyədə olduğunu sübut etdi. Əminəm ki, dövləti fəaliyyətiniz gələcəkdə də insan hüquq və azadlıqlarının müdafiəsinin gücləndirilməsi naminə Rusiya-Azərbaycan tərəfdaşlığının, Müstəqil Dövlətlər Birliyi çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığın inkişafına kömək edəcəkdir.

Sizə möhkəm cansağlığı, əmin-amanlıq, Azərbaycan naminə səmərəli fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Tatyana MOSKALKOVA,***
***Müstəqil Dövlətlər Birliyinin İnsan hüquqları komissiyasının sədri, Rusiya Federasiyasının İnsan hüquqları üzrə müvəkkili***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

İcazə verin, Avrasiya Yəhudi Konqresi adından və şəxsən öz adımdan Sizi prezident seçkilərində inamlı qələbəniz münasibətilə təbrik edim. Azərbaycan vətəndaşlarının geniş dəstəyi Sizin dövlət başçısı vəzifəsində əvvəlcədən seçdiyiniz yolun - respublikanın və onun vətəndaşlarının inkişafı, rifahı naminə kursun uğurlu olmasını təsdiq edir. Sizə Azərbaycan xalqının rifahı naminə məhsuldar fəaliyyət, respublikanın beynəlxalq və regional statusunun gələcəkdə də möhkəmləndirilməsini arzulayıram.

Azərbaycan nüfuzlu, tolerant, multikultural və çoxkonfessiyalı dövlət statusunu ardıcıl olaraq sübut edir. Bir tərəfdən ənənələrin və tarixi irsin vəhdəti, digər tərəfdən müasir dünya dəyərlərinə açıq münasibət təkcə düşünülmüş daxili siyasət yürütməyə deyil, həm də xarici əlaqələri möhkəmləndirməyə imkan verir. Bu gün Azərbaycan öz beynəlxalq mövqelərini sürətlə gücləndirir və dünya miqyasında əməkdaşlıq üçün ən yüksək səviyyədə platformaya çevrilir.

Cənab Prezident, İsrail Dövləti ilə ikitərəfli münasibətlərin inkişafı üzrə fəal mövqeyinizə görə Sizə minnətdarıq. Avrasiya Yəhudi Konqresi onilliklər ərzində ardıcıl olaraq İsrail-Azərbaycan əməkdaşlığının müxtəlif sahələrdə inkişafına töhfə verir, respublikanın ərazisində yəhudilərin həyat tərzini dəstəkləyir və yəhudi mədəni irsini qoruyur. Ötən il konqresin himayəsi ilə Avrasiya Yəhudi Tədqiqatları İnstitutu "Azərbaycan yəhudiləri və dağ yəhudiləri diasporu XXI əsrin ikinci və üçüncü onillikləri astanasında" monoqrafik hesabatını dərc edib.

Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə bir daha təbrik edir, Sizə və bütün Azərbaycan xalqına xoşbəxtlik, tərəqqi, sülh və əmin-amanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Mixail MİRİLAŞVİLİ,***
***Avrasiya Yəhudi Konqresinin prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə təbrik edirəm.

Seçkilərdə inamlı qələbəniz Azərbaycan xalqının Sizə yüksək etimadını və ölkənin sosial-iqtisadi inkişafı üzrə həyata keçirdiyiniz siyasətə tam dəstəyini təsdiq etdi.

Bu gün dövlət başçısı vəzifəsində Sizə haqlı olaraq milli lider mövqeyi qazandıran çoxillik məhsuldar fəaliyyətiniz sayəsində Azərbaycan müstəqil, müasir, güclü dövlətdir.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, əmin-amanlıq, dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Azərbaycana sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

***Bakıtcan SAQİNTAYEV,***
***Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Zati-alinizi yenidən Prezident seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Sizin liderliyinizlə Can Azərbaycanda rifahın yüksəlməsinə, bölgəmizdə sülhün və sabitliyin möhkəmlənməsinə nüfuzlu təsirinizin davam edəcəyinə əminik.

Cümhuriyyət Xalq Partiyası olaraq Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin daha da gücləndirilməsi və inkişaf etdirilməsi üçün "Bir millət, iki dövlət" prinsipi çərçivəsində dəstəyimizin və səylərimizin davam etdirilməsi istiqamətində qətiyyətimizi xüsusilə vurğulamaq istəyirəm.

Fürsətdən istifadə edərək Sizə ən xoş arzularımızı çatdırıram. Xalqlarımız arasındakı qardaşlıq və dostluq əlaqələrinin daha da möhkəmlənəcəyinə əminəm.

*Hörmətlə,*

***Özgür ÖZƏL,***
***Türkiyənin Cümhuriyyət Xalq Partiyasının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Sizi yenidən Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm. Bu qələbəniz Azərbaycan xalqının Sizə olan inam və etimadının əyani göstəricisidir. Sizin rəhbərliyiniz altında ölkənin inkişafı, firavanlığı, əmin-amanlığı istiqamətində əldə olunan nailiyyətlər hər kəs tərəfindən yüksək qiymətləndirilir. Yeni prezidentlik müddətinizdə Sizin daha çox uğur əldə edəcəyinizə və Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu daha da artıracağınıza inanıram.

Sizə uzun ömür, cansağlığı, tükənməz enerji, Azərbaycanın daha parlaq gələcəyi, xalqın rifahının yüksəlməsi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Levent KAFKASLI,***
***Türkiyənin "Gap İnşaat" şirkətinin baş icraçı direktoru və İdarə Heyətinin üzvü***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində yenidən zəfər qazanmağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Prezidentliyinizin yeni dönəmində də uğurlarınızla ölkənizi daha da inkişaf etdirməyinizi və firavanlaşdırmağınızı arzulayıram.

*Dərin hörmətlə,*

***Səbuhi ATTAR,***
***Türk-Ərəb ölkələri Əməkdaşlıq Dərnəyinin baş direktoru, Tunisin İzmirdəki fəxri konsulu***

❖ ❖ ❖

Hörmətli cənab Prezident,

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Bu qələbə Azərbaycan xalqının Sizə olan hörmətinin və sevgisinin bariz nümunəsidir.

Cənab Prezident, seçkilərin nəticəsi Sizin xalqımızın qarşısındakı xidmətlərinizi təcəssüm etdirir. Bu gün Azərbaycan xalqı Sizi həm Prezident, həm Ali Baş Komandan, həm torpaqlarımızın baş qoruyucusu və qurucusu, həm əhalinin qayğıkeş rəhbəri, həm də dünyaya haqq sözümüzü çatdıran şəxsiyyət kimi qəbul edir.

Dövlətimizin tarix boyu qarşısına çox sınaqlar çıxmış, Sizin də qismətinizə tariximizin elə bir sınaq dövrü düşüb ki, fövqəladə cəsarət və müdriklik keyfiyyətlərinə malik olmağınız bu imtahandan Qalib olaraq çıxmağınızın əsası oldu.

Sizin uğurlarınız Ulu Öndərimiz Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin daha bir təzahürüdür.

Cənab Prezident, bu xoş fürsətdən istifadə edərək Sizi bir daha şəxsən öz adımdan, eyni zamanda ailəm adından səmimi-qəlbdən təbrik edir, doğma Azərbaycanımızın inkişafına və xalqımızın tərəqqisinə yönəlmiş şərəfli və məsuliyyətli fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

***Həsən HƏSƏNOV,***
***Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının üzvü Azərbaycan Respublikası, Bakı şəhəri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

İcazə verin, Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edim. 2024-cü il fevralın 7-də mən prezident seçkilərində Rusiya Federasiyasından beynəlxalq müşahidəçi qismində iştirak edirdim. Seçkilər açıq, şəffaf, demokratik, yüksək hüquqi və təşkilati səviyyədə, beynəlxalq standartlara və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun keçirildi. Azərbaycan vətəndaşları səsvermədə fəal iştirak edərək özlərinin seçmək hüququnu həyata keçirdilər.

Cənab Prezident, Siz Azərbaycanın Ümummilli Lideri, dünyamiqyaslı siyasətçi, ölkənin inkişafına böyük töhfələr vermiş Heydər Əliyevin siyasi kursunun layiqli davamçısısınız. Fürsətdən istifadə edərək bildirirəm ki, Rusiya ilə Azərbaycanı tarixən qədim qonşuluq və qarşılıqlı etimad münasibətləri birləşdirir. Xalqlarımızın dostluğunun, eləcə də ümumi tarix və mədəniyyətinin dərin kökləri vardır. Dağıstan və Azərbaycan xalqlarını isə həm də Böyük Vətən müharibəsi illərində döyüş meydanlarında özünü daha bariz göstərmiş çoxəsrlik qardaşlıq bağları birləşdirir.

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsində Sizə möhkəm cansağlığı, uğurlar arzulayıram. İnanıram ki, Rusiya ilə Azərbaycan arasındakı dostluq münasibətləri xalqlarımızın rifahı naminə gələcək əməkdaşlıq üçün möhkəm zəmin olacaqdır.

*Hörmətlə,*

***Həsən MİRZƏYEV,***
***Rusiya Federasiyası Dağıstan Respublikası Dərbənd Şəhər Deputatlar Məclisinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunub saxlanılmasında, ölkənin iqtisadi, siyasi və hərbi cəhətdən regionun qlobal güc mərkəzinə çevrilməsində şəxsən Sizə və Azərbaycan xalqına yeni uğurlar arzulayıram.

İşğal altında olmuş torpaqlarımızın Sizin rəhbərliyinizlə düşmən tapdağından tamamilə azad edilməsi hamımızı sevindirdi, fərəhləndirdi. Biz Sizinlə qürur duyuruq! Azərbaycana və onun rəhbərinə yalnız qələbə yaraşır!

Sizə möhkəm cansağlığı, xalqımızın rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram!

*Dərin hörmətlə,*

***Yaşar MUSAYEV,***
***Almaniyanın "BalticNet-PlasmaNet" və "Baku-Nürnberg e.V." Cəmiyyətləri İdarə Heyətinin sədri, Almaniyanın Sosial-Demokrat Partiyası (SPD) Nürnberq şəhəri Nord üzrə İdarə Heyətinin üzvü, texnika elmləri doktoru Almaniya Federativ Respublikası***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Növbədənkənar prezident seçkilərində parlaq qələbəniz və yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm. Bu seçkilərdə qazandığınız uğurlar Azərbaycan xalqının Sizin liderliyinizə və ölkəyə baxışınıza olan inamını əks etdirir.

Mən dərindən əminəm ki, Siz uzunmüddətli siyasi karyeranızla və zəngin dövlət xadimi təcrübəniz üçün səciyyəvi olan həqiqi sədaqət, sonsuz enerji və aydın baxışla ölkəmizin davamlı inkişafına və onun vətəndaşlarının rifahına sadiq qalacaqsınız. Dünyanın üzləşdiyi qeyri-müəyyənliklərin gətirdiyi böyük çağırışlara ləngimədən cavab verməyiniz və çətinliklər qarşısında göstərdiyiniz təqdirəlayiq liderliyiniz və mərhəmətiniz həqiqətən dünyaya ilham verir.

Əvvəlki dövrlərdə qazandığınız nailiyyətlər, sosial sabitliyin təşviqi, regional əməkdaşlığın təmin edilməsi, COVID-19 pandemiyası zamanında dünya siyasətində qütbləşmənin gücləndiyi bir dövrdə birləşdirici siyasətiniz və ən əsası ərazi bütövlüyümüzün bərpası Sizin Azərbaycan xalqının rifahı və firavanlığı naminə göstərdiyiniz fədakarlıqların sübutudur.

Bir daha Sizi bu layiqli qələbə münasibətilə təbrik edirəm. Qoy yenidən Prezident seçilməyiniz Azərbaycan xalqına davamlı yüksəliş, birlik və firavanlıq dövrü gətirsin.

*Hörmətlə,*

***İlham AXUNDOV,***
***Kanada-Azərbaycan Əməkdaşlıq Assosiasiyasının prezidenti, Vaterlu Universitetinin Riyaziyyat fakültəsinin Riyaziyyat-biznes və mühasibat proqramları direktoru, professor Kanada, Vaterlu şəhəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Cari ilin fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi Kvebek Azərbaycanlıları Assosiasiyasının üzvləri adından səmimi-qəlbdən təbrik edirəm.

Möhtəşəm qələbəniz bütün Azərbaycan xalqının Sizə olan etimadının göstəricisidir. Bu gün Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə yalnız Cənubi Qafqazda deyil, beynəlxalq aləmdə də nüfuz sahibi olan bir dövlətdir.

Cənab Prezident, Sizə gələcək fəaliyyətinizdə yeni uğurlar, nailiyyətlər və qələbələr arzu edir, xalqımıza işıqlı gələcək diləyirəm.

*Hörmətlə,*

***Kəmalə ƏLİYEVA,***
***Kvebek Azərbaycanlıları Assosiasiyasının üzvü, Kanada, Monreal şəhəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Alberta Azərbaycan Mədəniyyət Cəmiyyəti adından səmimi təbriklərimi çatdırıram.

Seçkilərin nəticəsi Sizin yüksək siyasi nüfuzunuzu və yürütdüyünüz siyasətə olan milli dəstəyi sübut edir. Siz Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı və dünya arenasında mövqeyinin möhkəmləndirilməsi üçün əməli addımlar atırsınız və bunun nəticələri göz qabağındadır.

Sizin prezidentlik dövründəki fəaliyyətiniz, milli maraqlara əsaslanan daxili və xarici siyasətiniz insanlar arasında böyük rəğbətə, inama və etimada səbəb olmuşdur. Bunun nəticəsidir ki, Siz fevralın 7-də keçirilmiş növbədənkənar Prezident seçkilərində inamlı qələbə qazandınız.

Biz, Kanadada yaşayan Azərbaycan diasporu yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyinizdən məmnunluq duyuruq.

*Hörmətlə,*

***Ceyhun NƏCƏFLİ,***
***Alberta Azərbaycan Mədəniyyət Cəmiyyətinin rəhbəri, Kanada, Alberta əyaləti***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident,

Azərbaycan vətəndaşlığı daşıyan, həm Azərbaycanda, həm də ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımızın etimadı fevral ayının 7-də keçirilən növbədənkənar prezident seçkilərində yenə Sizə oldu. Bu ümumxalq sevgisinin və etibarının arxasında Azərbaycan Respublikasının Lideri olaraq Sizin ölkəmiz və millətimiz naminə müstəsna xidmətləriniz dayanır.

Sizin rəhbərliyinizlə Azərbaycan bütün istiqamətlərdə ardıcıl və davamlı inkişafa nail olmuş, Qarabağın işğalına son qoyularaq ərazi bütövlüyü və suverenliyi tam bərpa olunmuş, Azərbaycan tarixinə ən parlaq səhifə kimi yazılmışdır.

Azərbaycanda keçirilmiş seçkilər xüsusi ruh yüksəkliyi, xalqın mütəşəkkilliyi və yekdilliyi, öz rəhbərinə inamı və məhəbbəti ilə seçildi ki, bu da xalqımız tərəfindən xidmətinizə verilən qiymətdir.

Siz hər zaman xaricdə yaşayan azərbaycanlılarla maraqlanırsınız, fəaliyyətimizi diqqətdə saxlayırsınız, bizə güvənirsiniz. Bu diqqət bizim üçün çox önəmlidir. Arxamızda dövlətimizin dəstəyini görür və bu hissdən qürur duyuruq.

Cənab Prezident, növbədənkənar prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə Sizi bir daha Britaniya Azərbaycan Cəmiyyəti və Qarabağ məktəbinin şagirdlərinin valideynləri və müəllim kollektivi adından ürəkdən təbrik edir, Azərbaycanı daha qüdrətli etmək yolundakı yorulmaz işlərinizdə Sizə yeni-yeni müvəffəqiyyətlər, növbəti zəfərlər, tükənməz güc arzulayırıq. Dəstəyimiz, sevgimiz, dualarımız hər zaman Sizinlədir.

Uca Tanrı Sizi və ailənizi qorusun!

*Hörmətlə,*

*Britaniya Azərbaycan Cəmiyyəti və Qarabağ məktəbinin müəllim kollektivi və şagirdlərinin valideynləri adından,*

***Fəridə PƏNAHOVA,***
***Böyük Britaniya, London şəhəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Sizi prezident seçkilərindəki qələbəniz münasibətilə təbrik edirəm. Bu qələbə Sizin Azərbaycan Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi İkinci Qarabağ müharibəsində Qarabağı işğaldan azad etməklə və ötən il mərkəzi Xankəndidə olan qeyri-qanuni rejimə son qoymaqla əldə etdiyiniz nailiyyətlərin təsdiqidir. İlk dəfə ölkənin bütün ərazisində keçirilən ümummilli seçkilərdə milliyyətindən asılı olmayaraq Azərbaycan vətəndaşları öz seçki hüququndan istifadə etdilər.

Əminəm ki, çox yaxın gələcəkdə Siz Ermənistanla sülh müqaviləsi bağlayacaq, ölkənizi daha böyük uğurlara istiqamətləndirəcək və bütün Cənubi Qafqazda sülhə və həmrəyliyə nail olacaqsınız.

Sizi bir daha səmimi-qəlbdən təbrik edirəm.

*Hörmətlə,*

***Neil VATSON,***
***Britaniyalı jurnalist və redaktor***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

İcazə verin, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə Avro Atlantik Azərbaycanlıları Tərəfdaşlıq Şurası adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırım.

Möhtərəm cənab Prezident!

Neçə-neçə nəslə acı talelər yaşadan böyük bir münaqişənin Sizin müdrik rəhbərliyiniz və komandanlığınızla kökündən həll edilməsi Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

Sizin və ailə üzvlərinizin Xankəndi şəhərində vətəndaşlarla birgə səsvermədə iştirakınızı biz xaricdə yaşayan azərbaycanlılar böyük qürurla izlədik.

2024-ci il fevralın 7-də müdrik Azərbaycan xalqı bir daha düzgün seçim etdi. Dünya azərbaycanlıları böyük inamla yeni dövrün başlanğıcına qəti imza atdı!

Biz - Avropada yaşayan azərbaycanlılar Vətən üçün qəti sözünü deməyə çəkinməyən rəhbərimizin olması ilə fəxr edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq.

*Dərin hörmətlə,*

***Sahil QASIMOV,***
***Avro-Atlantik Azərbaycanlıları Tərəfdaşlıq Şurasının rəhbəri***
***Niderland Krallığı, Amsterdam şəhəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

2024-cü ilin fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərində əldə etdiyiniz böyük qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Şübhəsizdir ki, bu qələbə xalqımızın Sizə olan inamının və sevgisinin bariz nümunəsidir. Dövlətimizin gündən-günə inkişafı, xalqımızın rifah halının yaxşılaşması və ölkəmizin dünya arenasında nüfuz qazanması birbaşa Sizin uzaqgörən siyasətinizin nəticəsidir.

Qətiyyətli siyasi iradəniz və düşünülmüş addımlarınız sayəsində Azərbaycan xalqı 30 illik həsrətində olduğu əzəli və əbədi torpaqlarına geri döndü. Bizə yaşatdığınız Zəfər sevinci xalqımızda Sizin rəhbərliyiniz altında gələcəyə dair böyük ümid yaratmış oldu. Ölkə daxilində və xaricində qazandığınız uğurlar Azərbaycan xalqının növbədənkənar prezident seçkilərində layiqli namizədə, Qalib Xalqın Qalib Lideri olan - Sizə səs verməsi ilə nəticələndi.

Cənab Prezident, bu çətin və məsuliyyətli işinizdə uğurlar, xalqımıza isə əmin-amanlıq və firavan həyat arzu edirəm.

Dünyanın hansı ölkəsində olmağımızdan asılı olmayaraq, daima siyasətinizi dəstəkləyir və Sizinlə qürur duyuruq.

Yaşasın Azərbaycan! Yaşasın İlham Əliyev!

*Hörmətlə,*

***Nərmin ƏLİYEVA,***
***Qlazqo Universitetində fəaliyyət göstərən Azərbaycan Cəmiyyətinin sədri,***
***Şotlandiya, Qlazqo şəhəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Növbədənkənar prezident seçkilərində əldə etdiyiniz üstün qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Şübhəsizdir ki, bu qələbə xalqın Sizə olan etimadının bariz nümunəsidir. Azərbaycanın inkişafı istiqamətində atdığınız addımlarda Siz hər zaman qətiyyət nümayiş etdirmiş, xalqımızın rifahı və ölkəmizin beynəlxalq aləmdə nüfuz qazanması üçün əlinizdən gələni etmisiniz.

Cənab Prezident, Sizin müdrik idarəçiliyiniz sayəsində Azərbaycan xalqı öz tarixi torpaqlarına qayıtdı. Xalqımıza yaşatdığınız Zəfər bütün azərbaycanlıların qəlbində sevinc və qürur hissi oyatmışdır. Bunun nəticəsidir ki, Azərbaycan xalqı növbədənkənar prezident seçkilərində öz layiqli liderinin - Sizin namizədliyinizi yüksək səs göstəricisi ilə dəstəklədi.

Prezidentlik fəaliyyətinizin yeni dövründə Sizə uğurlar arzulayır və bu uğurların ölkəmizin davamlı inkişafında müstəsna rol oynayacağına böyük ümid bəsləyirəm. Çox şadam ki, Qalib Xalqımız öz Qalib Liderini seçdi və bu seçim ilə Azərbaycan yeni inkişaf yoluna qədəm qoydu. Sizə bu yolda hər zaman olduğu kimi əmin addımlarla irəliləməyi arzu edirəm.

Cənab Prezident, dünyanın istənilən yerində olmasından asılı olmayaraq, daima biz azərbaycanlılar Sizinlə qürur duyuruq.

Yaşasın Azərbaycan!

*Hörmətlə,*

***İbrahim XASIYEV,***
***Böyük Britaniya, Şotlandiya, Aberdin şəhəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin Mirqorod şəhər və Mirqorod rayon təşkilatının üzvləri adından Sizi 2024 ci il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində qələbə qazanmağınız münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Əmin idik ki, Azərbaycan Respublikasının vətəndaşlarının, dünya azərbaycanlılarının seçimi güclü, ədalətli, müzəffər, qətiyyətli Lider olacaq.

Bundan əvvəlki fəaliyyətiniz dövründə apardığınız müdrik siyasətin və qəhrəman ordumuzun gücü sayəsində separatizmə son qoyuldu, mənfur düşmənlər Azərbaycanın tarixi torpaqlarından çıxarıldı. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam təmin olundu.

Bu gün Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir. Sizin uğurlu fəaliyyətiniz Azərbaycanımızı daha parlaq gələcəyə aparacaq.

Ukraynada yaşayan azərbaycanlılara göstərdiyiniz diqqət və qayğı üçün Sizə dərin təşəkkürümüzü bildiririk. Bu ölkədə çətin dövrdə yaşasaq da, biz milli maraqlarımızı qoruyub saxlamaq üçün əlimizdən gələni edəcəyik. Sizə arxalaranaq Qalib dövləti, Qalib xalqı təmsil etmək bizim üçün qürurverici hissdir. Siz dünya azərbaycanlılarının Prezdentisiniz.

Qalib Xalqın, Qalib Lideri!

Zəfərlərə davam!

*Hörmətlə,*

***Zamir İSMAYILOV,***
***Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin Mirqorod şəhər və Mirqorod rayon təşkilatının sədri,***
***Ukrayna, Mirqorod şəhəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Azərbaycan Respublikasında keçirilmiş növbədənkənar prezident seçkilərində Sizin qazandığınız inamlı qələbənin beynəlxalq mətbuatın diqqət mərkəzində olması hər birimizi sevindirdi.

Böyük iftixar hissi ilə Moskva şəhərinin qərb inzibati dairəsində Azərbaycanlıların Milli-Mədəni Muxtariyyətinin üzvləri olaraq fevralın 7-də keçirilmiş prezident seçkilərində mütləq səs çoxluğu ilə qələbə qazanmağınız münasibətilə Sizi təbrik edirik.

Son 20 ildə Azərbaycanda böyük irəliləyiş əldə olunub. İqtisadi göstəricilər Azərbaycanın real uğurlarını əks etdirir. Əhalinin həyat səviyyəsinin yaxşılaşması, yoxsulluğun aradan qaldırılması istiqamətində ciddi işlər görülmüşdür. 7 fevral seçkilərinin nəticələri onu göstərir ki, xalqımız məhz Sizin müdrik rəhbərliyinizlə dövlətimizin uğurlarının davam etdirilməsini istəyir. Bununla Azərbaycan xalqı Sizə olan sonsuz inam və sevgisini bir daha nümayiş etdirdi.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə cansağlığı, xoşbəxtlik və uğurlar arzu edirik.

*Hörmətlə,*

***Əli KAZIMOV,***
***Moskva şəhərinin qərb inzibati dairəsində Azərbaycanlıların Milli-Mədəni Muxtariyyətinin sədri,***
***Rusiya Federasiyası, Moskva şəhəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident,

İcazə verin, Leninqrad vilayətində və Sankt-Peterburq şəhərində yaşayan azərbaycanlılar adından Sizi Azərbaycan Respublikası Prezidenti seçkilərində növbəti inamlı qələbə münasibətilə təbrik edim.

Səsvermənin nəticələri Sizin yüksək siyasi nüfuzunuzu, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafını və mövqelərinin dünya arenasında möhkəmlənməsi üzrə apardığınız kursa ümumxalq dəstəyini tam təsdiqləyir.

Əminik ki, fəaliyyətinizin yeni dövrü Azərbaycanda və onun hüdudlarından kənarda yaşayan soydaşlarımız üçün yeni işıqlı gələcəyin təminatı olacaq.

*Hörmətlə,*

***Vaqif MƏMİŞOV,***
***Sankt-Peterburqda Azərbaycan Milli-Mədəni Muxtariyyətinin sədri,***
***Rusiya Federasiyası, Sankt-Peterburq şəhəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Rusiya Federasiyasında fəaliyyət göstərən "Krasnodar diyarı Azərbaycanlıları Birliyi"nin üzvləri Sizi seçkilərdə inamlı qələbəniz münasibətilə dərin hörmət hissi ilə təbrik edir.

Biz Sizin Azərbaycanda və beynəlxalq siyasətdə böyük nüfuzunuzla fəxr edirik. Çox şadıq ki, Siz Rusiya və digər ölkələrlə dostluq münasibətlərinin saxlanmasına böyük diqqət yetirirsiniz. Sizin düşünülmüş siyasətiniz sayəsində Azərbaycan regionda sülhün qarantı sayılır.

Sizə Azərbaycan Respublikasının inkişafı və çiçəklənməsi yolunda şərəfli fəaliyyətinizdə davamlı uğurlar və tükənməz enerji arzulayırıq.

*Hörmətlə,*

***Cəlal Camal oğlu ABDULLAYEV,***
***Rusiya Federasiyasında fəaliyyət göstərən "Krasnodar diyarı Azərbaycanlıları Birliyi"nin sədri ,***
***Rusiya Federasiyası, Novorossiysk şəhəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Ərazi bütövlüyümüzün bərpasında rolunuza yekun siyasi qiymət vermiş növbədənkənar prezident seçkisində qələbəniz münasibətilə Sizi təbrik edirik. Bu qələbəniz bir daha sübut etdi ki, xalqımızın Sizə olan inamı, güvəni sarsılmaz və daimidir.

Müasir dövrün tələblərinə uyğun apardığınız uğurlu siyasət Azərbaycanın inkişafına böyük töhfəsini verir və ölkəmiz bir çox sahələrdə dünyada və regionda lider qismində öz sözünü deyir.

Ulu Öndər Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı olaraq Sizə növbəti Prezidentlik dönəmində müvəffəqiyyətlər arzulayırıq!

Prezidentimiz xalqa, xalqımız isə Prezidentimizə dayaqdır!

*Hörmətlə,*

***Ceyran QURBANOVA***
***Gürcüstanda yaşayan Azərbaycanlı Məktəbli Gənclərin Mədəniyyət Mərkəzinin sədri,***
***Gürcüstan, Tbilisi şəhəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

İcazə verin, yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Qazaxıstan Respublikasının Aktau şəhərində fəaliyyət göstərən "Dostluq" Etno-mədəni Birliyinin üzvləri adından ən səmimi təbriklərimi çatdırım. Seçkilərdə inamlı qələbəniz Azərbaycan xalqının Sizə inamını və etimadını, rəhbərliyinizlə ölkədə həyata keçirilən inkişaf kursuna dəstəyini əks etdirir.

Xalqımız əmindir ki, Sizin rəhbərliyinizlə Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən qərarların qəbulunda yenə də müdriklik, cəsarət və qətiyyət müşayiət olunacaq. Biz fəxr edirik ki, Azərbaycan üçün tarixi əhəmiyyətli bu məqamda ölkəmizə rəhbərlik edirsiniz və çətinlikləri, qarşıya çıxan maneələri qətiyyətlə dəf edirsiniz.

Sizin rəhbərliyinizlə ötən 20 il ərzində ölkəmiz böyük inkişaf yolu keçmiş, tarixi hadisələrə, zəfərlərə şahidlik etmişdir. Sizin zəngin təcrübəniz və əzmkarlığınız bundan sonra da ölkəmizin çiçəklənməsinə, mövqelərinin və nüfuzunun beynəlxalq aləmdə möhkəmlənməsinə xidmət edəcəkdir.

Bu əlamətdar günlərdə Sizə möhkəm cansağlığı, səmərəli fəaliyyət və Azərbaycanın inkişaf yolunda yeni nailiyyətlər arzulayırıq!

*Hörmətlə,*

***Şəmsəddin HÜSEYNOV,***
***Aktau şəhərindəki "Dostluq" Etno-mədəni Birliyinin sədri,***
***Qazaxıstan Respublikası, Aktau şəhəri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu,

Biz - Qırğız Respublikasında fəaliyyət göstərən Azərbaycan diasporunun üzvləri böyük məmnuniyyətlə Sizi Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbrik edir, Sizə uzun ömür arzulayır, hörmətimizi və tam dəstəyimizi bildiririk!

Siz atanızın - Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin layiqli övladı kimi iki yüz ildən sonra ilk dəfə olaraq xalqımıza öz tarixi ata-baba torpaqlarını qaytarmış Rəhbərsiniz.

Cənab Prezident, məhz Sizin sayənizdə bütün dünyada azərbaycanlılar başı dik, qürurlu gəzirlər. Biz - xaricdə yaşayan azərbaycanlılar hər zaman tarixi Vətənimizin dəstəyini hiss edir və fəxr edirik ki, Sizin Prezidentliyinizlə Azərbaycan bütün dünya ölkələrinin hesablaşdığı, həm iqtisadi, həm də hərbi cəhətdən güclü dövlətə çevrilib.

Bütün bunlar Sizin - Azərbaycan Respublikası Prezidentinin, Ali Baş Komandanının, xalqımızın Müzəffər Liderinin uzaqgörən və ağıllı siyasəti sayəsində baş verib.

*Hörmətlə,*

***Xansıvar BAXŞƏLİYEV,***
***Qırğızıstandakı "Birlik" Azərbaycanlıların İctimai Birliyinin sədri,***
***Qırğız Respublikası, Bişkek şəhəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

2024-cü il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində qələbəniz münasibətilə Sizi - Ümummilli Lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən qalib Liderimizi Gürcüstanda fəaliyyət göstərən "Qanun" Hüquqi Yardım Mərkəzinin kollektivi adından təbrik edirəm.

Dünya azərbaycanlılarının adını qalib xalqlar siyahısına qızıl hərflərlə yazan, Azərbaycanın ərazi bütövlüyünü tam bərpa edən Liderin qələbə qazanması təbii idi. Bu, Sizin siyasətinizin müdrikliyinə Azərbaycan xalqının inamını bir daha sübut etdi.

Gürcüstanda yaşayan azərbaycanlılar olaraq biz Sizi çox sevirik.

Sizə möhkəm cansağlığı və uzun ömür arzulayırıq!

*Hörmətlə,*

***Əli BƏDİROV,***
***"Qanun" Hüquqi Yardım Mərkəzinin baş direktoru,***
***Gürcüstan, Tbilisi şəhəri***

❖ ❖ ❖

Cənab Prezident,

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibəti ilə Sizi bütün diaspor üzvlərimiz və öz adımdan ürəkdən təbrik edirəm.

Sizin bir daha Prezidentimiz olmağınızdan çox sevincliyik və ürəkdən inanırıq ki, hər zaman olduğu kimi Siz xalqımıza, millətimizə, dövlətimizə layiqincə başçılıq edəcək, ölkəmizin müstəqilliyini daha da möhkəmləndirəcək, iqtisadiyyatımızın inkişafının sürətləndirilməsi istiqamətində fəaliyyətinizi davam etdirəcəksiniz.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə bu çətin yolda uğurlar və hər işinizdə müvəffəq olmağınızı, xalqımıza əmin-amanlıq arzu edirəm.

Allah Sizi və ailənizi qorusun, yar və yardımçınız olsun.

*Hörmətlə,*

***Könül HACIZADƏ,***
***"Vətənsevər" Azərbaycan-Küveyt Mədəniyyət və Dostluq Cəmiyyətinin sədri,***
***Küveyt Dövləti, Əl-Küveyt şəhəri***

❖ ❖ ❖

Əziz Prezidentimiz.

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbrik edirəm. Bu seçki Azərbaycan xalqının Sizə sonsuz inamını və dəstəyini bir daha nümayiş etdirdi. Seçkidəki qalibiyyətiniz Azərbaycanın inkişaf yolunda irəliləyişini təmin edir. Biz inanırıq ki, Sizin rəhbərliyinizlə ölkəmiz daha da inkişaf edəcək və Azərbaycanın daha da parlaq gələcəyi olacaq.

Siz müdrik rəhbər kimi beynəlxalq aləmdə nüfuz qazanmış müasir Azərbaycan dövlətinin tərəqqisi üçün çox işlər görürsünüz. Ölkəmizin hüdudlarından kənarda yaşayan Azərbaycan vətəndaşları olaraq qalib xalqımızın qalib Lideri ilə qürur duyuruq!

Doğma Vətənimizin yüksəlişi və xalqımızın rifahı naminə bundan sonrakı fəaliyyətinizdə də Sizə yeni-yeni zəfərlər, tükənməz eneri, uğurlar arzulayıram. Sizə və ailənizə möhkəm cansağlığı və xoşbəxtlik diləyirəm.

*Hörmətlə,*

***Solmaz RƏHİMOVA,***
***Kosta-Rika Respublikası***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Zati-alilərinizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbə münasibətilə təbrik etməkdən şərəf duyur, Uca Allahdan Azərbaycan naminə misilsiz fəaliyyətinizdə Sizə yeni nailiyyətlər və zəfərlər diləyirəm.

Sizin Allah-Təalanın nəzərində və Azərbaycan xalqının qəlbində ucaldığınız zirvə bütün qələbələrizin mənbəyidir. Xalqın müqəddəs arzu və mübarək niyyətlərinin gerçəkləşməsi yolunda dərin zəka və müdrik dövlətçilik təfəkkürü ilə həyata keçirdiyiniz qalibiyyətli siyasi xətt Azərbaycanı bütün istiqamətlər üzrə zirvələrdə bərqərar etmişdir. Azərbaycanın ərazi bütövlüyünü və əzəli torpaqları üzərində suveren hüququnu tam təsbit etmiş Cənabınızın Azərbaycan xalqına bəxş etdiyi Qarabağ Zəfəri, Şuşa ərməğanı, Xankəndi Zəfəri uğurlu dövlət xadiminin, qalib sərkərdənin doğma xalqına əvəzsiz töhfəsidir. Uca Yaradan doğru yolda olanların səy və əməllərinə rəvac verir! Bütün bu uğurlara görə xalq zati-alilərinizə siyasi lider olaraq verdiyi dəyər, bəslədiyi sədaqət və minnətdarlığını ilk dəfə bütün Azərbaycan ərazisində keçirilmiş Zəfər ab-havalı seçkilərdə bir daha əyani şəkildə bəyan və nümayiş etdirdi.

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan, 20 il ərzində müstəqil Azərbaycanı dünya miqyasında sürətlə inkişaf edən dövlətlər sırasına yüksəldən, iqtisadi qüdrətimizin artmasına aparan siyasətin memarı, milli-mənəvi, dini dəyərlərimizin himayədarı olaraq, qlobal müstəvidə bəşəri əhəmiyyətli ideya və təşəbbüslərin müəllifi kimi dünya miqyasında dövlət başçısı statusunda olan şəxslər sırasında Sizin xüsusi yeriniz və məqamınız danılmazdır.

Qədirbilən Azərbaycan xalqı, o cümlədən, dindarlar Sizin qalib Azərbaycanın qalib Lideri olaraq məqamınıza böyük ehtiram duyur və bu seçimlərin də xalqımız və dövlətimiz üçün xeyirlərə vəsilə olduğuna ürəkdən inanır. Xalq əmindir ki, bu qalibiyyətli yol bizi yeni zirvələrə aparacaq, tarixi əhəmiyyətli hədəflərimizə yetirəcək, beynəlxalq müstəvidə yerimizi daha da möhkəmlədəcəkdir. Ölkəmizin tərəqqi və çiçəklənməsinə xidmət edən, bölgəmizin siyasi gələcəyini formalaşdıran, dünya miqyasında insan həmrəyliyinə xidmət edən ideya və əməllər müəllifinə Uca Allah yardımçı olsun!

Möhtərəm cənab Prezident! Sizin qalib Azərbaycanın müasir tarixində yeni mərhələ olan növbəti Prezidentlik dönəminiz xeyirli-uğurlu olsun! Əminəm ki, Sizin yeni dövr üçün yeni milli ideya barədə müdrik fikirləriniz cəmiyyətimizin və dövlətimizin yeni uğurlarının möhkəm zəmini olacaqdır. Tarixi ədaləti, beynəlxalq hüququ öz gücü ilə bərpa etmiş Azərbaycanın yeni hədəfləri mübarək olsun! Öz milli-mənəvi irsinə sahib çıxan, dini abidələrini dövlət qayğısı ilə bərpa və yenidən quran, məscid və məbədlər inşa edən, multikultural ənənə və dəyərləri, etnik, dini müxtəlifliyini göz bəbəyi kimi qoruyan Azərbaycan hər zaman ucalacaqdır, inşallah. Milli dəyər, mənəvi zərurət və tarixi əhəmiyyət kəsb edən bütün hədəf və istiqamətləri ehtiva edən yeni milli ideyamızın Sizin rəhbərliyinizlə ölkəmizi yeni zirvələrə ucaltmağı üçün bütün Azərbaycan dindarları səmimi qəlbdən dualar edir, Uca Allahdan Sizin öndər şəxsiyyət olaraq xalqımız və dövlətçiliyimiz naminə mübarək missiyanızın təntənəsinə rəvac verməsini diləyirlər.

Zati-aliləri! Azərbaycan Respublikasının Prezidenti məqamında qarşıdakı fəaliyyətinizə Şeyxülislam olaraq xeyir-dualar verir, ölkə dindarlarının iradəsini ifadə edərək zati-alilərinizə və dəyərli ailənizə cansağlığı, xoşbəxtlik, dövlətçiliyimiz naminə fəaliyyətinizə yeni uğurlar diləyirəm. Allah-Təala yeni Prezidentlik dönəminizi mübarək, xalqımız üçün xeyirli-uğurlu qərar versin! Uca Rəbbimiz hər zaman yardımçınız olsun, öz lütf və mərhəmətini Azərbaycan xalqı, dövləti və onun müdrik dövlət rəhbəri üzərində bərqərar etsin, Sizi və Azərbaycanı hifz etsin!Amin!

*Dərin hörmət və ehtiramla,*

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları idarəsinin sədri***
***Azərbaycan Respublikası, Bakı şəhəri***

❖ ❖ ❖

Zati-aliləri,

Möhtərəm cənab Prezident,

İcazə verin Sizi növbədənkənar seçkilərdə inamlı qələbəniz münasibətilə Azərbaycan katolikləri adından və şəxsən öz adımdan ürəkdən təbrik edim.

Öz milli adət-ənənələrinə və siyasi mədəniyyətinə sadiq, ölkəsinin müstəqilliyini müqəddəs sayan Azərbaycan xalqı Sizə - suverenliyin, milli təhlükəsizliyin və xalq birliyinin təmin edilməsi, ərazi bütövlüyünün bərpası, dinamik dövlət quruculuğu və iqtisadi inkişaf kimi ölkə və cəmiyyət qarşısında duran əsas strateji vəzifələri ardıcıl və yüksək səmərəliliklə həll edən müdrik və uzaqgörən rəhbərə bir daha etimad göstərdi.

Sizin rəhbərliyinizlə Azərbaycan müxtəlif millətlərin və dinlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı, ölkənin etnik, dini, dil və mədəni müxtəlifliyinin qorunub saxlanılması və artırılmasının dövlət siyasəti səviyyəsində həyata keçirildiyi müasir, sürətlə inkişaf edən ölkə nümunəsinə çevrilib.

Azərbaycanın sivilizasiyalararası və dinlərarası dialoq sahəsində rolu və əldə etdiyi nailiyyətlər haqlı olaraq beynəlxalq aləmdə ən yüksək qiymətə layiq görülüb. Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında yüksəksəviyyəli qarşılıqlı etimad və əməkdaşlıq xüsusi sevinc və qürur hissi yaradır və bu Müqəddəs Ata Fransisk və Katolik Kilsəsinin digər iyerarxları tərəfindən dəfələrlə qeyd olunub.

Katolik xristian icması Azərbaycanda Katolik Kilsəsinin ehtiyaclarına göstərdiyiniz qayğıya görə Sizə dərin minnətdarlığını bildirir, Sizi və Sizin simanızda bütün Azərbaycan xalqını əmin edir ki, biz bundan sonra da Azərbaycan cəmiyyətində dinlərarası sülhün, çoxmillətli və çoxkonfessiyalı Azərbaycan xalqının dini-mənəvi dəyərlərinin qorunub saxlanılması, təşviqi və möhkəmləndirilməsi, xalq birliyinin təmin edilməsi işinə öz imkanlarımız daxilində töhfə verəcəyik.

Zati-aliləri,

Azərbaycanda Katolik Kilsəsinin ruhaniləri, rahibləri və bütün dindarları Allaha dua edərək, Sizə möhkəm cansağlığı, uzun ömür, uğurlar, Azərbaycanın çiçəklənməsi naminə qarşıya qoyduğunuz bütün vəzifələrin həyata keçirilməsində səbir, ruhani və cismani güc arzulayırlar.

Uca Yaradan Sizi və ailənizi qorusun, Azərbaycanı sülh içində saxlasın!

*Dərin hörmətlə,*

***Vladimir FEKETE,***
***Azərbaycanda Katolik Kilsəsinin apostol prefekti,***
***Munisipin titulyar yepiskopu,***
***Azərbaycan Respublikası, Bakı şəhəri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Zati-alinizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Azərbaycanın Provaslav icması adından təbrik edirəm.

Prezident seçkilərində qazandığınız inamlı və əsaslı qələbə ardıcıl strateji siyasəti ilə cəmiyyətin möhkəmlənməsini, ərazi bütövlüyünü və dövlətin dinamik inkişafını təmin edən müdrik və uzaqgörən Lider kimi xalqın Sizə olan sonsuz inamından xəbər verir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən dövlət siyasətinin əsası kimi qoyulmuş multikulturalizm və dini tolerantlıq ideyaları Sizin tərəfinizdən fəal şəkildə həyata keçirilir. Bu gün Azərbaycan Vətənin rifahı və firavanlığı ideyaları altında birləşən müxtəlif millətlərin və dini baxışların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı dövlətin bariz nümunəsidir.

Ölkənin ərazi bütövlüyünün bərpası dövlətin inkişafı və Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi üçün yeni üfüqlər açdı. Uzunmüddətli müharibə şəraitindən sonra ölkəmizdə sülh və quruculuq dövrü başlayır. Xalqımızın Azərbaycanı yeni, dinc qələbələrə aparacaq güclü və müdrik lider olan Sizi bir daha Prezident kimi görmək arzusu həyata keçdi.

Sizə ölkəmizin çiçəklənməsi naminə nəzərdə tutduğunuz bütün planların və təşəbbüslərin uğurla həyata keçirməyinizi arzulayırıq.

Allah Sizi və ailənizi qorusun!

Allah Azərbaycanı qorusun!

*Dərin hörmət və ehtiramla,*

***Arximandrit Aleksiy NİKONOROV,***
***Rus Pravoslav Kilsəsinin və Azərbaycan Yeparxiyasının katibi,***
***Azərbaycan Respublikası, Bakı şəhəri***




# İLHAM ƏLİYEV missiyasının yeni mərhələsi

## Azərbaycan tarixinin daha sürətli yüksəliş dövrü başlayır

**...Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!**

Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam...

Dünən Prezident əsas hüquqi və mənəvi rəmzlərə - Konstitusiyaya və Qurani-Şərifə and içərək şərəfli missiyasının yeni mərhələsinə başladı...

Mövcudluğunun ən qüdrətli Zəfər dövrünü yaşayan Azərbaycanın isə yeni inkişaf, yüksəliş tarixinin ilk sətirləri yazıldı...

### Zəfər andı

Vətənə, dövlətə və xalqa sədaqət andının gerçəkləşdiyi mərasim yenə də İlham Əliyevin dəyişməz üslubunda idi: bəlağətdən uzaq sadəlik, təmtəraqdan kənar səmimilik, sırf işgüzarlıq dövlət başçısının səlahiyyətlərinin icrasına başlama anının əsas məziyyətləri oldu.

Fəqət, xüsusi əlamətdarlıqdan və pafoslu mərasim meyarlarından uzaq olan bu andiçmənin məğzində dövlətin və xalqın aliliyini təcəssüm etdirən olduqca mühüm məqamlar dayanırdı.

Parlamentdə baş tutan andiçmənin rəmzi anlamı da var idi. Bu, hakimiyyətin üç qolu (icra, qanunverici və məhkəmə) arasında hüquqi bağlılığı və məsuliyyət vəhdətini mükəmməl şəkildə əks etdirirdi: mərkəzi icra hakimiyyətinin rəhbəri qanunverici orqanının - parlamentin binasında və onun üzvləri qarşısında ali məhkəmə strukturunun təmsilçilərinin iştirakı ilə and içdi!

"İnaqurasiya" latın sözüdür, "həsr edirəm" mənasını verir. Prezident İlham Əliyev də Vətənə, xalqa və dövlətə sədaqət andını, Azərbaycana həsr etdiyi missiyasının növbəti mərhələsinin başlanğıc anını ən yüksək yerində Ulu Öndərin "Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır" yazılmış məkanda - parlamentdə gerçəkləşdirməklə siyasi ənənəni davam etdirdi, həm də bu prosedura rəmzi anlam gətirdi.

Prezident fəaliyyət fəlsəfəsinin - "biz yalnız Azərbaycan dövlətinin və xalqının maraqlarına xidmət edirik", "Biz xalqın xidmətçisiyik", "Bizim üçün yeganə istinadgah yalnız xalqdır, onun inamı və etimadıdır" amalının dəyişməzliyini növbəti dəfə sübut etdi!

Prezident 20 il öncə elan etdiyi "əsl siyasət real iş və konkret fəaliyyətdən ibarətdir" məramına sadiqliyini göstərdi: andiçmədən və ənənəvi ziyarətlərindən sonra nə ziyafətə, nə də bayram tədbirlərinə qatıldı…

Müqəddəs ehtiram ünvanlarını ziyarətdən sonra birbaşa Prezident Administrasiyasına getdi, səlahiyyətlərinin icrasına başladı, həllini gözləyən problemlərin nizamlanması ilə məşğul oldu…

Ümumiləşdirsək isə şanlı Azərbaycan mücadiləsinin növbəti zəfər məqamlarını yazmağa davam etdi!

### Prezident sözü Prezident imzasıdır

Prezidentin inaqurasiya mərasimində hər kəsin - həm xalqın, həm də ümumiyyətlə, dünyanın gözlədiyi əsas an dövlət başçısının proqram çıxışında toxunduğu məqamlar idi. Azərbaycanın qarşıdakı yeddi il ərzində daxili, xarici, hərbi, iqtisadi, sosial və digər sahələr üzrə siyasətinin əsas koordinatlarını əks etdirən nitq dolğun, aydın və konkret idi.

Hər kəs bir daha anladı ki, doğru yoldayıq, müstəqilliyimizin, inkişafımızın və Zəfərin reallıqlarının davamlı olması üçün məhz bu yolla irəliləməliyik.

Prezident dövlətin, xalqın maraqlarının təmini, istiqlaliyyətimizin qorunması üçün nə gərəkdirsə, onu da edəcək!

Prezidentin sözü də, sözünün ahəngi də dəyişməz idi.

Prezident həmişəki kimi qətiyyətli idi. Xankəndidə dalğalanan bayrağın və xalqından növbəti dəfə aldığı möhtəşəm dəstəyin mənəvi gücü Ona kürsüdə xüsusi əzmkarlıq verirdi.

Prezident həmişəki kimi lider görkəmində idi. O, yeniləşdirdiyi Azərbaycanın iftixar icmalını verir və qarşıdakı yeddi ildə yaradacağı Azərbaycanın yeni inkişaf təmayüllərini elan edirdi.

Prezident həmişəki kimi səmimi idi. Sözünün və özünün - fikirlərinin və əməllərinin tam vəhdəti bu dəfə də tam aydınlığı ilə görünürdü. Sadə, anlaşılan dillə, siyasi sofistikadan və pafosdan uzaq çıxışla dünyaya yeni Azərbaycanın yeni siyasətinin mesajlarını çatdırırdı.

Prezident həmişəki kimi milli maraqları ifadə edirdi. Heç bir məkrli qüvvənin Azərbaycanda hansısa ssenari həyata keçirməsinə imkan verilməyəcəyinin, ölkəmizin müstəqil siyasətinin daha inadla və uğurla davam etdiriləcəyinin bəyanatını verirdi.

Prezident həmişəki kimi hər bir azərbaycanlının rəhbəri, dostu, himayədarı kimi danışırdı. O, Azərbaycan insanının bu dövlətin, xüsusən də öz fəaliyyətinin ən müqəddəs dəyəri olduğunu və bu yanaşmanın daha güclü Azərbaycanla daha güclü məna kəsb edəcəyini söyləyirdi.

Prezident həmişəki kimi bu çıxışında da misilsiz natiq, qətiyyətli sərkərdə, müdrik siyasətçi, uğurlu islahatçı, qabiliyyətli iqtisadçı, bacarıqlı diplomat..., ən nəhayət, Azərbaycan dövlətinin və xalqının həm xidmətçisi, həm də Lideri olduğunu təsdiq etdi!

### Qarşıdakı 7 il...

Prezidentin növbəti yeddi il üçün elan etdiyi proqramında ilkin olaraq ötən 20 ilə nəzər salındı. Keçilən yolu, qazanılan nailiyyətləri xatırlamaq gərəkli idi: çünki görülən işlər görüləcək işlərin zəminidir!

Prezident sonra sabahdan danışdı. Və bu sabah, əslində, qarşıdakı yeddi ili yox, onillikləri əhatə edirdi. Bu inkişaf qaçılmazdır və onun dinamikasının daha da yüksələcəyi tam əsaslandırılıb.

Tək bir şərt var: müstəqillik yolundan, Heydər Əliyev kursundan dönməmək və İlham Əliyev missiyası ətrafında ümummilli səfərbərliyimizi davam etdirmək!

Prezidentin cəmiyyətə, dünyaya mesajları müfəssəl, hərtərəfli və əsaslandırılmış idi. Prezident heç bir vəd vermədi, görəcəyi işlərin, nəzərdə tutduğu planların qısa icmalını çatdırdı.

Qarşıdakı yeddi il ərzində bu missiyanın uğurla həyata keçəcəyinə şahid olacağıq. Necə ki, ötən 20 il kontekstində Prezident İlham Əliyevin sözünə də, əməlinə də, fəaliyyətinə də tam qiymət vermək mümkündür.

Prezident xalqına gələcəyə nikbinliklə baxmağı tövsiyə etdi. Azərbaycanın daha güclü dövlət olacağını bildirdi. Və sonda hər bir vətəndaşa qürur gətirən sözlərini söylədi:

"Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək. Bu yolda hamımıza uğurlar, yolumuz açıq olsun!"

*Müstəqilliyimizin təminatı, dövlətçiliyimizin sükanı etibarlı əldədir!*

*Heç şübhəsiz, öz taleyinin sahibi olan xalq tarixin ən qüdrətli Azərbaycanının və ən möhtəşəm Zəfərinin müəllifi olan Liderin rəhbərliyi altında bütün hədəflərə çatacaq!*

*Qarşıdakı 7 il Azərbaycanın ən şanlı salnamələrinin yazılacağı dövr olacaq - İlham Əliyev bunu da bacaracaq!*

***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***

## İlham Əliyev fəaliyyət istiqamətlərini açıqladı

### Dövlət başçısı regionda vəziyyəti gərginləşdirməyə çalışanlara ciddi mesajlar verdi

Fevralın 14-də Prezident İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirildi.

Dövlət rəsmiləri və parlamentin deputatlarının iştirak etdiyi mərasimdə Prezident bəyan etdi ki, səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcək, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacaq, xalqa ləyaqətlə xidmət edəcək.

Prezident İlham Əliyevin andiçmə mərasimi ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Aydın Mirzəzadə qeyd edib ki, inaqurasiya istənilən dövlətin siyasi həyatında çox əlamətdar bir hadisədir.

Deputat bildirib ki, ümummilli seçkidə qalib gəlmiş şəxsin Konstitusiyaya əməl edəcəyinə, cəmiyyətin problemlərini həll edəcəyinə dair and içməsi ciddi dövlətçilik atributlarından biridir: "Eyni zamanda inaqurasiya yeni seçilmiş dövlət başçısının fəaliyyət göstərəcəyi dövr üçün siyasi proqramının prioritetlərinin açıqlanması üçün bir məqamdır. Cənab Prezident öz fəaliyyətinin əsas istiqamətləri barəsində geniş auditoriyanı məlumatlandırdı. Bunların bir qismi onun fəaliyyətindən aydın idi, amma cənab Prezident bir daha onları diqqətə çatdırdı. Azərbaycan dövlətinin müstəqilliyinin qorunması, dövlətimizin inkişaf etdirilməsi, beynəlxalq birlikdə layiqli yer tutulması, Azərbaycanın müstəqil daxili, xarici siyasət yürütməsi, ərazi bütövlüyü məsələsinin daima diqqətdə olması kimi vacib məqamlara toxundu. Cənab Prezident həmçinin Ermənistanla münasibət məsələlərinə aydınlıq gətirərək normal münasibətlərin qurulmasını istədiyini bildirdi".

Deputat vurğulayıb ki, Prezident regionda vəziyyəti gərginləşdirməyə çalışan dövlətlərə də öz işləri ilə məşğul olması ilə bağlı ciddi mesajlar verib. Prezidentin çıxışı böyük maraqla dinlənilib və onun prioritetlərinin milli maraqlarımıza cavab verməsi açıq-aydın görünüb.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Prezidentin yeni hədəfləri

"Fevralın 14-də Milli Məclisdə Prezident İlham Əliyevin andiçmə mərasimi keçirildi. Dövlət başçısı proqram xarakterli çıxışında bir çox məqamlara aydınlıq gətirdi. Ölkə rəhbəri ilk növbədə tarixi zəfərimizlə bağlı çox mühüm qiymətləndirmələr apardı və bu qələbəni şərtləndirən amilləri təhlil etdi. Qeyd olundu ki, birlikdə olmağımız, həmrəyliyimiz, Azərbaycan Ordusunun qəhrəmanlığı, xalqımızın böyük dəstəyi sayəsində bu tarixi zəfərə imza atdıq, bütün ərazilərimizdə suverenliyimizi təmin etdik".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov deyib. Deputat qeyd edib ki, Prezidentin fevralın 7-də seçki prosesinə məhz Xankəndidə qatılması ermənilərə və havadarlarına verilən mesaj idi. Andiçmə mərasimindəki çıxışında isə İlham Əliyev Azərbaycanla Ermənistan arasında sülh prosesi ilə bağlı məsələni diqqət mərkəzinə çəkdi və qeyd etdi ki, bu məsələdə bizim heç bir vasitəçiyə ehtiyacımız yoxdur. Biz sülh prosesi ilə bağlı beş baza prinsipi və sülh müqaviləsinin mətnini hazırlayıb qarşı tərəfə təqdim etmişik. İndi Ermənistan real addımlar atmalı və yekun sülh sazişi imzalanmalıdır. Əgər Ermənistan bu istiqamətdə real addımlar atmayacaqsa, heç bizə də sülh lazım deyil. Lakin buna görə bütün məsuliyyət Ermənistanın və havadarlarının üzərinə düşəcək.

Deputat bildirib ki, Prezident andiçmə mərasimində Azərbaycanın xarici siyasət məsələlərinə də diqqət çəkib: "Dövlətimizin başçısı qeyd etdi ki, bizim beynəlxalq təşkilatlar arasında birnömrəli tərəfdaşımız böyük coğrafiyanı əhatə edən, əhalisi və təbii ehtiyatları çox olan Türk Dövlətləri Təşkilatı olmalıdır. Ən əsası da odur ki, biz eyni soydanıq. Ona görə də bu təşkilatla əməkdaşlıq və TDT-nin möhkəmləndirilməsi bizim üçün birnömrəli prioritet olmalıdır. Həmçinin İslam Əməkdaşlıq Təşkilatı ilə əlaqələr də bundan sonra genişləndirilməli və inkişaf etdirilməlidir".

Elman Nəsirovun sözlərinə görə, Prezident, eyni zamanda ordumuzun daha da gücləndirilməsini prioritet vəzifə kimi müəyyən etdi: "Son dərəcə güclü orduya malik olmalıyıq və bugünkü dünya reallıqları göstərir ki, güclüsənsə, haqlısan. Dövlət başçısı bildirdi ki, bu gün bir çox dövlətlər bu məsələyə xüsusi önəm verirlər. Ancaq biz 20 ildir bu siyasəti həyata keçiririk və bunun sayəsində qalib gəlmişik. Zəfərə imza atmışıq və bundan sonra da hərbi quruculuq, hərbi büdcənin artırılması məsələləri diqqətdə saxlanılmalıdır. Cənab Prezident ölkəmizə qarşı daxili təhdidlərin olmadığını, amma xaricdən təzyiqlərin mövcudluğunu vurğuladı. Xarici təzyiqlər həm də ideoloji təzyiqlərlə müşayiət olunur. Bu baxımdan gənc nəslin tərbiyə edilməsi, yetişdirilməsi məsələlərini önə çəkdi. Ölkə rəhbəri vətənpərvər ruhda yetişdirilən gənclər sayəsində tarixi zəfərə imza atdığımızı, bundan sonra da bu siyasətin davam etdirilməli olduğunu, onların tərbiyəsinin ilk növbədə ailədən başladığını vurğuladı və qeyd etdi ki, ailə institutunu daha da möhkəmləndirməliyik".

E.Nəsirov bildirib ki, Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizin bərpasını və yenidən qurulmasını növbəti mühüm vəzifə kimi qiymətləndirib və deyib ki, bu istiqamətdə çox ciddi işlər gedir. Dövlət başçısı Qarabağ və Şərqi Zəngəzurda görülən işlər barədə də söz açıb.

Deputatın sözlərinə görə, sonda bir daha Azərbaycan-Ermənistan münasibətlərinə toxunan Prezident vurğuladı ki, biz Ermənistanla münasibətləri normallaşdırmaq istəyirik: "Prezident İlham Əliyev qeyd etdi ki, heç bir vasitəçisiz biz bunu həyata keçirmək iqtidarındayıq. Ermənistan tərəfi düşünsün və təxribatçı addımlara son qoysun. Təxribatçı davranış Ermənistan üçün həmişə ciddi problemlər yaradacaq. Ermənistanın İkinci Qarabağ müharibəsini və 19-20 sentyabr antiterror tədbirlərinin nəticələrini yaddan çıxarmağa başladığını deyən Prezident Ermənistan tərəfinə və onun havadarlarına çox ciddi mesajlar verdi".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edir, ən xoş arzularımızı bildiririk!

2024-cü il fevralın 7-də keçirilmiş Prezident seckilərinin nəticələri ölkədə aparılan ictimai-siyasi, beynəlxalq, iqtisadi proseslərin məntiqi nəticəsi kimi qiymətləndirilir.

Bu seçkilər göstərdi ki, xalq Sizi dahi şəxsiyyət Ulu Öndər Heydər Əliyev məktəbinin ən layiqli davamçısı, Azərbaycana bundan sonra da hələ çox zəfərlər, qələbələr qazandıracaq Lider kimi qəbul edir.

Müstəqillik tariximizdə ilk dəfə olaraq bütöv Azərbaycanda keçirilən Zəfər titullu seçkidə seçicilərin mütləq əksəriyyəti respublikamızı hərtərəfli inkişaf etdirən, onu tarixinin ən qüdrətli dövlətinə çevirən, torpaqlarımızı azadlığına qovuşduran, ərazilərimizdə erməni separatizminə son qoyan rəhbərə səs verdi.

Sizin seçkilər günü Azərbaycanın dilbər guşələrindən olan Xankəndi şəhərində seçkilərdə iştirakınız Azərbaycanın son 200 illik tarixində yeni səhifələrin açılması müjdəsini verdi.

Azərbaycan xalqı son iyirmi il ərzində ölkədə görülmüş işlərə öz yüksək qiymətini verərək, Sizin növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti secilməyinizə səs verməklə öz iradəsini tam şəkildə ortaya qoydu.

Böyük qürur və iftixar hissi ilə qeyd etmək istəyirik ki, Sizin rəhbərliyinizlə 44 günlük Vətən müharibəsi və antiterror tədbirlərinin həyata keçirilməsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi, dövlətimizin qüdrətinin artması, xalqımızın rifah səviyyəsinin yüksəlməsi, sosial-iqtisadi infrastrukturun müasirləşdirilməsi inkişaf tariximizin yeni bir mərhələsinə qədəm qoymağımıza imkan yaratmışdır.

Azərbaycan Prezidenti olduğunuz müddətdə, uğurla həyata keçirilən islahatlar nəticəsində ölkəmizin beynəlxalq nüfuzu artmış, müdafiə qabiliyyəti gücləndirilmiş, insanların maddı rifah halı qat-qat yaxşılaşdırılmış, sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülmüşdür.

Sizin rəhbərliyiniz altında müəyyənləşdirilmiş iqtisadi strategiya ölkədə iqtisadi islahatların hüquqi bazasının təkmilləşdirilməsində, iş adamlarının hüquqi və qanuni mənafelərinin qorunmasında, habelə işgüzar fəaliyyətinin gücləndirilməsində mühüm rol oynamış, ölkədə son 20 il ərzində Ümumi Daxili Məhsulun real həcmi 4 dəfə artmış, Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkəsi kimi tanınmışdır.

Ölkədə uğurla həyata kecirdiyiniz daxili və xarici siyasəti bəyənən və daim dəstəkləyən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ölkə sahibkarlarının yekdil iradəsini ifadə edərək, Sizə doğma Azərbaycanımızın inkişafı və tərəqqisi naminə fədakar əməyinizdə müvəffəqiyyətlər arzulayır.

Möhtərəm cənab Prezident!

Fürsətdən istifadə edərək, bir daha Sizi Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, müstəqil, demokratik Azərbaycanın daha da möhkəmlənməsi, xalqımızın xoşbəxt gələcəyi naminə yorulmaz fəaliyyətinizdə uğurlar arzulayırıq!

*Dərin hörmət və ehtiramla, coxminlik Azərbaycan sahibkarları adından*

**M.Q.MUSAYEV,**
**Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Prezidenti**



## Azərbaycan Mühəndislik Akademiyasının Bakı Bəyannaməsi qəbul edilib

**Azərbaycan Mühəndislik Akademiyasının İdarə Heyətinin növbəti iclası keçirilib. İclasda Mühəndislik Akademiyasının Bakı Bəyannaməsi müzakirə olunub.**

Bu barədə AZƏRTAC-a Azərbaycan Mühəndislik Akademiyasından məlumat verilib. İclasda çıxış edən akademiyanın prezidenti, akademik Arif Paşayev qeyd edib ki, Azərbaycan Mühəndislik Akademiyası UNESCO-nun nəzdindəki Ümumdünya Mühəndislik Təşkilatları Federasiyasına (WFEO) tamhüquqlu üzv seçilib: "Bu, əlbəttə, böyük uğurumuzdur və eyni zamanda cəmiyyət qarşısında böyük məsuliyyətimizdir".

Akademik Arif Paşayev bildirib ki, Azərbaycan Mühəndislik Akademiyası, Ümumdünya Mühəndislik Təşkilatları Federasiyası və onun Baş Assambleyasının, eləcə də 7-ci Ümumdünya Mühəndislik Konqresinin tövsiyələrini əsas tutaraq, planetar problemləri həll etmək və texnoloji yeniliklərin və transdisiplinar yanaşmaların necə təmin edilə biləcəyini araşdırmaq, təhlükəsiz, ədalətli, sağlam və dinc gələcəyi, ekoloji, sosial və iqtisadi davamlılığı təmin etmək məqsədilə ölkə mühəndislərini bir araya gətirməyi qarşısına qoyaraq bəyan edir. Mühəndislik və həyat arasında ayrılmaz bir əlaqə olduğunu və bu əlaqənin dünyaya əsaslı töhfələr verə biləcəyini diqqətə çatdıran akademik Arif Paşayev deyib: "Mühəndislik cəmiyyətləri məqsədlərinin həllinə və həll yollarının tapılmasına önəmli töhfə verməyə borcludur. Xüsusilə iqlim dəyişikliyi dövrümüzün ən kritik və aktual məsələsidir. Buna görə də BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri, gələcək rifahımızı, həyat keyfiyyətimizi təhdid edən bəşəriyyətin üzləşdiyi misli görünməmiş qlobal problemlərin həlli üçün göstərilən tövsiyələri yerinə yetirmək istiqamətində mühəndislər bir araya gəlməlidirlər".

Yekunda akademik Arif Paşayev akademiyanın qəbul etdiyi Bakı Bəyannaməsinin bəşəriyyətin innovativ mühəndisliyə ehtiyacını və eləcə də ehtiyac duyulan paradiqma dəyişikliyini təmin etmək üçün bir açar olacağına ümidvar olduğunu bildirib.

## *İcma:* "Avropa İttifaqının bəyanatı düşmənçilik mahiyyəti daşıyır"

Avropa İttifaqı (Aİ) növbəti dəfə anti-Azərbaycan qərəzindən çıxış edərək Azərbaycanda keçirilmiş tarixi prezident seçkiləri ilə bağlı 2024-cü il fevralın 14-də Strasburqda böhtan xarakterli bəyanat verib.

Qərbi Azərbaycan İcmasından AZƏRTAC-a bildirilib ki, Aİ-nin bəyanatı düşmənçilik mahiyyəti daşıyır və Azərbaycan xalqının sərbəst şəkildə ifadə etdiyi iradəsinə hörmətsizlikdir. "Avropa Şurası Parlament Assambleyasının seçkiləri müşahidə üçün dəvət edilməməsindən qəmgin olmuş Aİ-nin diqqətinə çatdırmaq istərdik ki, seçkiləri müşahidə üçün xaricdən kimi dəvət etməyi müəyyənləşdirmək Azərbaycanın suveren hüququdur. Avropa İttifaqı azərbaycanofob, səlibçi yanaşmasından, Azərbaycanın daxili işlərinə qarışmaq və ona qara yaxmaq kimi zərərli vərdişlərindən əl çəkməlidir", - deyə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda vurğulanıb.

## Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin cari vəziyyəti və perspektivləri müzakirə olunub

Azərbaycan Respublikasının xarici işlər naziri səlahiyyətlərini icra edən Ceyhun Bayramov fevralın 14-də Rusiya Federasiyasının xarici işlər nazirinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayev ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin cari vəziyyəti və perspektivləri, regionda mövcud vəziyyət və son hadisələr, eləcə də regional məsələlər müzakirə olunub.

Ermənistanın Azərbaycan hərbi qulluqçusunun yaralanması ilə nəticələnən son hərbi təxribatlarının son aylarda hökm sürən sabitliyə və ümumilikdə Azərbaycan-Ermənistan normallaşma prosesinə zərbə vurmaq məqsədi daşıdığı diqqətə çatdırılıb. Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## *XİN:* "Cozep Borelin Azərbaycan əleyhinə əsassız iddialarını pisləyir və rədd edirik"

Fevralın 13-də Avropa İttifaqının (Aİ) xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borelin Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ilə birgə mətbuat konfransı zamanı Azərbaycan əleyhinə əsassız iddialarını pisləyir və rədd edirik.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsi məlumat yayıb.

"Ali nümayəndə Cozep Borelin hərbi təcavüz törətmiş Ermənistan tərəfinə bəraət qazandırması, Ermənistanın hərbi təxribatına göz yumulması kimi qiymətləndirilir. Təəssüf ki, Aİ tərəfi 5 ay sabitlik hökm sürəndən sonra heç bir təhrikedici amil olmadan snayper atəşi nəticəsində Azərbaycan hərbi qulluqçusunun yaralanmasına etinasız yanaşır.

Azərbaycan tərəfindən təxribata cavab olaraq atılmış addımlar tam adekvat və lokal xarakterli idi. Bu tədbirlər həmçinin Ermənistan tərəfindən hərbi eskalasiyanın genişlənməsi cəhdlərinin qarşısını alıb.

Bununla yanaşı, bir daha vurğulamaq istərdik ki, Avropa İttifaqının ali nümayəndəsinin silahlı qüvvələrin geri çəkilməsi barədə heç bir praktiki əhəmiyyətə malik olmayan təklifi təəssüf doğurur. Aİ tərəfi nəzərə almalıdır ki, Ermənistan tərəfindən sərhədyanı bölgələrdə "Avropa İttifaqı Missiyası himayəsi" altında yerləşdirilmiş muzdlular Azərbaycan hərbçilərinin və mülki əhalisinin həyatına təhdiddir.

Azərbaycanın Qarabağ iqtisadi rayonunu könüllü olaraq tərk etmiş erməni-əsilli sakinlərin məcburi köçkün kimi qələmə verilməsi və Azərbaycanın ərazisi olan bu bölgəyə münasibətdə "Dağlıq-Qarabağ" kimi mövcud olmayan adlardan istifadə edilməsi qəbuledilməzdir. Azərbaycan tərəfi dəfələrlə erməni sakinlərin öz evlərində qalması üçün müraciətlər etdiyi Aİ tərəfinə yaxşı məlumdur.

Əfsuslar olsun ki, ərazini tərk etmiş erməni sakinlərə münasibətdə hətta ermənilərin dilə gətirmədiyi əvvəlki rəqəmlərə istinada ali nümayəndə tərəfindən düzəliş edilməsinə baxmayaraq, bu məsələdə də nümayəndənin erməni təbliğatının təsirində olduğu aydın görünür.

Bir daha təəssüflə qeyd edirik ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin sülhə yönəlmiş təşəbbüslərinə baxmayaraq, xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndə birtərəfli ermənipərəst mövqe tutaraq Azərbaycanla Avropa İttifaqı təsisatları arasında uçurum yaradır və özünü nəticə etibarilə Azərbaycan-Ermənistan normallaşma prosesindən tamamilə təcrid edir", - deyə məlumatda qeyd edilib.

## General-polkovnik Elçin Quliyev yaralanmış hərbi qulluqçunu ziyarət edib

Fevralın 14-də general-polkovnik Elçin Quliyev Respublika Neyrocərrahiyyə Xəstəxanasında Azərbaycan-Ermənistan şərti dövlət sərhədində Zəngilan rayonu ərazisində Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində yaralanmış əsgər Xəlilzadə Pərviz Ağakişi oğlunu ziyarət edib, müalicəsinin gedişatı ilə maraqlanıb və tezliklə sağalaraq səhhətinin tam bərpa edilməsini arzulayıb.





Dövlət Sərhəd Xidmətinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əsgər P.Xəlilzadə göstərilən diqqət və qayğıya görə öz minnətdarlığını bildirib və müalicəsi bitdikdən sonra həmin sərhəd döyüş məntəqəsində xidmətini davam etdirmək arzusunda olduğunu ifadə edib.

Daha sonra general-polkovnik Elçin Quliyev Neyrocərrahiyyə xəstəxanasının həkim və tibb personalı ilə görüşərək, əməliyyatın yüksək peşəkarlıqla icra olunduğuna, yaralıya lazımi diqqət və qayğı göstərdiklərinə görə öz minnətdarlığını bildirib.



# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident!**

Sizi Azərbaycan Respublikasında keçirilmiş prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) adından səmimi-qəlbdən təbrik edirik. Bu qələbə Azərbaycan vətəndaşlarının Sizin liderliyinizə olan hədsiz etimadının təzahürüdür. Bununla yanaşı, bu nəticə dahi Heydər Əliyev tərəfindən qoyulmuş təməl üzərində son 20 ildə Sizin daxili, regional və beynəlxalq müstəvidə əldə etdiyiniz misilsiz nailiyyətlərə verilmiş qiymətdir.

Sizin ölkəmizə rəhbərlik etdiyiniz müddətdə Ulu Öndər Heydər Əliyev siyasi kursunun davamı olaraq həyata keçirdiyiniz uğurlu siyasət nəticəsində müstəqil Azərbaycan, qızıl hərflərlə ən yeni şanlı tarixini yazdı. Sizin uzaqgörən və müdrik siyasətinizin nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Bu xoş günləri bizə bəxş etdiyinizə görə bir daha Sizə sonsuz təşəkkürlərimizi bildiririk. Sizin şücaətləriniz tarixə qızıl hərflərlə həkk olunacaq, əsrlər keçsə də, bu xalq Sizi minnətdarlıqla xatırlayacaqdır. Hər bir azərbaycanlı Sizin rəhbərliyiniz altında olan dövlətdə yaşadığı üçün daim dərin fəxarət hissləri keçirəcək.

Sizin strateji siyasətiniz sayəsində Azərbaycan sosial və iqtisadi inkişaf istiqamətində ciddi irəliləyişə nail olmuş, hər bir vətəndaşın təhlükəsizliyi və firavanlığı təmin edilmiş, ölkəmiz regional liderə çevrilərək beynəlxalq arenada həsəd aparılası nüfuza sahib olmuşdur.

Azərbaycan və Türkiyə arasındakı bu gün strateji tərəfdaşlıq xarakteri kəsb etmiş ənənəvi dostluq, mehriban qonşuluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə Siz xüsusi töhfə vermisiniz. Azərbaycan Türkiyə İş Adamları Birliyi olaraq, bu siyasətin həyata keçirilməsinə daim səy göstərəcəyimiz barədə Sizi əmin etmək istəyirik.

Fürsətdən istifadə edərək, təşkilatımızın fəaliyyətinə verdiyiniz dəstəyə görə də Sizə bir daha təşəkkür edirik.

Sizi bir daha ürəkdən təbrik edir, möhkəm cansağlığı, tükənməz güc-qüvvət, Azərbaycan xalqının rifahı naminə yüksək dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

*Dərin hörmət hissi ilə,*

**Mürsəl RÜSTƏMOV,**
**ATİB İdarə Heyətinin sədri**

# İrəvanın "sülh" imitasiyası

## Aİ müşahidə missiyası yenə də qeyri-şəffaf fəaliyyət göstərir

"Azərbaycan Cənubi Qafqazda sülh və əməkdaşlığın təmin olunmasında maraqlıdır. Ona görə də, Ermənistana sülh sazişi imzalamağı təklif edib. Lakin Ermənistan bu təşəbbüsə adekvat cavab vermir. Rəsmi İrəvanın sözdə sülh tərəfdarı olmasından danışması imitasiyadan başqa bir şey deyil".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib. O bildirib ki, Paşinyan hakimiyyəti bu addımı ilə beynəlxalq ictimaiyyəti aldatmağa çalışır.

Deputat qeyd edib ki, Ermənistan hər zaman qeyri-konstruktiv mövqe nümayiş etdirib. İrəvan 30 illik işğal siyasəti həyata keçirən zaman da sülhdən danışırdı. Məqsəd isə bundan ibarət idi ki, torpaqlarımızı həmişə işğal altında saxlaya bilsin. Keçmiş ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlar prosesinin heç bir nəticə verməməsi bunun göstəricisi idi. Çünki Ermənistan danışıqlara guya sülh tərəfdarı olması görüntüsü yaratmaq üçün qatılırdı. Sülh prosesində isə bir addım belə irəli atılmadı. Ona görə də, Azərbaycan öz gücünə torpaqlarını işğaldan azad edərək beynəlxalq hüququ təmin etdi.

Ermənistanın 44 günlük müharibədə ağır məğlubiyyətə uğramasından lazımi dərs çıxarmadığını bildirən S.Fətəliyeva deyib ki, rəsmi İrəvan xarici havadarlarının təhriki ilə sülh sazişi imzalamaqdan yayınır, revanşist iddialarla çıxış edir: "Bu səbəbdəndir ki, son üç ildən artıq müddətdə törətdiyi təxribatlara görə ordumuz tərəfindən layiqli cavab alsa da, erməni tərəfi bu yaramaz əməllərini davam etdirir. Fevralın 12-də Zəngilan istiqamətində mövqelərimizə atəş açılması və bir sərhədçimizin yaralanması da bunu təsdiqləyir. Sərhədçimizin snayperlə vurulması Ermənistanın növbəti məqsədyönlü təxribatıdır. Bu günlərdə Ermənistan baş naziri Paşinyanın "The Telegraph" nəşrinə aqressiv tonda verdiyi müsahibəsi də Ermənistanın növbəti təxribat hazırladığından irəli gəlirdi. Digər tərəfdən, Ermənistan parlamentinin müdafiə və təhlükəsizlik məsələləri üzrə daimi komitəsinin sədr müavini Armen Xaçatryanın Ermənistanın Fransadan, Hindistandan silah alması, silahlanma sahəsində böyük həcmdə iş aparması, bunun nəticələrinin yaxın zamanlarda özünü göstərəcəyini deməsi də Ermənistanın yeni hərbi təxribatlarının ola biləcəyini istisna etmirdi".

Komitə sədrinin müavini qeyd edib ki, ermənilərin hərbi təxribatı bu ölkədəki Avropa İttifaqı Müşahidə Missiyasının (EUMA) monitorinqi altında olan ərazidə baş verib. Hadisənin Ermənistan silahlı qüvvələri tərəfindən qəsdən və məqsədyönlü şəkildə törədildiyi və vəziyyətin gərginləşməsinə çalışıldığı aydın görünür. Bu, o deməkdir ki, Ermənistan Aİ missiyasının arxasında gizlənərək öz çirkin niyyətlərini reallaşdırmağa çalışır.

Sevinc Fətəliyeva bildirib ki, Aİ missiyasının genişləndirilməsinin, eləcə də, Fransanın Ermənistanı silahlandırmasının regionda vəziyyətin gərginləşməsinə xidmət etdiyi Azərbaycan tərəfindən dəfələrlə vurğulanıb. Bir müddət öncə Fransa generalının Ermənistana səfəri və Azərbaycanla sərhədə gəlməsi, sərhəddə Çexiya vətəndaşının saxlanması və digər faktlar Ermənistanın revanş planlarından hələ də əl çəkmədiyini göstərir. Bunun bir sübutu da erməni snayperin sərhəd mövqelərinə gətirilib yerləşdirilməsidir. "Azərbaycan Aİ missiyasının öz ərazisində yerləşdirilməsinə əvvəlcədən qəti şəkildə etiraz edib. Çünki müəyyən beynəlxalq dairələrin regionda hansı maraqlar güddüyü məlumdur. Ona görə də, Avropa İttifaqı "müşahidə" ideyasından çəkinməli idi, çünki istənilən halda EUMA-nın birtərəfli və qeyri-şəffaf fəaliyyət göstərəcəyi gözlənilən idi", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, müəyyən qüvvələr uydurmalar əsasında bölgədə müharibə riskinin olduğunu yayaraq, hərbi qarşıdurma yaratmağa çalışırlar. Görünən odur ki, bu oyunların təşkilatçıları üçün Ermənistan alətdir. Onlar çox gözəl başa düşürlər ki, Azərbaycan öz təhlükəsizliyinə, ərazi bütövlüyünə və dövlət suverenliyinə daimi təhlükələrin qarşısını həmişə alacaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycan ona qarşı törədilən təxribatları cavabsız qoymayacaq

Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Ermənistan silahlı qüvvələrini diz çökdürdü.

Lakin imzalanan 10 noyabr üçtərəfli Bəyanatdan sonra da Ermənistan ordusunun tör-töküntüləri və separatçı qüvvələr Qarabağdan, eləcə də başqa ərazilərimizdən çıxmadılar. Buna görə də Azərbaycan Ordusu 12-13 sentyabr 2022-ci il tarixlərində Laçın rayonu istiqamətində "Qisas" əməliyyatı keçirtdi. Uğurla başa çatan bu əməliyyatdan sonra separatçılar ağır itkilər verərək Laçın rayonunun ərazisindəki böyük strateji əhəmiyyətə malik olan yüksəkliklərdən geri çəkildilər.

Ordumuzun uğurla həyata keçirdiyi əməliyyat Ermənistana, eləcə də onun havadarlarına təəssüf ki, yaxşı dərs olmadı. İşğalçılıq planlarından əl çəkməyən Ermənistan ordusunun tör-töküntüləri və separatçılar silahı yerə qoymadılar. İşğalçı qüvvələri Qarabağdan zor gücünə çıxarmaq məcburiyyətində qalan Azərbaycan Ordusu 19-20 sentyabr 2023-cü il tarixlərində Qarabağda lokal xarakterli antiterror tədbirləri keçirdi. 24 saata yaxın davam edən tədbirlər nəticəsində Qarabağdakı separatçılar məhv edildi. Sağ qalanlar isə ağ bayraq qaldıraraq silahlarını yerə qoyub əbədi-əzəli Azərbaycan torpağı olan Qarabağdan çıxacaqlarını bildirdilər.

Uğurla başa çatan bu əməliyyat nəticəsində separatizmin 30 ilə yaxın Qarabağdakı quldur yuvası darmadağın edildi. Ərazilərimizdə müxtəlif təxribatlar törədən separatçılar antiterror əməliyyatında Azərbaycan Ordusundan sarsıdıcı zərbə aldı. Bununla da, Azərbaycan ərazisində erməni separatizminə son qoyuldu.

Bu antiterror əməliyyatından sonra səngərlərə sakitlik çökdü, silahlar susdu. Şərti sərhədlərdə atəş açılmadı, qan tökülmədi. Ermənistan özünü sülh tərəfdarı kimi göstərməyə çalışdı. Bu məqsədlə müxtəlif səviyyələrdə görüşlər keçirtdi, bir-birini təkzib edən bəyanatlar verdi. Sülh sazişinin imzalanması ilə bağlı həm Azərbaycan, həm də beynəlxalq təşkilatlar üçün müəyyən görüntülər yaratmağa başladı. Amma bu görüntülərin arxasında sülh istəyi müşahidə olunmadı. Çünki sözdə sülhə can atan Ermənistan gah Hindistandan, gah da onu bütün dairələrdə müdafiə edən Fransadan silahlar aldı, müharibəyə hazırlaşdı. Sülh sazişi imzalamaq istəyən düşmən ölkənin bu addımları heç bir məntiqə sığmadı.

Bəzi dairələr Ermənistanın Azərbaycanın uğurla başa çatdırdığı antiterror əməliyyatlarındakı, İkinci Qarabağ müharibəsindəki ağır məğlubiyyətlərindən nəticə çıxardığını zənn edirdi. Amma son günlər Zəngilan rayonu istiqamətində Ermənistan tərəfdən atəşkəsin pozulması ilə nəticələnən hadisə zənn olunanların yanlış olduğunu göstərdi. Görünür, Ermənistan 2020-ci ildən başlayaraq Azərbaycan Silahlı Qüvvələrindən aldığı sarsıdıcı zərbələrdən düzgün nəticə çıxarmamışdı. Əgər düzgün nəticə çıxarsaydı, mövqelərimizə atəş açıb əsgərimizi yaralamazdı.

Xəbər verildiyi kimi, fevralın 12-də Azərbaycan-Ermənistan şərti dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Zəngilan rayonunun Kolluqışlaq kəndi ərazisində yerləşən mövqeyinə Ermənistan Silahlı Qüvvələrinin Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeyindən açılan atəş nəticəsində azərbaycanlı hərbi qulluqçu yaralanıb. Bu hadisə bir daha göstərdi ki, Ermənistan üzərinə götürdüyü öhdəliklərinə sadiq deyil, danışıqlar prosesini hər an, hər dəqiqə pozmağa meyillidir.

Ermənistan silahlı qüvvələri yalnız Zəngilan istiqamətində deyil, fevralın 12-də Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən də ordumuzun Tovuz rayonunun Koxanəbi yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub. Göründüyü kimi, Ermənistan havadarlarından aldığı təlimatlar əsasında yenə də ön xətdə təxribatlar törədir.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev çıxışlarında deyirdi ki, bir nəfər də olsun Azərbaycan əsgərinin qanı yerdə qalmayacaq. Hamı bilməlidir ki, hər bir təxribat şiddətli şəkildə cavablandırılacaq. Cavablandırıldı da. Qoy Ermənistan da, onun havadarları da yaxşı bilsinlər və görsünlər ki, Azərbaycan ona qarşı törədilən istənilən təxribatı heç vaxt cavabsız qoymur.

Azərbaycan Silahlı Qüvvələrinin bölmələri fevralın 13-də Ermənistan ordusunun bir gün əvvəl törətdiyi təxribata cavab olaraq "Qisas" əməliyyatı keçirib. Məlumata görə, əməliyyat nəticəsində fevralın 12-də əsgərimizə atəş açılan Ermənistan silahlı qüvvələrinin Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsinin yaxınlığındakı döyüş postu tamamilə darmadağın edilib, atəş nöqtəsi susdurulub. Məhv edilmiş döyüş postunun şəxsi heyəti arasında ciddi itkilər var.

Dövlət Sərhəd Xidmətindən verilən məlumatda qeyd olunur ki, Ermənistan tərəfinin Azərbaycan-Ermənistan şərti dövlət sərhədində əməliyyat şəraitinin gərginləşdirilməsinə yönələn hər bir təxribatına bundan sonra ciddi və qətiyyətli tədbirlərlə cavab veriləcək. Baş vermiş hadisəyə görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Ermənistan-Azərbaycan şərti sərhədində atəşkəsi pozaraq təxribata cəhd edən Ermənistan ordusunun 4 hərbi qulluqçusu öldürülüb. Bu barədə məlumat verən Ermənistan tərəfi bir hərbçisinin də yaralandığını etiraf edib.

Azərbaycan-Ermənistan şərti sərhədində baş verən hadisənin üstündən müəyyən vaxt keçsə də, nədənsə nə Avropa İttifaqı, nə də başqa beynəlxalq təşkilatlardan səs çıxmır. Onlar tərəfindən hadisə ilə bağlı heç bir rəy verilmir, münasibət bildirilmir. Əslində, Avropa İttifaqı erməni təxribatı baş verən kimi hadisəyə operativ münasibət bildirməli, qan tökülməsinə laqeyd qalmamalıydı. Sülhə mənfi təsir göstərən təxribata görə ən azından Ermənistanı qınamalıydı. Ancaq Aİ bunu etmədi. Ermənistanı qınamağı qalsın bir yana, Avropa İttifaqı hadisəni araşdırmağa da maraq göstərmədi. Görünən odur ki, bu hadisə guya regionda sülh istəyən Aİ-ni heç narahat da etmir. Əslində isə Avropa İttifaqı Ermənistanın baş verdiyi təxribata münasibət bildirməli, cavab verməlidir. Çünki bu qanlı hadisəyə görə Ermənistan rəhbərliyi ilə yanaşı, Avropa İttifaqının missiyasının nümayəndələri, hərbçiləri, instruktorları, binoklçuları da məsuliyyət daşıyırlar. ABŞ, Fransa vəziyyəti gərginləşdirməklə mövcudluqlarını Ermənistanda və regionda uzatmaq və saxlamaq istəyirlər. Ancaq Ermənistan anlamalıdır ki, heç bir dövlət onun arxasında dayana bilməyəcək. Çünki onun qarşısında güclü, qüdrətli, ərazisinə olunan bütün təxribatlara layiqli cavab verməyə hazır və qadir olan Azərbaycan var.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***





# Ata yolu

**Ölkəmizin həyatında önəmli hadisə baş verdi - xalqımız növbəti dəfə ölkənin liderini seçdi. İlham Əliyev 92,12 faiz səs toplayaraq yenidən Prezident seçildi. Bu inamın, etimadın səbəbi, mənası, mahiyyəti isə bəllidir.**

İstər-istəməz göz önünə 1990-cı illər gəlir. Respublikamızda yaranan ovaxtkı vəziyyət orta və yaşlı nəslin yaxşı yadındadır. Azərbaycan məhv olmaq təhlükəsi qarşısında idi. SSRİ-nin süqutundan sonra müstəqilliyini yenicə bərpa etmiş ölkəmizdə xaos, özbaşınalıq, hərc-mərclik hökm sürürdü. Mövcud şəraiti qiymətləndirməyi bacarmayan qüvvələr respublikanı məhvə sürükləyirdilər. Əhalinin həyat səviyyəsi gündən-günə pisləşirdi. Üstəlik, yaranan mürəkkəb vəziyyətdən hiyləgərliklə istifadə edən ermənilər öz havadarlarının köməyi vasitəsilə Qarabağı və ətraf rayonlarımızı bir-bir işğal edirdilər. Vəziyyət həddən artıq ağır idi. 20 Yanvarın yaraları soyumamış Xocalı faciəsi törədilmiş, bir milyon əhalimiz qaçqın və köçkünə çevrilmişdi.

O dözülməz günlərdə xalq nicatı Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdü. Səbəbi aydın idi. Çünki bu böyük insan Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə gördüyü işlərlə ümumxalq məhəbbəti qazanmışdı. Məhz Ulu Öndərin rəhbərliyi ilə respublikamız SSRİ subyektləri arasında öncül yerlərə çıxmışdı. Əhalinin gün-güzəranı, yaşayışı xeyli yaxşılaşmışdı. Yeni sənaye müəssisələrinin istifadəyə verilməsi nəticəsində işsizlik yox idi. Təkcə iqtisadi sahədə deyil, mədəniyyət, incəsənət, eləcə də həyatın başqa yönlərində Azərbaycan öndə idi. Qabaqcıl əmək adamları ilə yanaşı, şair və yazıçılarımız, bəstəkar və rəssamlarımız, müğənni və aktyorlarımız keçmiş SSRİ-nin yüksək mükafatlarını alırdılar.

Bunlar Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdəki uğurlarının kiçik bir qismidir. Amma elə onlar da bəs edirdi ki, xalq Ulu Öndərin yenidən Azərbaycana sahib durmasını istəsin. Qarabağ uğrunda gedən qanlı döyüşlər zamanı hər gün çoxlu şəhid verirdik. Ata-analar oğulsuz, gəlinlər ərsiz, uşaqlar atasız qalırdı. İnsanlar göz yaşı içindəydilər. Ölkə və xalqı bu bəladan yalnız Heydər Əliyev xilas edə bilərdi.

Xalqın təkidi ilə hakimiyyətə dönən Heydər Əliyev ölkədə sabitlik yaratmaq üçün gecəli-gündüzlü çalışdı, gənc dövləti parçalamaq istəyən dağıdıcı qrupları zərərsizləşdirdi, müharibədə atəşkəsə nail oldu, ordu quruculuğuna başladı, ölkə iqtisadiyyatını bazar münasibətlərinə keçirdi. "Əsrin müqaviləsi"nin imzalanmasına, digər iri layihələrin icrasına, mühüm islahatların həyata keçirilməsinə nail oldu. Ulu Öndər dədə-baba yurdlarından didərgin düşmüş qaçqın və köçkünləri də yaddan çıxarmadı, imkan daxilində güzəranlarını yaxşılaşdırmaq üçün tədbirlər gördü. Ən başlıcası, torpaqlarımızın azad olunacağı, onların yenidən yurd yerlərinə qayıdacaqları inamını yaratdı.

2003-cü ilin oktyabr ayında Prezident seçilən İlham Əliyev Azərbaycanı məhz belə vəziyyətdə təhvil aldı. Üstəlik, üç mühüm məsələni - qaçqın və köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasını, ordu quruculuğunun sürətləndirilməsini və regionların sosial-iqtisadi inkişafını prioritet vəzifələr olaraq irəli sürdü və hər üçünün də reallaşmasına nail oldu. Qısa vaxtda qaçqın və köçkünlər üçün Bakıda, Sumqayıtda, digər şəhərlərdə, rayonlarda müasir tipli yaşayış binaları, fərdi evlər tikildi, hər cür infrastrukturu olan şəhərciklər salındı. Paralel olaraq ordumuz yenidən quruldu, ən müasir silahlarla təchiz edildi. Regionların inkişafında da görünməmiş uğurlar qazanıldı. Bir-birinin ardınca qəbul edilən regional inkişaf dövlət proqramlarında qarşıya qoyulan vəzifələrin icrası sayəsində bu gün bölgələrimiz tanınmaz dərəcədə dəyişmişdir. Təbii qaz, elektrik enerjisi, içməli su, yol sarıdan problemləri həll edilmiş regionlarımızda istehsal edilən məhsullar indi həm də xaricə ixrac olunur. Artıq iş dalınca rayonlardan paytaxta gələnlərin sayı da xeyli azalmışdır.

Amma işğal dərdimiz dururdu. Bununla belə, inanırdıq ki, işğala son qoyulacaq, torpaqlarımız nəyin bahasına olursa olsun, azad ediləcək. Lələtəpə döyüşləri, Tovuz əks-həmləsi 44 günlük müharibənin məşqləri oldu. Lakin Prezident, Ali Baş Komandan İlham Əliyev, özünün dediyi kimi, nəyi necə, nə vaxt edəcəyini yaxşı bilirdi. Həmin an 2020-ci il sentyabrın 27-də gəldi. Ordumuz ermənilərin təxribatına cavab olaraq əks-hücuma keçdi. Çəkdikləri məftilləri, qazdıqları səngərləri, qurduqları qurğuları, keçilməz hesab etdikləri sədləri köməklərinə çatmadı, işlərinə yaramadı. Erməni quldurları səmada ölümsaçan PUA-larımızı, yerdə heç nəyə baxmayıb irəli şığıyan qəhrəman oğullarımızı görüb silah-sursatlarını qoyub qaçdılar. Ordumuz 44 günün hər birində hərb tariximizə yeni-yeni şanlı səhifələr yazdı. Xüsusi təyinatlılarımız gecə vaxtı sıldırım qayaları aşaraq adı ürəkləri, dilləri qabar edən Şuşamızı azad etdi. Vaqifin, Üzeyirin, Natəvanın, Bülbülün, Nəvvabın didərgin ruhları yenidən Şuşaya qayıtdı. Quruyan bulaqlara su gəldi, dinimiz-imanımız özümüzə döndü.

Qəhrəman oğullarımız canlarını Vətən yolunda qurban verdilər, şəhidlik zirvəsinə qovuşdular. Əvəzində şanlı tariximizi görməzdən gələn, uydurma miflərini əldə bəhanə edib müasir dünyanın gözü qarşısında ağlasığmaz fitnələrə, olmazın cinayətlərə qol qoyan, insanlıq adına ləkə gətirən, bəşəriyyətin üz qarası hay tayfası öz çirkin niyyətlərinə çata bilmədi. "Dənizdən-dənizə..." arzuları puç oldu. Biz isə iqtidar, ordu, xalq birliyi nəticəsində "dəmir yumruğ"a döndük. 30 il əvvəl yazmışam bu sətirləri:

*Mən bilirəm elimin gücünü, qüvvətini,*
*Bilirəm öz xalqımın yenilməz qüdrətini,*
*Damarında, qanında qaynayan qeyrətini.*
*Bir gün səbri tükənib tufan kimi qopacaq,*
*Yağıdan - pis qonşudan qisasını alacaq.*

*İgidlərin önündə yağılar qan qusacaq,*
*Yenə Cıdır düzündə mərdlərim at çapacaq.*
*Qarabağ atlarının nalından od qopacaq.*
*Havalanan "Şikəstə" bürüyəcək aləmi,*
*Könüllər şadlanacaq, yetəcək vüsal dəmi.*

Qarabağ, Şərqi Zəngəzur artıq azaddır. İndi bu yerlərdə böyük tikinti-quruculuq işləri görülür. Viran edilmiş şəhərlər, kəndlər yenidən qurulur. Çəkilən yollar, inşa edilən elektrik stansiyaları, hava limanları regiona yeni həyat verir. İnsanlar perik düşdükləri yurdlarına qayıdırlar. Tezliklə Xankəndi, Xocalı, Xocavənd, Ağdərə və digər əzəli yaşayış məskənlərimiz də sakinlərini qəbul edəcəklər. Qoy hamı bilsin - bu qələbə təkcə erməni cəlladlarının üzərində deyil, onların beynəlxalq havadarlarının üzərində qazanılan qələbədir. Bu misilsiz Zəfərin müəllifi Ali Baş Komandan, ordumuz və xalqımızdır.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

**Ziyalı sözü, vətəndaş mövqeyi**

# XXI əsr Zəfər salnaməmizin müəllifi

Şərq müdrikliyi ilə Qərb praqmatizmini üzvi surətdə özündə birləşdirən İlham Əliyev zəkası, işgüzarlığı, vətənpərvərliyi ilə xalqın ürəyinə geniş yol tapmışdır.

Varislik, novatorluq, dinamizm, azad cəmiyyət, hüquqi dövlət, qanunun aliliyi, güclü iqtisadiyyat, güclü ordu, çevik xarici siyasət, milli maraqların etibarlı qorunması Prezident İlham Əliyevin fəaliyyətində mühüm yer tutmuşdur.

Azərbaycan xalqının taleyüklü hadisələrlə zəngin olan 20 ildən artıq bir dövrü İlham Əliyevin adı ilə bağlıdır. Bu illər Azərbaycan çətin sınaqlardan çıxmış, əsrə bərabər iqtisadi inkişaf yolu keçərək, bölgənin lider dövlətinə, dünya birliyində isə öz layiqli yerini tutan, iqtisadi və hərbi gücü ilə öz problemlərini həll edən qüdrətli ölkəyə çevrilmişdir.

Prezident İlham Əliyevin apardığı genişmiqyaslı iqtisadi islahatlar nəticəsində neft strategiyası uğurla davam etdirilmiş, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri fəaliyyətə başlamış, "Əsrin neft müqaviləsi"nin fəaliyyəti 2017-ci ilin sentyabrın 14-dən daha 2050-ci ilə kimi uzadılmış, dünyanın nəhəng layihələrindən olan, Avropanın enerji təhlükəsizliyinə təminat verən "Cənub qaz dəhlizi" layihəsi başa çatmış, Bakı-Tbilisi-Qars dəmir yolu fəaliyyətə başlamış, "İpək yolu" strategiyası həyata vəsiqə almış, Azərbaycan Şərqlə Qərb, Şimalla Cənub arasında dünyanın strateji körpü rolunu oynayan əlverişli tranzit əhəmiyyətli dövlətlərindən birinə, logistika mərkəzinə çevrilmiş, ölkəmizin geosiyasi və geostrateji əhəmiyyəti artmış, ərzaq, enerji, nəqliyyat təhlükəsizliyimiz təmin edilmiş, ölkəmiz informasiya blokadasından çıxmışdır. Bunlardan əlavə, İlham Əliyevin rəhbərliyi altında ölkə iqtisadiyyatının diversifikasiyası və rəqəmsallaşdırılması həyata keçirilmiş, qeyri-neft sektoru artan templə inkişaf etmiş, Ələt qəsəbəsində azad iqtisadi zonanın özülü qoyulmuş, texnoparklar, sənaye parkları və məhəllələri yaradılmış, Azərbaycan kosmos ölkəsinə çevrilmiş və digər qlobal tədbirlər görülmüşdür. Məhz həmin tədbirlərin nəticəsində ölkə üzrə yoxsulluğun səviyyəsi 2000-ci ildəki 49 faizdən 2013-cü ildə 5 faizə qədər azalmış, 1 milyon 300 mindən çox iş yeri açılmış, əməkhaqları, təqaüdlər dəfələrlə artmış, 14 min 600 şəhid ailəsinə və qaziyə mənzillər və evlər, 7600 qaziyə avtomobil verilmiş, məşğulluqları təmin edilmiş, müalicəyə göndərilmişlər.

Bu illər ərzində Azərbaycanın dünya arenasında siyasi nüfuzu da artmışdır. 2011-ci ilin oktyabrında BMT-yə üzv 193 ölkədən 155-nin səsi ilə BMT-nin 15 qeyri-daimi üzvündən biri seçilməyimiz, 5 iyul 2019-cu idən Azərbaycanın Qoşulmama Hərəkatına 3 il müddətinə sədrliyi və onun əlavə 1 il müddətinə artırılması, beynəlxalq qlobal tədbirlərə evsahibliyi etməyimiz, o cümlədən Beynəlxalq Humanitar forumların, BMT Svilizasiyalararası dialoq forumlarının keçirilməsi, COP-29-a evsahibliyi etməyimizə qərar verilməsi, türk xalqlarının mənəvi-siyasi birliyinin möhkəmlənməsindəki xidmətlərimiz, ölkə iqtisadiyyatına 300 milyard dollardan artıq xarici sərmayənin qoyulması və s. dövlətimizin artan beynəlxalq nüfuzunu təsdiq edən göstəricilərin qısa siyahısıdır.

Prezident İlham Əliyevin ən böyük xidmətlərindən biri, sözsüz ki, Ulu Öndərin Qarabağın azad olunması barədə vəsiyyətini yerinə yetirməsi olmuşdur. Dövlətimizin başçısı dəfələrlə beynəlxalq qurumların diqqətinə Ermənistanın təxribatlarını, müharibə etmək niyyətində olduğunu çatdırmış və təcavüzün dayandırılmasına təsir göstərilmələrini tələb etmişdi. Lakin mötəbər beynəlxalq qurumların heç birindən reaksiya olmamışdır. Belə bir şəraitdə səbir kasası dolan xalqın tələbini, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini və BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutan Ali Baş Komandan İlham Əliyev Ermənistan tərəfindən başlanan təxribatın qarşısını almaq üçün 2020-ci il sentyabrın 27-də orduya əks-hücuma keçmək əmri verdi. 44 gün davam edən əks-hücum 30 illik torpaq həsrətinə son qoydu, işğal altında olan ərazilərimiz azad olundu. 19-20 sentyabr 2023-cü il 23 saatlıq antiterror əməliyyatı nəticəsində isə Qarabağda ölkəmizin konstitusion quruluşu tam bərpa olundu, Ağdərə, Əsgəran, Xocalı və Xankəndidə Azərbaycan bayrağı qaldırıldı.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad olunmuş ərazilərimizin bərpası istiqamətində nəhəng işlər aparılır. Paralel olaraq minalardan təmizlənib yeni yaşayış məntəqələri salınır, infrastrukturu yaradılan şəhər və kəndlərə soydaşlarımızın qayıdışı həyata keçirilir.

Xalqımızın öz liderinə olan hədsiz sevgisi, inamı fevralın 7-də bütün ölkə ərazisində keçirilən prezident seçkisində özünü bir daha göstərdi. Zəfər seçkisi əsrə bərabər 20 ilin uğurları fonunda gələcəyə hansı hədəflərlə getdiyimizi bir daha nümayiş etdirdi.

***Hakim İSAKOV,***
***tarix üzrə elmlər doktoru***



# Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə

Zati-aliləri, möhtərəm cənab Prezident!

Sizi 7 fevral tarixində keçirilən prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

2020-ci ildə Ali Baş Komandan kimi sizin rəhbərliyinizlə işğal altında olan Azərbaycan torpaqları Müzəffər Ordu tərəfindən tam olaraq azad edilmişdir. Dünya hərb tarixində ilk olaraq yeni hərbi strategiya və taktikalarla qazanılan böyük Zəfər Azərbaycan tarixinin şanlı səhifələrindən birinə çevrilmişdir.

7 fevral prezident seçkilərində Azərbaycan xalqının böyük ruh yüksəkliyi ilə Sizə qazandırdığı Qələbə bütövlükdə Azərbaycanın zəfəridir. Azərbaycan xalqı əmindir ki, onun Lideri bütün gücünü və potensialını Azərbaycanın davamlı inkişafı yolunda sərf edəcəkdir.

Cənab Prezident!

Zati-alinizə müstəqil və suveren Azərbaycan dövlətinin inkişafı, güclənməsi naminə fəaliyyətinizdə yeni uğurlar arzulayırıq!

*Şəxsinizə dərin hörmət və ehtiramla*

***Eran MÜDİROĞLU,***
***LANDMARK Kompleksinin investoru və rəhbəri***




# "Qisas" əməliyyatı bir daha "dəmir yumruğ"un gücünü göstərdi

"Vətən müharibəsinin başa çatmasından xeyli müddət keçməsinə baxmayaraq, Ermənistan hələ də sülh prosesindən yayınır. Davamlı olaraq yanlış istiqamətlərdə addımlar atır və bölgədə vəziyyəti gərginləşdirir. Sərhədçimizin yaralanması ilə nəticələnən növbəti təxribat da bir daha göstərdi ki, Ermənistan və havadarları sülh barədə düşünmür, siyasətlərini yanlış istiqamətdə davam etdirirlər. Lakin Ermənistanın silahlı qüvvələri tərəfindən məqsədyönlü şəkildə törədilən bu məkrli hərəkətin cavabı dərhal və layiqli şəkildə verildi. Prezident İlham Əliyevin dediyi kimi, bir nəfər də olsun Azərbaycan əsgərinin qanı yerdə qalmır".

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib. Deputat bildirib ki, Azərbaycanın həyata keçirdiyi "Qisas" əməliyyatı bizim "dəmir yumruğ"un gücünü bir daha sübuta yetirdi: "Azərbaycan ermənilərə yenə göstərdi ki, onların havadarlarının saxta vədlərinə aldanaraq çirkin niyyətlərini ortaya qoymaları mövcud situasiyada elə ən çox özlərinə ziyan vurur. Bu prosesdən ən çox əziyyət çəkən Ermənistan özü olur. Ona görə də İrəvan Aİ, Fransa və ABŞ kimi dövlətlərə regiona müdaxilə cəhdi üçün imkan yaratmamalı, bu yanlış təbliğata son qoymalıdır. Mövcud şəraitdə Azərbaycanın şərtlərini qəbul etmək Ermənistanın yeganə çıxış yoludur".



Ceyhun Məmmədov qeyd edib ki, Prezident İlham Əliyev bu məsələyə dəfələrlə münasibət bildirib: "Lakin Ermənistan hələ də məqsədli şəkildə bölgədə vəziyyəti gərginləşdirməyə davam edir. Ermənistan başa düşməlidir ki, heç kim onun arxasında dayana bilməyəcək. ABŞ və Fransanın bu regiona marağı ermənilərə yaxşı həyat vəd etmək deyil, Cənubi Qafqazda vəziyyəti gərginləşdirməklə öz mövcudluqlarını Ermənistanda saxlamaqdır".

Deputat, həmçinin Azərbaycanın həyata keçirdiyi "Qisas" əməliyyatının nümayiş etdirdiyi sərt reaksiyasını təqdir edib. Bildirib ki, ərazi bütövlüyümüzü və suverenliyimizi təhdid edən bütün qüvvələr ən qısa zamanda cəzalandırılacaqlar: "Son baş verənlərə görə Ermənistan rəhbərliyi, eləcə də Aİ missiyası, hərbçilər, instruktorlar, binoklçular məsuliyyət daşıyırlar. Aİ missiyası sərhədçimizin yaralanması ilə nəticələnən məqsədli təxribata münasibət bildirməli, cavab verməlidir. Ermənistan hakimiyyəti isə ciddi nəticə çıxarmalı və bilməlidir ki, təxribat cəhdləri davam edəcəyi təqdirdə Azərbaycanın addımları çox sərt olacaq. Ölkəmizə qarşı təxribatlara əl atmaq yolverilməzdir".

Ceyhun Məmmədov yekunda bir daha vurğulayıb ki, son 4-5 ayda barışığın əldə olunması üçün yaranmış mövcud şəraitdə belə məkrli addım atmaq Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına mane olmaq cəhdidir. Ona görə də regionda sülhün bərpa olmasını istəməyən bütün qüvvələr bu təxribat cəhdinə görə cavab verəcəklər.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Qisas layiqincə alındı

## "Dəmir yumruq" növbəti dəfə Ermənistana və Qərbə başa saldı ki, təxribata qarşı qətiyyətli cavab veriləcək

**"Biz son iki il yarım ərzində ordumuzu böyük dərəcədə gücləndirmişik. Əgər bütün bu amilləri Ermənistan və onun arxasında dayanan xarici qohumları başa düşmürlərsə, onda günah onların boynundadır".**

Bu il fevralın 12-də şərti dövlət sərhədində Ermənistan silahlı qüvvələri tərəfindən törədilən hərbi təxribatın Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən keçirilən "Qisas" əməliyyatı ilə tamamilə zərərsizləşdirilməsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin sitat gətirdiyimiz sözlərinin əyani təzahürü oldu.

Təxribata cavab olaraq, fevralın 13-də işə düşən "dəmir yumruq" Ermənistan ordusunun Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsinin yaxınlığındakı döyüş postunu tamamilə darmadağın etdi, döyüş mövqelərini susdurdu, təxribat törədənləri yerindəcə məhv etdi, bir sözlə, növbəti dəfə düşməndən qisasımızı layiqincə aldı.

### Düşmənlərə yaddan çıxarmayacaqları dərs

Bundan əvvəl də Ermənistanın bütün təxribatlarına Azərbaycan layiqincə cavab verib. 2022-ci il avqustun 3-də Ermənistanın növbəti təxribatına cavab olaraq "Qisas" əməliyyatının keçirilməsi və ordumuzun Qırxqız yüksəkliyini, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəklikləri nəzarətə götürməsi də buna sübutlardan biridir.

Həmin zaman Prezident İlham Əliyev müsahibəsində "Qisas" əməliyyatı ilə bağlı bu fikirləri bildirmişdi: "...Hər kəs gördü və görməlidir ki, şəhidimizin qanı yerdə qalmadı. Biz dərhal "Qisas" əməliyyatı keçirərək şəhidimizin qanını aldıq və qarşı tərəfi ciddi cəzalandırdıq".



Qalib Lider İlham Əliyevin qətiyyətlə bəyan etdiyi kimi, Vətən müharibəsində cəmi 44 günə Ermənistan ordusunu qarşısında diz çökdürən, cəmi bir günə Qarabağdakı qondarma rejimi özünə yalvartdıran "dəmir yumruq", fevralın 13-də keçirdiyi "Qisas" əməliyyatı ilə həm təcavüzkar Ermənistana, həm də onu silahlandıraraq revanşa qızışdıran qərəzli xarici ölkə və təşkilatlara bir daha başa saldı ki, çirkin oyunlara, planlara, təxribatlara heç zaman imkan verməyəcək.

### Qərb Ermənistanı məhvə sürükləyir

Azərbaycan-Ermənistan şərti dövlət sərhədində sakitliyin hökm sürdüyü, sülh üçün əlverişli şəraitin yarandığı həssas bir dövrdə Ermənistanın təxribata əl atması da xeyli suallar ortaya çıxarır. Məlumdur ki, hələ üç il əvvəl Vətən müharibəsində Ermənistan ordusu darmadağın edilib və hərbi mütəxəssislərin də hesablamalarına görə, onun yenidən özünə gələ bilməsi üçün ən azı 30 il müddət lazımdır. Əslində, bu gerçəkliyi İrəvanın özü hər kəsdən yaxşı bilir. Onu da yaxşı anlayır ki, Azərbaycanla nə qədər tez sülh müqaviləsi imzalasa, üz-üzə olduğu fəlakətdən, dövlətçiliyinin yox olması təhlükəsindən yaxa qurtara bilər.

Ancaq İrəvanın ölkəmizə qarşı həyata keçirdiyi siyasi, hərbi təxribatları heç də onun sülhdən yana olmadığını ortaya qoyur. Faktlarla üzə çıxdı ki, fevralın 12-də Azərbaycanla sərhəddə əvvəlcədən planlaşdırılan təxribat həyata keçirilib. Belə ki, ərazidə aparılan videomüşahidə, snayperin atəş açaraq öz mövqelərinə doğru geri qayıtması göstərir ki, Ermənistan tərəfi təxribatı məqsədli şəkildə həyata keçirib və bunu məhz sülhə zərbə vurmaq üçün edib.

Bəs nə üçün Vətən müharibəsində biabırcasına məğlubiyyətə uğrayıb kapitulyasiya aktını imzalamağa məcbur olan Ermənistan Azərbaycana qarşı ağılsızca təxribatlara əl ataraq "dəmir yumruğ"un başını bir daha əzməsi üçün canfəşanlıq edir?!.

Əslində, bu sualların cavabları gün kimi ortadadır. Ermənistanı bu təhlükəli avantüraya qərəzli Qərb dairələri sürükləyir. Ona siyasi dəstək verərək, silahlandıraraq Cənubi Qafqazın ən güclü ordusuna malik olan Azərbaycanla müharibəyə, yəni öz məhvinə qızışdırırlar.

### "Binokllu diplomat"ların şər dəstəsi

Baş verən təxribatın Ermənistandakı Avropa İttifaqı missiyasının müşahidə həyata keçirdiyi ərazidə baş verməsi də təsadüfi deyildi. Bu, bir neçə müddətdir Ermənistana gələrək və vaxtaşırı binokllarını ölkəmizə tərəf tuşlayaraq qərəzli-qərəzli baxan Qərb "diplomat"larının İrəvanın əli ilə həyata keçirdikləri təxribat idi. Elə bu təxribat da göstərdi ki, Avropa İttifaqının "binokl diplomatiyası"nın məqsədi heç də regionda sabitliyə, iki dövlət arasında etimad quruculuğuna töhfə vermək məramına qulluq etmir. Əksinə, Aİ bacardığı qədər sülh prosesinə zərbə vurmaq üçün əlindən gələn bütün mənfurluqları edir. "Binokllu diplomatlar"ın şər dəstəsinə isə müstəmləkəçi Fransa başçılıq edir. Bu yaxınlarda Fransa Milli Jandarma İdarəsinin generallarından biri də Ermənistan ərazisindən Azərbaycanla sərhədə yaxınlaşaraq binoklla müşahidə aparmışdı. Hələ o zamandan Fransanın dəstəyi ilə Ermənistandan ölkəmizə qarşı hansısa hərbi təxribat törədilə biləcəyi ehtimal olunurdu.

Həmçinin Ermənistanın Hindistandan Fransa lisenziyası ilə istehsal olunmuş silahlar alması, Fransanın Ermənistanı silahlandırması, Çexiyadan olan casusun Ermənistandan Azərbaycana keçərkən saxlanması və sair kimi hallar da ekspertlər tərəfindən Ermənistanın hərbi əməliyyatlara hazırlaşması kimi şərh olunmuşdu.

Ermənistanın baş naziri Paşinyanın zərurət olmadan "The Telegraph" nəşrinə müsahibəsində aqressiv tonu da Ermənistanın növbəti təxribat hazırladığına dəlalət edən bir başqa faktordur.

*Göründüyü kimi, Azərbaycana qarşı hələ də ərazi iddiası güdən Ermənistan Aİ missiyasının arxasında daldalanaraq ölkəmizə qarşı müharibə aparmaq iştahına düşüb.*

*Ancaq "dəmir yumruq" yerindədir və beynəlxalq havadarlarına güvənərək ölkəmizə qarşı təxribat törətmək istəyən axmaq Ermənistanın hər zaman layiqli cavabını verərək yerinə otuzduracaq.*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# "İdrak" təfəkkür formalaşdıran liseydir

## Ötən il məzunların hamısı tələbə adını qazanıb







**Sumqayıt şəhərinin Səməd Vurğun küçəsində yaşıllıqlarla əhatə olunmuş yaraşıqlı bir bina da var. Bu binadan hər 45 dəqiqədən bir dahi Üzeyir bəy Hacıbəylinin "Koroğlu" uvertürasının sədaları gəlir.**





Burada dərsin başlanmasını və sona çatmasını bildirən zəng üçün bu musiqini seçiblər. Zəng həm də yaxınlıqdan ötüb keçənlərə burada məktəb olduğunu xəbər verir. Lakin bu, sıradan bir təhsil ocağı deyil...

Yaşlı sumqayıtlılar yaxşı xatırlayırlar ki, əvvəllər bura pedaqoji məktəb olub. 2008-ci ildə isə "İdrak" liseyi yaradılıb və indiyədək bir sıra uğurlara imza atıb.

"İdrak" müasir, milli və beynəlxalq təhsil standartları əsasında fəaliyyət göstərən özəl təhsil müəssisəsi, Sumqayıtın ilk milli özəl məktəbidir. Qeyd edək ki, liseyin təsisçisi pedaqoji elmlər doktoru, professor Mönsüm Alışovdur. Hazırda o, burada elmi işçi kimi çalışır.

Liseyin "İdrak" adlandırılması da təbii ki, təsadüfi deyil. Çünki burada zəngin təcrübə və yüksək peşəkarlığa malik müəllim kollektivi çalışır. Məktəbdə fərdi yanaşma, güclü rəqabət, bununla yanaşı, səmimi mühit hökm sürür. Dərslər interaktiv lövhələrlə keçirilir. Məktəbdə dərslər Azərbaycan, rus və ingilis dillərində aparılır.

Peşəkar pedaqoqlar tərəfindən tədris olunan və arxivləşdirilən media dərslər vasitəsilə şagirdlər evdə müəllimlərin izahını dəfələrlə izləyə və dinləyə bilirlər. Beləliklə, dərs prosesi 45 dəqiqənin hüdudlarını aşmış olur. Yəni təhsildə media dərs layihəsindən uğurla istifadə olunur.

Liseydə dərslər beynəlxalq bakalavriat proqramı ilə aparılır. Belə ki, şagird evdə dərslərini hazırlamaq üçün ona aid olan kodu açır. Növbəti dərs ona slaydlarla, animasiyalarla göstərilir. Şagird həm görür, həm eşidir, həm də maraqlı animasiyalarla ona dərs izah edilir. Buna təfəkkürün inkişafı proqramı da deyirlər. Yəni dünyagörüşü genişlənən şagird yaşına uyğun animasiyalara daha maraqla baxır, həm də dinlədikcə yaddaşı funksional şəkildə inkişaf edir. Dərsin elektron sonluğunda keçilən mövzu barədə izaha uyğun suallar çıxır. Həmin sualları sərbəst şəkildə cavablandıran şagirdin müəllimi ertəsi gün dərs müddətində cavabları yoxlayır və qiymətləndirir. Şagirdlər səliqəli yazı tərzini məktəbin ibtidai siniflərində qavrayırlar.

Hər şagird öz elektron kodu ilə bütün dərslər və fənlər üzrə istədiyi suala elə oradaca cavab tapır. Bu təhsil formasında yeganə yazı "zaçot" dəftərində yazılı şəkildə aparılan qeydlərdir. Yerdə qalan nə varsa, hamısı elektron qaydada yerinə yetirilir.

Başqa sözlərlə desək, dünyada istifadə edilən belə tədris forması məhz "İdrak"dadır. Belə ki, bu liseydə müasir informasiya texnologiyalarının tətbiqi uğurla həyata keçirilir. Bu, Avropada da olan təhsil formasıdır. Məktəbdə müxtəlif laboratoriyalar fəaliyyət göstərir. Elmi təhlillər xaricdən gətirilən xüsusi proqram əsasında virtual şəkildə aparılır. "İdrak"ın zəngin kitabxanası da var.

Bütün bunlarla yanaşı, uşaqlar ayrı-ayrı dərnəklərdə də məşğul ola bilirlər. Şahmat, rəsm, rəqs, zəka oyunları, "Bacarıqlı əllər" və başqa dərnəklər şagirdlərin həvəslə üz tutduğu maraq dünyasıdır.

"İdrak"ın məktəbəhazırlıq proqramını keçən uşaqlar liseyin qəbul imtahanında uğurla iştirak edir, lisey həyatına çox tez və asan adaptasiya olurlar. Proqram savad təlimi, riyaziyyat, ətraf aləmlə tanışlıq, informatika, ingilis dili və rus dili məşğələlərini əhatə edir. Məşğələlər oyun formasında təşkil olunur. Uşaqlar həmçinin musiqi, idman, şahmat, rəqs kimi fəaliyyətlərlə də məşğul olur, vaxtaşırı müxtəlif tədbirlərdə və ekskursiyalarda iştirak edirlər. Onlar respublikamızın görməli yerləri ilə birbaşa, dünyanın tarixi və bu günü barədə virtual məlumat alırlar.

"İdrak"da uşaq bağçası da fəaliyyət göstərir. 4-5 yaşlı uşaqlar liseydə hazırlıq keçir və onların valideynlərinin çoxu övladlarının təhsili üçün məhz "İdrak"ı seçir.

Şagirdlər asudə vaxtlarını da maraqlı keçirə bilirlər. Binanın həyətində yerləşən müasir tələblərə cavab verən mini futbol meydançası şagirdlərin sevimli məkanıdır.

Məktəbdə şagirdlərin qidalanması da yüksək səviyyədə təşkil olunub. Yeməkxanada onlara gündə üç dəfə keyfiyyətli ərzaqlardan hazırlanmış təamlar verilir. Bağçada hazırlıq keçənlər də, həmçinin yeməklə təmin edilir. Hər uşağın sağlamlığı diqqət mərkəzində saxlanılır. Liseyin psixoloqu şagirdlərlə mütəmadi söhbətlər aparır. Tibb bacısı səhhətində problem yaranan şagirdə ilkin yardım göstərir. Müasir idman zalında isə uşaqlara idmanın müxtəlif növləri ilə məşğul olmaq imkanı verilir. Odur ki, balaca idmançıların uğurları da az deyil.

Qısası, "İdrak"da keçirilən dərslər modelinə görə sırf dünya zəka elminin tələbləri səviyyəsində qurulur. Buna görədir ki, şagirdlər dünya zəka yarışlarında da fəal iştirak edə bilirlər. Məsələn, Məhəmməd Abbaslı Beynəlxalq Fermat Riyaziyyat Olimpiadasında birinci yeri və Kings Beynəlxalq Məktəb Olimpiadasında təbiət üzrə birinci yeri, Ayla Əliyeva beynəlxalq ingilis dili olimpiadasında gümüş medal qazanıblar. Liseyin onlarla şagirdi beyin və zəka olimpiadalarında qalib olub. Uşaqlar dünya zəka mərkəzlərinə gedir, Avropanın köksündən medallarla qayıdırlar.

"İdrak"ın Beynəlxalq Bakalavriat təşkilatı ilə də sıx əlaqələri var. Təşkilatın nümayəndələri liseyin qonağı da olublar. Qarşılıqlı dəvət şəklində liseyin nümayəndələri Avropa təhsil ocaqlarına səfər edir, bununla da elmi nəzəriyyələrin mübadiləsi aparılır.

Məktəbdə keçirilən tədbirlərin əsas mövzusu isə milli-mənəvi dəyərlərimiz, vətənpərvərlikdir. Şəhidlərimiz daim yad edilir, onların şücaəti barədə uşaqlara ətraflı məlumat verilir ki, qəhrəmanlıq tariximizi unutmasınlar. Liseydə foyedə şəhidlərə aid xüsusi lövhə var.

"İdrak"ın uğurları çoxdur. Bu liseyin nələrə nail olduğunu göstərmək üçün bəlkə təkcə elə bir faktı demək kifayətdir. Ötən il liseyi bitirən şagirdlərin hamısı ali məktəblərə qəbul olunub, həm də yüksək balla!..

"İdrak" bu gün respublikamızda zəka inkişafına söykənən, məhz onun nəhayətsiz keyfiyyətini açıb göstərən liseydir. Unutmayaq ki, elmin böyük təfəkkür addımları uşaqların bilik təməlindən başlayır. "İdrak" buna canlı nümunədir.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

Xalq ənənələri

# Kəlbəcərin qış bayramı

İlin bu günü qar dizdən olardı. Şaxtalı havada gümüşü ayla gur çatılan tonqalın işığı birləşərək donmuş çayın üzərində ecazkar mənzərə yaradar, balabanın, qarmonun, nağaranın sədaları kəndi başına götürərdi... Gənclərdən, yeniyetmələrdən, uşaqlardan ibarət kosa gəzdirən dəstənin üzvləri səhərə qədər deyib-gülər, rəqs edərdilər...





Beləcə, Kəlbəcərin Sınıqkilsə kəndində (indi Hacıkənd) məskən salan alxaslı obasının sakinləri növbəti Xıdır Nəbi bayramını coşqu ilə qeyd edərdilər.

Adətən, Xıdır Nəbi fevralın ortasında, "yalançı çərşənbə"dən əvvəlki həftənin cümə axşamı günü özünəməxsus adət və əyləncələrlə keçirilərdi... Həmin günün əsas qəhrəmanı, hər kəs tərəfindən böyük maraqla gözlənilən və birmənalı olaraq kəndin bütün uşaqlarının çox qorxduğu əyləncəli obrazı isə Kosa olardı.

Kəndin cavan oğlanları bir evə yığışar, Kosaya dəridən hazırlanan xüsusi papaq, tərs çevrilmiş dəri gödəkcə geyindirər, əlinə taxtadan qılınc verərdilər. Axşam şər qarışanda Kosa başının dəstəsi ilə ev-ev gəzib, məşhur "A Kosa, Kosa, gəlsənə..." mahnısını oxuyar, un, yağ, şəkər tozu, yumurta, puldan ibarət payını yığardı. Bütün evləri gəzib qurtardıqdan sonra isə əldə olunan ərzaqdan halva çalınar, yuxa bişirilərdi. Yuxalara bükülən halva evlərə paylanardı. Pul isə Kosa gəzdirənlər arasında bərabər şəkildə bölünərdi...

### Xıdır Nəbi bərəkəti

Yurdlarından didərgin düşdükləri zamana qədər Kəlbəcərdə keçirdikləri Xıdır Nəbi bayramı ilə bağlı kövrək xatirələrini bölüşən Sınıqkilsə kəndinin 65 yaşlı sakini Yamən Bağırova danışır ki, bu bayram hər zaman kənddə böyük maraq və təntənə ilə keçirilirdi:

- Kosa gəzdirilən gündən bir gün əvvəl nənələrimiz, analarımız sac asar və qovurğa qovurardılar. Sonra həmin qovurğanı kirkirədə (əl dəyirmanı) çəkib qovut hazırlayardılar. Həmin qovut iri ləyənə yığılar və üstü təmiz tənziflə örtülərək bir yana qoyulardı. Belə bir inanc var idi ki, gecə Xıdır Nəbi gələrək əlini həmin qovutun üzərinə çəkəcək. Bu, il boyu evdə bolluq, bərəkət olacağının rəmzi idi.

Kosa gəzdirən dəstə gələndə evdəki qızlar Kosadan gizlin onun yığdığı undan "oğurlayaraq" özlərinə duzlu kökə bişirirdilər ki, yuxularında gələcəkdə ailə quracaqları oğlanı görsünlər.

Kosa gəzdirilən günün səhəri sübhdən evlərdə qovudlu xəşil çalınardı. Həmin xəşildən də bir boşqab çəkilib gənc qızlara verilərdi ki, aparıb çəpərin başına qoysunlar. Sonra da baxıb görsünlər ki, qarğa gəlib həmin xəşildən götürüb hansı istiqamətə uçur. Bu onu göstərirdi ki, həmin qız qarğa uçan səmtə gəlin köçəcək.

Bunlar yaşlılarımızın sınaqdan keçirdikləri adətlər idi, bizə ötürmüşdülər...

Maraqlı adətlərdən biri də Kosa gəzdirilən axşamdan düz axırıncı çərşənbə axşamına qədər yumurta döyüşdürülməsi idi. Kəndin uşaqları, yeniyetmələri, cavanları hər axşam vedrələrlə yumurta döyüşdürürdülər...

Məcburi köçkünlük illərində el-obamız pərən-pərən düşdüyü üçün bu bayramı bir daha qeyd edə bilməmişdik. Amma uşaqlarımıza, nəvələrimizə həmişə Xıdır Nəbi bayramı, Kosa gəzdirmək adətlərimizlə bağlı danışırdıq...

Çox şükür, indi torpaqlarımız azaddır və tezliklə biz də Kəlbəcərə, Sınıqkilsəyə qayıdaraq bayramlarımızı əvvəlki kimi qeyd edəcəyik...

### Bitdi çiçək, oldu yaz

Kənddə bir həftə əvvəldən Kosa gəzdirmə mərasiminə hazırlıq aparıldığını bildirən Sınıqkilsə sakini Bəsti Musayeva danışır ki, uşaqlar, yeniyetmələr, gənclər bir evə yığışırdılar və vəzifə "bölgüsü" aparırdılar, kosanın, onun arvadının, yağ yığanın, yumurta yığanın, pul yığanın kim olacağı, hansı səmtdəki evləri gəzəcəklərini müəyyənləşdirərdilər, geyimlərini hazırlayardılar:

- Kənddə bir neçə Kosa dəstəsi olurdu. 8-də, 9-da, 10-da oxuyan yeniyetmələr bir, daha böyük yaşda olan oğlanlar da bir yığışaraq dəstə-dəstə balabançalanın, qarmonçalanın, dəfçalanın müşayiəti ilə evləri gəzirdilər. Hər dəfə də ev yiyəsi üçün Kosanın məzəli mahnısını ifa edirdilər:

*Xıdır Nəbi, Xıdır İlyas,*
*bitdi çiçək, oldu yaz...*

Sonra da oynayır, ev yiyələri, uşaqlarla zarafatlaşır, deyib-gülürdülər və Kosanın payını istəyirdilər. Hər kəs də, kimin gücü nəyə çatırdı, ürək açıqlığı ilə Kosanın payını verirdi. Un, yağ, yumurta, şəkər tozu pul da verən olurdu...

Kənddə bizim yaşadığımız tərəfin dəstəsi rəhmətlik Növrəstə xalagilə yığılardı. O, yığılan ərzaqlardan halva çalar, yuxa çörək bişirərdi. Kosa gəzdirən dəstənin hər bir üzvünə, eləcə də yaxınlıqdakı evlərə bir büküm halva verilərdi. Sonra da kəndin cavanları həyətdə tonqal qalayaraq səhərə qədər deyir-gülür, oynayır, şənlənirdilər...

Neçə illər bu bayramlarımıza həsrət qaldıq. Amma indən belə nəvə-nəticələrimizlə birlikdə yenə də Sınıqkilsədə Xıdır Nəbi bayramımızı sevinclə keçirəcəyik.

### Türklərin xeyirxahlıq obrazı

"Folklor ədəbiyyatında "Xıdır Nəbi", "Xıdır İlyas" qədim türklərin xeyirxahlıq obrazıdır", - deyə məlumat verən Sınıqkilsə kəndinin sakini, filoloq Təhminə Bağırova deyir ki, Xıdır Nəbi qapı-qapı, ev-ev gəzərmiş və varlı, zəngin evlərdən yığdığı ərzağı, payı imkanı olmayanlara paylayarmış:

- Kosa gəzdirmək isə mövsüm oyunları, tamaşalarıdır. Yaza doğru - qışın ən çətin, ağır vaxtında yay boyu, payızda toplanan tədarükün bitdiyi ərəfədə, həmin xeyirxah işi təşkil edirmişlər. Kosa gəzdirmək vasitəsilə yığılan ərzağı, pulu imkanı çatmayan insanlar arasında bölüşdürürmüşlər. Bu xeyirxahlıq ənənəsi kəndimizdə də Kosa gəzdirmək mərasimi ilə yaşadılırdı. Adət idi, həmin kosalar ən kasıb evlərdə toplaşırdılar ki, o ailəyə də bir kömək olsun.

### Sınıqkilsədə yaz ovqatı

Sınıqkilsədə Xıdır Nəbi axırıncı çərşənbə qədər təmtəraqlı, coşqulu, böyük həvəs və maraqla keçirilirdi. Qışın sərt keçdiyi, demək olar ki, ilin altı ayı ərzində bəmbəyaz qarla örtülü olan bu kənddə Xıdır Nəbinin keçirilməsi, Kosa gəzdirilməsi insanları yaz ovqatına kökləyir və bayram estafeti çərşənbələrə, Novruza keçirdi...

Lakin 1993-cü ilin aprelindən sonra bu bayram tədbirləri də tamamilə yaşamımızdan çıxmışdı. Min illər boyu əcdadlarımızdan ötürülərək günümüzə yetişən bu mənəvi mirasımızın, Xıdır Nəbinin yaşlı nəsillərin həyatdan köçməsi ilə yaddaşlardan tamamilə silinməsi, itməsi təhlükəsi ilə üz-üzə qalmışdıq...

Parlaq Zəfərimiz bizi həm illər boyu həsrət qaldığımız torpaqlarımıza, həm də milli adət və ənənələrimizə, bir sözlə, özümüzə qayıdışa da qovuşdurdu...

Tezliklə Alxaslı obası da Sınıqkilsədə yenidən Xıdır Nəbi bayramını qeyd edəcək, Kosa gəzdirəcək, xalqımıza xas bu xeyirxahlıq ənənəsini nəsillərdən nəsillərə ötürəcək, yaşadacaq...

*Yasəmən QƏNAƏTQIZI,*
*"Azərbaycan"*

Ədəbi simalar

# Söz aşiqi - Əli Tudə



Əslən Ərdəbildən - Güney Azərbaycanın söz-sənət və mədəniyyət ocaqlarının birindən idi Əli Tudə... Quzey Azərbaycana - Bakıya köçmək məcburiyyətində qalan Qulu ilə Şahbəyimin qurduğu gənc ailədə 1924-cü ilin yanvarında doğulmuşdu. Atası oğluna Güneydə vaxtsız dünyasını dəyişmiş nakam qardaşı Mirzə Hüseynin adını qoymaq istəmiş, lakin bu zaman qardaşı ilə bağlı xatirələr gözlərinin önündə canlanmış və sevincinin yerini kədər almışdır. Buna görə də Mirzə Hüseyn adında bir az dəyişiklik edərək uşağı Mirzəli çağırmışlar. Daha sonra Mirzəli adı daha qısaldılmış şəkildə - Əli çağırılmışdır.

O, elə Əli adı ilə də gələcək sənət və iş həyatında tanınır. Qulu Bakıda neft mədənində fəhlə işləyir, lakin nümunəvi işinə görə buruq ustası vəzifəsinə irəli çəkilir və ailəsinin keçimini təmin edir. Lakin amansız tale körpə Əliyə xoşbəxt uşaqlıq çağlarını yaşamağa macal vermir, bir yaşında atasını, beş yaşında isə anasını əlindən alır və onu ipək xasiyyətli nənəsi Qərib xanım böyüdür. 150 saylı orta məktəbdə oxuyur. Həm də Bakı Pionerlər Sarayının nəzdində Osman Sarıvəllinin ədəbiyyat dərnəyinə yazılır, fəallığı, şeirlərini avazla oxuması ilə qələmdaşları arasında seçilir.

İlk şeirləri Heydər Rzazadə imzası ilə "Kommunist", "Yeni yol" qəzetlərində çap olunur, eyni zamanda radioda səslənir. Repressiya dövründə (1938) 7-ci sinifdə oxuyarkən Əli Güney azərbaycanəsilli olduğundan nənəsi Qərib xanımla birlikdə İrana sürgün edilir və təhsili yarımçıq qalır. Ərdəbildə təsərrüfat işləri ilə məşğul olur, fəhləlik edir, ağır həyat yaşayır. Lakin davamlı mütaliə, oxuduğu saysız kitablar ədəbiyyat, söz sənətinin sevdasına düşmüş Əlini gəlişdirir, böyük şövqlə yazıb-yaratmağa ruhlandırır.

1940-cı illərdə Güney Azərbaycanda başlanan azadlıq hərəkatına qoşulur, silahı və qələmi ilə mübarizəyə qalxır. Milli ruhlu üsyankar şeirləri ilə xalqı zülmə baş əyməməyə, istiqlala çağırır. 1944-cü ildə "Vətən yolunda" qəzetində "Əli Tudə" imzası ilə şeirləri çap olunur. "Yazdığım sətirlər qatar-qatar düzülsə, nəinki Xan Araza, Ana Təbrizə çatar" deyən şair imzası ilə iftixar duyduğunu etiraf edir və "Tudə" təxəllüsünü xalq özü verdi mənə, Mərd fədai olmağı məsləhət gördü mənə..." - deyir.

"Hüzbi-Tudeyi-İran" partiyasının, daha sonralar Təbrizdə yaranan Azərbaycan Demokrat Firqəsinin üzvü olan 21 yaşlı gənc şairə milli hökumət dövründə Təbrizdə Maarif Nazirliyinin tədris şöbəsinin, daha sonra isə Təbriz Dövlət Filarmoniyasının müdiri vəzifələri etibar edilir və o, filarmoniyanın ilk və son müdiri olur. O, həm söz, həm də döyüş cəbhəsinin əsgəri olur, dincəlmək bilmədən gərgin işləyir, ölkəyə, dövlətə və xalqa gecə-gündüz təmənnasız xidmət göstərir: "Ömrümün çoxunu döyüşlərdə, zindanlarda keçirmişəm, səngərlərdə yatmışam, dincəlməyə imkanım da olmayıb, ağızdolusu gülmək də qismətim olmayıb, amma daim çalışmışam, azadlığa da çıxmışam-çalışmışam, ümüd də itirmişəm-çalışmışam, şeir də bitirmişəm, yenə də çalışmışam, mən bir də görüş vaxtı güləcəyəm, səsim Araz boyunca axacaq, Arazın ləpələri ipək sap kimi ayrılmış ürəkləri bir-birinə tikəcək..."

Milli demokratik hökuməti irticaçı qüvvələr qan içində beşikdəcə boğur. Tale bu məqamda da amansız hökmünü verir. Min bir əziyyətlə qurduqları növraq dağılır, azad, xoş günlərin ömrü çox qısa olur. Şairin üsyankar şeirlərindən oluşan kitabı Təbrizdə mətbəədəcə yandırılır. Harada tutulsa, yerindəcə öldürülməsi barədə şah fərman verir. Əli Tudə mübarizəsini davam etdirmək amacı ilə bir sıra qələmdaşları, məsləkdaşları ilə Güneydən Quzeyə-vətəndən-vətənə mühacirət etməli olur. 12 dekabr 1946-cı ildə İran-Azərbaycan sərhədindən keçərkən "Mən nə gətirdim" şeirini yazır və bu şeir Cənubi Azərbaycan mühacirət ədəbiyyatının ilk örnəyi olur və demokrat şairlərin manifestinə çevrilir...

*Mən öz qardaşıma mehman gələndə*
*Bir qələm, bir dəftər, bir can gətirdim.*
*Dağların döşünü toplar dələndə*
*Bir ləkə düşməyən vicdan gətirdim...*

*Ucuz tutmasınlar bu sovqatımı*
*Hissimi, duyğumu, ehsasatımı,*
*Mən öz varlığımı, öz həyatımı*
*Doğma qardaşıma qurban gətirdim.*

Bakıya mühacirətdən sonra "Ədəbiyyat qəzeti"nin redaksiyasında ədəbi işçi vəzifəsinə işə düzəlir. Eyni zamanda BDU-nun Filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirir. Azərbaycan Dövlət Nəşriyyatında redaktor, Ali Partiya Məktəbində müdavim, "Azərbaycan" qəzetində (Azərbaycan demokratik firqəsinin orqanı) ədəbi-şöbə müdiri vəzifəsində çalışır. 1962-ci ildən sonra isə bütün şüurlu həyatını bədii yaradıcılığa həsr edir.

O, yurdunun, tarixi keçmişinin, ana dilinin qeyrətli qoruyucusu, milli adət-ənənələrin etibarlı daşıyıcısı idi... Ana dilini dünyada Vətənə sədaqət, ataya ehtiram, anaya məhəbbət sanan şair yaradıcılığında dilin alt qatlarına enir, ən gözəl söz və kəlmələri mirvari tək sapa düzürdü... Bu zaman xalqın yaratdığı müdriklik səltənətinə-atalar sözləri və zərb-məsəllərə üz tutur və sənətdə qazandığı uğurlara görə hikmətlə şeiriyyəti özündə birləşdirən bu səltənətə minnətdar olan şair deyirdi: "Atalar sözləri əlvan nemətlərlə dolu zəngin süfrədir. Əlini uzadıb bu zəngin süfrədən istədiyin neməti götürə bilərsən. Mən də öz əsərlərimdə atalar sözlərindən geninə-boluna istifadə etmişəm. Oxuyan filosof alimlərin sözləri kitablardan sənətə gəlibsə, oxumayan filosof ataların sözləri həyatdan sənətə gəlib. Özü də ağır sınaqlardan çıxa-çıxa, oxuyan filosof alimləri heyran qoya-qoya gəlib. Ataların bir sözü bir xalqa istiqamət də, ruh da, təpər də verə bilər".

Sevgi onun üçün mətnini zamanın belə oxuya bilmədiyi ecazkar yazı idi. Sevdiyini hər şeyə, hətta üzünə azacıq toxunan yarpağa, budağa belə qısqandığını və özü bədbəxt olsa da, sevdalısı olduğu gözəli xoşbəxt etmək amacında olduğunu yazır:

*Gecə gülümsədin bir mələk kimi,*
*Çaldı gözlərimi ala gözlərin,*
*Könlümdən şığıyıb bir şimşək kimi,*
*İstədi canımı ala gözlərin...*

Əli Tudə hər zaman xalqının yanında, arxasında oldu, onun sevincini sevinci, kədərini kədəri sandı, insanların təbəqələşməsinə, varlıya-yoxsula bölünməsinə biganəlik göstərmədi. Bu fərqi qəbul etmədiyini ən zərif misralarında da hiss etdirdi:

*Ağanın xanımı baxıb ərinə,*
*Yekə qulağına almas taxardı,*
*Qızlar, kasıb qızlar sırğa yerinə,*
*İncə qulağına gilas taxardı...*

Göründüyü kimi, poeziyasında həssas şair münasibətinin orijinal ifadəsi, şüurla hissin, ağılla ürəyin polemikası oxucunun diqqətini çəkir, onu dərindən düşünməyə səfərbər edir. Beləcə, fikirlərini möhkəmləndirmək üçün yenə də xalqın hikmət xəzinəsinə, atalar sözü və zərb-məsəllərə söykənir, özünün də müdrik fikirlər boğcasını yaradır.

50 illik yaradıcılığı boyu qələmə aldığı şeir və poemaları ilə yanaşı, "Mənə elə baxma", "Öz gözlərimlə", "Tellərdə çırpınan həsrətlər" adlı nəsr əsərləri çağdaş nəsrin gözəl nümunələri kimi dəyərləndirilir. "Təbriz gözəlinə məktub" və digər poemalarına isə epistolyar janrın nəzmlə yazılmış ən mükəmməl örnəyidir, deyə bilərik...

Baş verən hadisələrin çoxu avtobioqrafik xarakter daşıyan, qəhrəmanları azadlıq hərəkatı mərhələlərində, qaynar həyatda yetişmiş cəsur insanlar, hadisələr isə şairin yaşadığı, yazıb-yaratdığı illərdə baş vermiş əhvalatlar olan "Yaralanmış nəğmələr", "Yanıqlı tütək", "Həyat sınağı", "Gecikmiş vüsal", "Tarixin bir səhifəsi", "Səngərli qala", "Doğma səs", "Hicran yolu", "Qartal uçuşu", "Sən indi hardasan", "Çanaxbulaq dastanı" və digər poemalarında mərd xalqının həyatından və onun azadlıq uğrunda mübarizəsindən iftixarla bəhs edir...

*"Hər nazik cığır da bir təranədir, hər kiçik daşın da öz dastanı var!"* - deyən şair Vətənin hər cığırının nəğməsini eşidir, özü də şeir və poemalarında, xatirə və nəsr əsərlərində yurdunun hər qarışına əbədi sevgi nəğməsi oxuyur və Vətən daşının - özünün dastanını yaradırdı. Amma bu dastanı yarımçıq sayırdı Əli Tudə... Çünki Azərbaycan bütöv deyildi, Arazın o sahili ilə bu sahili hələ birləşməmişdi... Və o, bölünmüş Vətənin şairi olaraq qalırdı. Ləyaqətli oğlu, fiziksəl və ruhsal varisi Natiq Cavadzadə atasının yaratdığı misilsiz söz xəzinəsindən seçdiyi nümunələrdən oluşdurduğu 20 cildliyin birini elə "Yarımçıq dastan" adlandırıb...

*"Deyirlər keçmişdə atalar quruyan, ya da qurumaqda olan ağaca baltanın arxası ilə vurar, ağacı balta zərbəsi ilə diksindirər, oyadar, özünə gətirərmişlər... Ağac da oyanar, nəyə qadir olduğunu yadına salıb yenidən göyərərmiş. Millət də belədir. Millətin silkələnməsi, oyanması, özünə gəlməsi üçün də ya bir xəbər, ya bir soraq, ya da bir həyəcan dalğasının təkanı kifayətdir. Millət başının üstünü alan təhlükəni görüb ayağa qalxır. Sonra əcdadını yada salır. Daha sonra öz kökünə qayıda-qayıda bütün maneələri dəf edir. Xariqələr yarada-yarada nəyə qadir olduğunu bütün dünyaya sübut edir..."* Vətəndaş şairin bu fikirləri 27 sentyabr 2020-ci ildə başlayan və 8 noyabrda möhtəşəm Şuşa zəfəri ilə başa çatan, 2023-cü ilin 19 sentyabrında isə lokal antiterror tədbirləri ilə Xankəndi, Xocalı və Ağdərəni düşməndən azad edib bütünlükdə Qarabağın əsl sahibinə qaytarılmasının proqnozu saymamaq mümkünsüzdür...

*Esmira FUAD,*
*filologiya elmləri doktoru*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## İlham Əliyevin iqtisadi inkişaf konsepsiyası

### HƏM DƏ SABAHKI DEMOQRAFİK ARTIMA HESABLANIB

**Azərbaycanda əhalinin sayı hər il sabit şəkildə çoxalaraq artıq 10 milyon 176 min 811 nəfərə çatıb. Ölkədə dayanıqlı sosial-iqtisadi tərəqqi, sosial siyasət davamlı xarakter almaqla demoqrafik inkişafa da təkan verir. Dünyanın bir çox ölkələrində əhali sayında azalma müşahidə edildiyi halda, Azərbaycanda əhalinin artımı davam edir.**

Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyası nəticəsində Azərbaycan bütün sahələrdə mühüm tarixi nailiyyətlərə imza atır, iqtisadi qüdrətini artırır, sabitlik, təhlükəsizlik, əmin-amanlıq məkanı kimi tanınır. Ölkədə sosial rifah səviyyəsi də davamlı olaraq yaxşılaşır. Bu amillər isə demoqrafik inkişaf üçün vacib şərtlər sırasındadır.

Dövlətimizin başçısı ölkədə demoqrafik vəziyyətin müsbət olduğunu qeyd etməklə yanaşı, onu da vurgulayır ki, iqtisadi potensialımız əhalinin artması ilə uzlaşmalıdır. Yeni iş yerləri yaradılmalıdır. İqtisadi imkanlar artmalıdır. Bunlar prioritet olmalıdır.

Müstəqillik illərində əhalimizin sayı bir neçə dəfə artıb. 9 milyonuncu vətəndaşımız 2010-cu ildə dünyaya gəlmişdi. Cəmi 9 ilə respublikada əhalinin sayı bir milyon nəfər də artdı. 2019-cu ildə 10 milyonuncu vətəndaş dünyaya gəldi. Prezident İlham Əliyev bunu tarixi hadisə adlandırdı və Azərbaycan xalqını təbrik etdi.

Prezidentin 29 dekabr 2012-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanmaqla, ölkəmizdə davamlı demoqrafik inkişafın təmin edilməsi üçün əhali sakinliyi və demoqrafik inkişaf sahəsində yeni Dövlət Proqramı hazırlanıb. Orada ailə institutunun möhkəmləndirilməsi və ailə dəyərlərinin təbliği, ailələrə, xüsusilə gənc ailələrə sosial-iqtisadi dəstəyin gücləndirilməsi, əhalinin reproduktiv sağlamlığının, habelə ana və uşaqların mühafizəsinin gücləndirilməsi, həyat şəraitinin təhlükəsizliyinin yüksəldilməsi, miqrasiya proseslərinin tənzimlənməsinin təkmilləşdirilməsi kimi prioritet istiqamətlər müəyyən olunub. Bununla yanaşı, dövlət başçısının 30 oktyabr 2018-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" da mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin müəyyən olunmuş iqtisadi prioritetlərinə əsaslanmaqla səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət məşğulluq siyasətini müəyyən edir.



Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda bildirib: "Əhali nə qədər çox olarsa, ölkəmiz də o qədər sürətlə inkişaf edər. Ancaq, əlbəttə, biz bundan sonra da işimizi elə görməliyik ki, iqtisadi inkişaf, iş yerlərinin yaradılması əhalinin artımından daha da sürətli getsin, artan əhali işlə təmin olunsun".

Odur ki, əhalinin artımı qarşısında genişmiqyaslı tədbirlər görülür, yeni uşaq bağçaları və məktəblər, müalicə müəssisələri, idman kompleksləri istifadəyə verilir. Gələcəkdə məşğulluq problemi yaranmasın deyə çoxsaylı yeni iş yerləri açılır.

Hələ təxminən 10 il əvvəl, Nazirlər Kabinetinin 2014-cü ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında Prezidentimiz Azərbaycanda əhalinin artdığını, demoqrafik amilin böyük əhəmiyyətini, gələcəkdə münaqişənin həlli üçün və ümumiyyətlə, regional mənzərə üçün əsas rol oynayacağını vurğulamışdı. Zaman İlham Əliyevin hər sözünün, hər fikrinin necə uzaqgörənliklə deyildiyini dönə-dönə təsdiqləyir!

2019-cu ilin payızında ölkəmizdə əhalinin siyahıyaalınması keçirildi. Prezidentimizin bu mühüm tədbir ərəfəsində dediklərini də xatırlayaq: "Bu, hər bir ölkə üçün çox önəmli tədbirdir. Azərbaycanda da siyahıyaalınma tədbirləri müntəzəm olaraq keçirilir. Son dəfə 10 il bundan əvvəl keçirilmişdir. Əlbəttə, bu 10 il ərzində ölkəmizdə çoxlu dəyişikliklər baş vermişdir. İlk növbədə, demoqrafik vəziyyət daha da yaxşılaşdı. Bu il biz 10 milyonuncu vətəndaşın dünyaya gəlməsini təntənə ilə qeyd etmişik. İşsizliklə bağlı görülmüş tədbirlər öz səmərəsini verir, vətəndaşların sosial rifahı yaxşılaşır. Təkcə bu il minimum əməkhaqqı təxminən iki dəfə artırıldı. Həmçinin pensiyalar, tələbələrin təqaüdləri, müavinətlər artırıldı. Yəni sosial-iqtisadi inkişaf demoqrafik inkişafla uzlaşır və bu da təbiidir".

Müstəqillik dövründə Azərbaycanın əhalisinin təxminən 3 milyon nəfər artdığını, bunun da mövqelərimizi möhkəmləndirdiyini, ölkəmizi gücləndirdiyini qeyd edən dövlət başçısı bir sıra vacib məqamları da vurğulamışdır: "Eyni zamanda qarşımıza yeni çağırışlar çıxır. Siyahıyaalınma bizə daha dəqiq və müfəssəl məlumat verəcək. Baxmayaraq ki, biz ölkəmizdəki prosesləri yaxından izləyirik və bu proseslər müsbət istiqamətdə gedir. Siyahıyaalma 10 gün ərzində keçiriləcək və bu gün artıq bu proses başlayır. Əminəm ki, 10 gün ərzində Azərbaycan əhalisinin tam şəkildə siyahıyaalınma prosesi başa çatacaq və bizə iqtisadi inkişafla, infrastrukturla, miqrasiya və əmək resurslarının artımı ilə bağlı yeni məlumat verəcək ki, gələcək inkişafımızı necə planlaşdıraq. Bizdə əmək resursları artır. Əlbəttə ki, tədbirlər gərək bu artıma uyğun olsun".

Bəli, Prezident İlham Əliyev Vətənimizin, xalqımızın təkcə bu gününü deyil, sabahını da düşünür, hətta gələcək nəsillərin də qayğısına qalır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Laçın və Kəlbəcərdə daha üç yaşayış məntəqəsinin yenidən qurulmasına başlanılır

**İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı tikinti, abadlıq və quruculuq işlərinin dinamikası gündən-günə artır. Bu çərçivədə Şərgi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın və Kəlbəcər rayonlarında Qorçu qəsəbəsinin, eləcə də Çaykənd və Qamışlı kəndlərinin yenidən qurulması layihəsi üzrə müqavilələr imzalanıb.**



Şərqi Zəngəzur iqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumatda bildirilir ki, "Azərdövlətsənaye" Dövlət Layihə İnstitutu ilə adıçəkilən xidmət arasında Kəlbəcər rayonunun Çaykənd və Qamışlı kəndlərinin yenidən qurulması işlərində layihələndirmə işinin hazırlanmasının satınalınmasına dair müqavilələr bağlanıb. Xidmət həmçinin "Azərmemarlayihə" Dövlət Baş Layihə İnstitutu ilə Laçın rayonunun Qorçu qəsəbəsinin tikintisi layihəsinin hazırlanmasına dair satınalma müqaviləsini də razılaşdırıb. Şərqi Zəngəzur iqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İcraçı direktoru vəzifəsini icra edən Fəxrəddin Verdiyevin sözlərinə görə, müqavilələr qeyd olunan yaşayış məntəqələrində 1000-ə yaxın fərdi evin, tam orta məktəblərin, uşaq bağçalarının və digər sosial infrastruktur obyektlərinin layihələndirmə işlərinin satınalınmasını əhatə edir. Nəzərdə tutulan layihənin həyata keçirilməsi onlarla ailənin doğma el-obasına dönüşünü təmin edəcək və bununla çoxsaylı soydaşımızın yurd həsrətinə son qoyacaq.

## "Akvaponika Laçın" yeni müəssisədir

**Yenidən tikilib qurulan Laçında yeni sənaye və təsərrüfat sahələri də yaradılır. Belə təsərrüfatlardan biri də "Akvaponika Laçın" balıq və bitki yetişdirilmə müəssisəsidir.**



Bu sistem Azərbaycanda ilk olaraq Laçın rayonunda Həkəri çayının sahilində qurulub. Sistemi yaratmaqda əsas məqsəd ekoloji cəhətdən təmiz bitkilər yetişdirməkdir.

Bu barədə Şərqi Zəngəzur İqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Məlumatda bildirilir ki, müəssisədə istifadə olunan maddələr balıqları qida ilə təmin edir. Balıqların filtirasiya olunmuş gübrəli suyu isə sistemdə dövr edərək bütün bitkiləri qidalandırır. Sistemin üstünlüyü suyun itkiyə getməməsidir. Müəssisə içməli su ilə yox, Həkəri çayından götürülən su ilə təmin olunur. Tam təbii şəkildə yetişdirilən bitkilər həm də sərfəli şərtlərlə başa gəlir.

Hazırda müəssisədə sazan cinsi balıqlar saxlanılır. Yaxın zamanlarda farel və nərə balıqlarının da gətirilməsi planlaşdırılır. Burada balıqlarla bitkilərin paralel şəkildə inkişafı vacibdir. Balıq bol olarsa, gübrəsi də çox olar. Balıq az olduğu halda da bitkilər tələf ola bilər. Ona görə də sistemdə balıq sayı artdıqca, bitkilərin də sayı əkilərək artırılır.

2023-cü ilin iyul ayından fəaliyyətə başlayan müəssisədə ilk olaraq üç növdə - qırmızı, qırmızı-yaşıl, yaşıl kahı və ispanaq əkilib. Həmçinin Çin kələmləri də yetişdirilir. 2023-cü ilin dekabr ayından isə pomidor şitilləri əkilib. Növbəti mərhələdə çiyələk, kök, göyərti və digər bitki çeşidlərinin əkilməsi də nəzərdə tutulur. Artıq yetişdirilən bitkilərin satışı təşkil olunur. Hazırda 270 kvadratmetr ərazidə yerləşən müəssisədə 5 nəfər Laçın sakini işlə təmin edilib.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Arıların bəstəsi, arıçıların SOS səsi



Sən demə, ətrafımızda mövcud olan hər canlının və cansızın fərqli bir ruhu, bəstəsi varmış. Təbiətin müxtəlif mənzərələrinin, hətta zərif bir çiçəyin də özünəməxsus nəğməsi olurmuş. Dünyanın bütün gözəllikləri də elə bu xırda incəliklərdən boy alır. Uşaqlıqdan bu ecazkar səslərin arxasınca düşüb gedər, arıların bəstəsini yaddaşımızın not dəftərinə sətirbəsətir həkk edərdik.

Siz də yəqin ki, nə vaxtsa daşların, torpağın, çiçəklərin və yaşıllıqların nəğməsini eşidib duya bilmisiniz. Uzaq uşaqlıq illərindən yaddaşımıza hopan belə kövrək xatirələr, arı pətəklərindən göyə yüksələn "musiqi" arıların həzin bəstəsidir. Xatirələrin qanadında keçmişə qayıdanda bu kövrək nəğmə yaddaşımızda az qala heyrətamiz arı simfoniyası kimi səslənir.

Yadımdadır, oturardıq çubuqdan toxunan pətəklərin qabağında və içəridən gələn zərif uğultunu heyranlıqla dinləyərdik. Bağımızda alma ağaclarının arasına düzülən arı pətəklərinin sayı-hesabı yox idi. Həmişə balımız bol olardı, qohum-əqrəbanın da payını kəsməyi atam günah sayardı. Arılara atam özü baxardı, bizi də əlinin altında fırladardı ki, nəsə öyrənək. Deyərdi, heç olmasa biriniz öyrənin ki, mən öləndən sonra arılar yiyəsiz qalıb qırılmasınlar. Yəni arı elə saf həşəratdır ki, sahibinin yox olmasını zamanında anlayır və əgər əvvəlki qayğını, diqqəti görməsə, pətəyini, yəni yuvasını tərk edib gedir. Pis qulluq, soyuq münasibət olan yerdə yaşamır.

Ötən əsrin 60-70-ci illərində arı saxlamaq indiki qədər çətin deyildi. Atamla gedərdik meşəyə, 10-15 arı pətəyi toxumaq üçün arı çubuğu qırıb gətirərdik. Sonra düşərdik kənddə kimin atı vardısa onun dalına ki, peyinini pətəkləri suvamaq üçün yığaq. Zülm iş idi. Bir-iki kilo peyin yığmaq üçün bir neçə gün əsir-yesir olurduq. Atam yığdığımız peyini sarı torpaqla qarışdırıb yoğurar, çubuqlardan toxuduğu səbətləri suvayardı.

Arılar yazda beçə verib ayrılanda pətəklərin keşiyini çəkərdik ki, arılar uçub getməsin. Yeni arı ailələri bulud kimi göyə qalxanda onları saxlamaq üçün vedrə, qazan döyəcləyib elə küy salardıq, guya yağış yağır. Arılar da çox uzağa ucub getməz, yaxınlıqdakı ağaclardan birinin budağından topa ilə asılıb ana arının başına yığılardılar. Atam işdən gəlib ehmalca budağı kəsər, arıları pətəyin içinə silkələyərdi.

Bax beləcə, arılar lap uşaqlıqdan həyatımızın bir parçasına çevrilmişdi. O vaxt təbiət elə güllü-çiçəkli, əsrarəngiz olduğundan may ayında yaz balı - çiçək balı alardıq. İndi belə şeylər nağıl kimidir. O yaz balının ətri, tamı da ağlımızı başımızdan alardı. Yeməkdən doymurduq. Bir dəfə qardaşım necə tamahsılanmışdısa, bir stəkan balı başına çəkəndən sonra yerindəcə yıxılıb özündən getmişdi. Bir gün özünə gəlmədi, ölməsin deyə, həkimə apardıq, iynə vurdurduq. Axşama güclə özünə gəldi. Bir dəfə də əmim oğlu əlində çubuqla bizim pətəkdən bal oğurlamağa gəlmişdi. Gözünə döndüyüm arılar əmioğlunu xəlbirləyib elə günə qoymuşdular ki, aradan 50 il keçsə də, indiyəcən pətəklərə yaxın düşmür.

Heç vaxt boş-bekar olmazdıq, arılarla bağlı həmişə işimiz var idi. Yazda hərəmiz əlimizə bir çubuq alıb pətəklərin qarşısında oturar və kələsərləri - ana arını mayalayan erkəkləri qırardıq ki, balı yeyib dağıtmasınlar. Çox qarınqulu idilər. Bundan sonra payız yaxınlaşardı və gəndalaş başı qaralanda deyirdilər ki, hə, indi pətəklərdən bal almaq olar. Arıçılar iki bir, üç bir birləşərdilər və köməkləşib bir yerdə bal süzərdilər. Bizim neçə-neçə bidon dolu balımız olardı. O vaxtı 3 litrlik bankanı 10 manata satardılar (indi 130 manatadır). Atam anama deyirdi ki, mürəbbəzad bişirməsin, bal olan yerdə ona ehtiyac yoxdur. Amma anam da dinc oturmazdı, mürəbbəsini bişirərdi, özü də cürbəcür.

O vaxtdan 50 il keçib, arılar da dəyişib, insanlar da. Axırıncı dəfə kəndə gedəndə qardaşımın arı pətəklərinin yanında oturdum, səslərinə qulaq asdım, elə bil arılar bir az dərdlidir, əvvəlki səsləri sanki öləziyib. Bəlkə də mən o yaşda deyildim, ona görə idi. Amma qardaşım deyir ki, indi arıların da çörəyi daşdan çıxır. Əvvəl belə idi ki, hətta ildə iki dəfə pətəkdən bal ala bilirdik, arıları da bağdan dağa gəzdirmirdik, elə yerində qalırdılar. Amma indi elə deyil. Artıq biz arıçılar da çobanlar kimi tərəkəməlik etmək məcburiyyətindəyik. Təbiət elə zəifləyib, sısqalaşıb ki, əvvəlki zənginliyi qalmayıb. Arılar bal yığsın deyə, özün əməlli-başlı diribaş olmalısan, gözünü təbiətdən çəkməli deyilsən, zəngin torpaqları beş barmağın kimi tanımalısan. Vaxtında hərəkət etməsən, təbii ki, ruzin də bol olmayacaq.

Ölkənin şimalında artıq neçə ildir ki, arıçılar pətəkləri il boyu dənizin sahillərindən tutmuş dağlara kimi gəzdirmək məcburiyyətindədirlər. Elə il olur ki, 3 dəfə yer dəyişirlər. Amma 50 il əvvəl kimə desəydin ki, arıları gəzdirməsən bal olmayacaq, sənə gülərdi, lağa qoyardı. Çünki onda buna ehtiyac yox idi, hər yan başdan-ayağa gül-çiçək idi, pətək qoyulan yerdən də 4-5 balon bal almaq olardı.

İndisə bal yığmaq üçün az qala arıdan betər əziyyət çəkməlisən. Digər tərəfdən isə bütün dünyada arıların qırılmaq təhlükəsi artır. Problem elə ciddiləşib ki, bütün dünyanın arıçıları, alimləri bu məsələ ilə məşğuldurlar. Arıların sayı getdikcə azalır, problemlər isə artır. Dünyanın hər yerində belədir. Bir-iki rəqəmə fikir verək: yalnız Rusiyada günəbaxanın və digər bağ məhsullarının tam mayalanması üçün 7 milyon arı pətəyi lazımdır. Amma acı reallıq odur ki, arı ailələrinin sayı Rusiyada cəmi 1,21 milyondur. Bütün dünyada son 10 ildə pətəklərin ümumi sayı 15 milyon azalmışdır. Qlobal istilik, torpaqların müalicəsi zamanı aqrotexniki qaydaların pozulması arıların kütləvi qırılmasına səbəb olur.

Ölkəmizin şimalında müraciət etdiyimiz arıçılar da arılarının səbəbsiz yerə qırıldıqlarını deyirlər. Əslində isə bu, səbəbsiz deyil. Kütləvi palmet bağlarının salınması və onlara ildə 10-15 dəfə dərman verilməsi arıçılara və arılara baha başa gəlir. Yəni, demək istədiyimiz odur ki, dünyada mövcud olan təhlükələr bizim arıçılar üçün də izsiz ötüşmür.

Arı isə təkcə bal istehsalçısı deyil. Dünyada yetişdirilən 115 əsas kənd təsərrüfatı məhsulunun 87-nin məhsuldarlığı arılardan asılıdır. Mütəxəssislər deyirlər ki, dünyadakı kənd təsərrüfatı məhsullarının üçdəbiri arıların hesabına yetişir. Bütün bunların fonunda, məsələn, təkcə Avropada tam tozlandırma aparmaq üçün 13 milyon arı ailəsi çatışmır. Əgər planetdə arılar tam itərsə, aqrar sektora dəyən ziyanın məbləği 350 milyard avro ətrafında ola bilər. Bu isə bütün bəşəriyyət üçün real təhlükə deməkdir.

Yenə qayıdaq ölkəmizə. Biz gedən bu prosesləri dərk etmək üçün yerli arıçılara müraciət etdik. İstədik aydınlaşdıraq ki, Azərbaycan arıçılığı üçün hansı hallar xarakterikdir. Qubada arıçılar bizə danışdılar ki, əgər 50 il əvvəl arıya baxmaq üçün arı alıb pətəyə doldurmaq yetərli idisə, indi belə deyil. Arı saxlamaq üçün xüsusi biliklər lazımdır. Yəni kimin biliyi, təcrübəsi dərindirsə, arılarına yaxşı baxa bilir. Kim ki təcrübəsiz və heç bir bilik sahibi deyil, arıları qırılır. Bir qayda olaraq zəif arıçıların pətəklərinin 10-15 faizi il ərzində məhv olur. Quba rayonunun Xucbala kəndində Mustafanın, Anarın arıları bu minvalla qırılıb. Başqa rayonlarda da belə nümunələr tapmaq mümkündür.

Arıçılığı inkişaf etdirməyin yolları, əslində, məlumdur. Amma arı ailələrinin sayını artırmaqla, yem bazasını gücləndirməklə iş bitmir. Arıçılığın elmi əsaslarla bütün ölkə səviyyəsində inkişaf etdirilməsi gündəlikdə duran ciddi məsələlərdəndir. Bunun özü ayrı bir mövzu olduğu üçün daha geniş şərh edilməlidir. Əsas diqqətçəkən odur ki, arıçılıq nə qədər çətin sahə olsa da, Azərbaycanda bu sahəyə maraq çoxdur. Maraq çoxdursa, deməli, perspektiv də var. Qalır keçmiş təcrübəni və gələcək perspektivi qovuşdurub iş görmək.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

# Tarixi matç

## Bu gün Portuqaliyada "Qarabağ" sədaları eşidiləcək

**Bu gün Ağdamın "Qarabağ" klubu UEFA Avropa Liqasının pley-off mərhələsinin ilk matçında Portuqaliyada "Braqa"nın qonağı olacaq. Tribunalarda anşlaq yaranacaq, ekran qarşısında milyonların qəlbi "Qarabağ"la döyünəcək.**




**UEFA Avropa Liqası**
**Pley-off, ilk oyun**

00:00 **"Braqa"** (Portuqaliya) - **"Qarabağ"** (Azərbaycan)
*Baş hakim:* **Morten Kroq** (Danimarka)
*"Estadio Municipal de Braga" Stadionu*

Psixoloji hazırlıq bu cür matçlarda çox önəmlidir. Belə bir sual ortaya çıxır: "Qarabağ"ı çətin səfər matçında nələr gözləyə bilər? Çox güman ki, 4-3-3 oyun formatı ilə meydançaya çıxacağı gözlənilən komandamız müdafiənin arxasına atılan toplarda və standart vəziyyətlərdə çox diqqətli olmalıdır. Müdafiənin mərkəzində Medinanın, sağ cinahda isə Veşoviçin yoxluğu çox ciddi hiss olunacaq.

"Braqa" doğma meydan amilini də nəzərə alaraq ilk dəqiqələrdən oyunu meydançanın "Qarabağ"a aid hissəsində keçirərək daha erkən qol vurmağa çalışacaq ki, qarşılaşmaya nəzarəti tam ələ almaq imkanı yaransın. Bunun qarşısını almaq üçün isə mütləq həm toplu, həm də topsuz oyunda hazırlıqlı, ötürmələrdə daha sürətli olmaq lazım gələcək.

"Braqa"nın məşqçilər korpusu hər matç demək olar ki, müxtəlif mövqelər üzrə rotasiyalar edir ki, bunun müsbət cəhəti var. Belə ki, əzbər start 11-liyin olmaması komandanın oyun planında müəyyən axsamalara gətirib çıxarır. Bundan "Qarabağ"ın yararlanmasına ümid edirik. Sürətli oynayan komandalara qarşı matçlarda "Braqa"da xətlərarası balans pozulur. Xüsusilə edilən basqı nəticəsində sağ cinahda yer alan Qomesin geriyə ötürmələrində ciddi nöqsanlara yol verdiyinin şahidi olmuşuq.

4-2-3-1 oyun formatına üstünlük verən Portuqaliya klubu meydançada oyunçu paylaşımını yaxşı həyata keçirir. Ancaq mövqe seçimi və sığortalamalarında problemlər mövcuddur. Xüsusilə komandada sağ və sol cinah müdafiəçiləri ilə mərkəz müdafiəçiləri arasında boş zonanı blok etmək kifayət qədər yaxşı alınmır. Top rəqibdə olarkən komanda şəklində topun olduğu zonaya çəkilməsi nəticəsində cinahlar boş qalır. Bundan istifadə etməklə uzun diaqonal ötürmələrlə "Braqa"nı azlıqda yaxalamaq olar. Xüsusilə komandamızın heyətində Marko Yankoviçin bu keçid oyunlarında performansı daha çox olmalıdır. Bu ötürmələr fonunda Zubir, Benziya və Juninyoya yaxşı fürsətlər yarana bilər.

Rəqib hücumlar zamanı cinah oyunlarına daha çox üstünlük veririr ki, burada xüsusilə Rodriqo Salasarın mərkəzdə yer almasına baxmayaraq, cinahlara düzgün açılması, sürətli ötürmələri ilə təhlükəli epizodlarla yadda qalır. "Braqa"nın oyun planında xüsusi rola malik olan Salasar geri dönən toplardan sonra uzaqdan zərbələri ilə də diqqət çəkir. Yəni, bu futbolçuya qarşı daha məsuliyyətlə oynamaq, boş zonalar buraxmamaq lazımdır. Çünki bütün fazalarda keçid oyunları məhz bu futbolçunun üzərində qurulubdur.

"Braqa"nın daha çox rotasiya etdiyi zona hücum xəttidir. Belə ki, hücumun sivri ucunda son vaxtlar Abel Ruiz forma şansı əldə edir. İspaniyalı forvardı bəzən fransalı Simon Banza əvəzləyir. Sağ cinahda Alvaro Colo, solda isə Rikardo Hortanın forma geydiyinin şahidi oluruq.

Unutmayaq ki, Romao ilə Yankoviç bir-birilərini çox yaxşı idarə etməlidirlər. Meydanda dağıdıcı funksiyanı yerinə yetirən Romao qazandığı topu tez bir zamanda Benziya və ya Yankoviçə çatdırmalıdır. Monteneqrolu yarımmüdafiəçinin meydanda olmağı 3-cü zonada həm Benziya, həm də Zubir üçün əlavə üstünlüklər qazandırır. Belə ki, top rəqibdə olarkən 1-ci və ya 2-ci zonada bu oyunçuların üzərinə yük çox da düşmür.

Hücumda ikili mübarizələrdə daha çevik görsənən Abel Ruizə qarşı mərkəz müdafiəçilərimiz daha təmkinli, kobudluğa yol vermədən mübarizə aparmalıdırlar. Çünki ani toxunuş qapımıza penaltinin təyin olunması ilə yadda qala bilər.

Ağdam təmsilçisi rəqibin tempini aşağı salmaq üçün daha çox qısa ötürmələrə üstünlük verməlidir. Daha yüksək fiziki hazırlığın tələb olunduğu oyun planı fonunda rəqibə boş zona yaratmamağa çalışılmalıdır. Bu oyun planı işə düşərsə, komandamız rəqibə qarşı üstünlük əldə edə bilər. Abdulla Zubirin tez-tez cinahları dəyişməsi də komandamızın lehinə ola bilər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

**OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"** *qəzetinə*
***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (**Tel.: (012) 539-59-33**) zəng vura bilərsiniz.*

# Avropada fermerlərin etiraz dalğası genişlənir

Avropalı fermerlərin günlərlə davam edən etirazlarına cavab olaraq, Avropa Komissiyası ekoloji səbəblərə görə əkinçilikdə qalmalı olan bəzi torpaqlardan istifadə etməyə icazə verən qətnamə qəbul edib.





Ardıcıl səkkizinci gündür ki, ispan fermerlər traktorlarla əsas yolları bağlayaraq etirazlarını davam etdirirlər. Kataloniyada fermerlər Merkabarnaya və Tarragona limanına girişi əngəlləyib, Jirona və Barselonada isə əsas topdansatış bazarı da daxil olmaqla bütün yollar bağlanıb. Fransa sərhədinə yaxın Pontos və Borrassa arasındakı avtomobil yolu da nəqliyyatın hərəkətinə bağlıdır.

İspan fermerləri digər avropalı fermerlər kimi, Avropa İttifaqına daxil olmayan ölkələrdən ərzaq idxalı üçün şərtlərin sərtləşdirilməsini tələb edirlər və Brüsseldən onların istehsalının maya dəyərinin artması ilə mübarizə üçün təcili tədbirlər görəcəyini gözləyirlər.

Fermerlərin fikrincə, Aİ-nin yürütdüyü ətraf mühit siyasəti maliyyə yüküdür və onların məhsullarını Aİ üzvü olmayan ölkələrlə müqayisədə çox baha edir.

Bu arada, Avropa Komissiyası fermerlərə ekoloji səbəblərə görə biçilməmiş torpaqların bir hissəsindən istifadəyə icazə verən qətnamə qəbul edib. Bu, bir sıra üzv dövlətlərin Avropa fermerlərinin üzləşdiyi problemlərə daha yaxşı cavab vermək üçün irəli sürdüyü zəruri çeviklik tələblərinə uyğundur. Fərman fevralın 14-dən qüvvəyə minir.

Avropa Komissiyasının nümayəndəsi Ulof Gill bildirib ki, Brüsseldə izah edildiyi kimi, bu tədbir fermerlərə torpaqlarının 4 faizində bitki mühafizəsi vasitələrindən istifadə etmədən, köməkçi bitkilər yetişdirməyə imkan verəcək.

Yunanıstanın baş naziri Kiriakos Mitsotakis ölkə boyu yolları bağlamaq hədəsi edən fermerlərin həmkarlar ittifaqı üzvlərinə bəzi güzəştlər edib. Afinada fermerlər birliklərinin nümayəndələri ilə görüşdə sağ mərkəzçi hökumət istehsal xərclərini azaltmağa, kompensasiya ödənişlərini sürətləndirməyə və ötən il dəhşətli daşqınlardan zərər çəkmiş fermerlərə vergi güzəştləri etməyə çalışacağını bildirib. Mitsotakis, həmçinin fermerlərin enerji xərclərini azaltmağa söz verib, lakin xəbərdarlıq edib ki, büdcə məhdudiyyətləri əhəmiyyətli xərc artımları üçün çox az yer saxlayır.

Fermerlərin etirazları İtaliya və Polşada da keçirilib. Polşalı fermerlər ölkənin cənub-şərqindəki Doroqusk şəhəri yaxınlığında Ukrayna ilə sərhədi blokadaya almağa davam edirlər. Onlar Aİ-nin Ukrayna kənd təsərrüfatı məhsullarının nəzarətsiz idxalına son qoyması ilə bağlı tələbləri yerinə yetirilənə qədər orada qalmaq niyyətindədirlər. Bu günlərdə nümayişçilər Ukraynadan Litvaya yollanan yük maşınlarından taxılı yerə boşaldıblar.

Belçikalı fermerlər Antverpen limanında etiraz aksiyası keçiriblər. Qərb mediası bildirib ki, onların etirazları Antverpen limanında böyük fasilələrə səbəb olub.

Məlumata görə, yüzlərlə fermer traktorlarını limana apararaq, "qətiyyətlərini nümayiş etdirmək və ölkədəki siyasi qərarlara təsir etmək" istədiklərini bildiriblər. Onlar indi şəhərdə bir neçə böyük körpünü bağlayıblar.

Bu arada Parisin mərkəzində fransız südçülər Les Invalides binası qarşısındakı meydanda nümayiş keçirərək, kənd təsərrüfatı işçilərinin ədalətli əməkhaqqı və topdansatış qiymətləri üzərində hökumət nəzarətinin artırılmasını tələb ediblər.

Daxil olan məlumata görə, fermerlər ot tayaları ilə mərkəzi küçəni bağlayıblar. Polis əməkdaşları nümayişin perimetri boyunca növbətçilik ediblər və fermerlərə mitinq meydanından təxminən 400 metr aralıda yerləşən Milli Assambleyanın (parlamentin aşağı palatası) binasına yaxınlaşmağa icazə verməyiblər. Bir müddət sonra bir neçə deputat fermerlərin yanına gəlib, aksiya təşkilatçıları onlara öz təkliflərini veriblər.

Fransada fermerlər etiraz aksiyalarını bərpa edəcəkləri ilə hədələyiblər. FNSEA fermerlər həmkarlar ittifaqının rəhbəri Arno Russo TF1 televiziyasında bildirib ki, onlara əlavə dəstək tədbirləri olmadığı halda etirazları bərpa etməyə hazırdırlar. On gün ərzində dəyişiklik görülməsə, tətilləri bərpa edəcəklər.

O əlavə edib ki, fransalı fermerlər hökumətin kənd təsərrüfatı sektorunda dəyişikliklər üçün az iş görməsindən narazıdırlar. Fransanın bəzi departamentlərində fermerlər artıq etiraz aksiyalarına qayıdıblar.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Dünyanın xərçəng bəlası

Orqanizmdə anormal hüceyrələrin nəzarətsiz böyüməsi ilə başlayan və sürətlə digər orqanlara yayılan xərçəng dünyada ən çox insan ölümünə səbəb olan xəstəliklərdəndir. Genetik meyil, tütün və spirt istifadəsi kimi xarici faktorlar, güclü günəş şüasına məruzqalma, radiasiya, kanserogen və kimyəvi maddələr, müxtəlif viruslar, pis qidalanma vərdişləri və hava çirkliliyi xərçəng xəstəliyinin artmasının əsas amilləri kimi önə çıxır.



Son illərdə dünyada xərçəng xəstəliyinə tutulanların sayının artması ilə bərabər, xəstəliyin "cavanlaşması" da müşahidə edilir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) 2025-ci ilədək dünyada 20 milyon yeni xərçəng xəstəliyinin qeydə alınacağını vurğulayır. Qeyd olunur ki, ildə baş verən 55 milyon ölüm hallarından 4.2 milyonu məhz bu xəstəliyin payına düşür.

İki yüzdən çox xərçəng növü müəyyən edilsə də, onların rastgəlmə tezliyi insandan insana dəyişir. Dəri, döş, ağciyər, prostat vəzi, mədə, yoğun bağırsaq, uşaqlıq boynu xərçəngi və limfa düyünlərinin şişləri "bədxassəli şiş" və ya "ur" adlanan xəstəliyin ən çox yayılmış növləridir. Xərçəng xəstəliyinin müalicəsi böyük xərc tələb edir və uzunmüddətlidir. Yüksək gəlirli ölkələrin 90 faizindən çoxunda, aşağı gəlirli ölkələrin isə 15 faizindən azında xərçəngin hərtərəfli müalicə imkanları mövcuddur.

### İnkişaf etmiş ölkələrdə onkoloji xəstəliklər artır

Onkoloq Nərgiz Həsənova deyir ki, xərçəng hüceyrələrin nizamsız və sərhədsiz şəkildə bölünüb artması, həmçinin mutasiya edərək digər toxumalara yayılaraq çoxalması ilə səciyyələnən prosesdir: "Bu xəstəlik özünü müxtəlif əlamət və ya simptomlarla büruzə verə bilər. Hətta bizə çox adi görünə bilən öskürək, bədən hərarətinin cüzi yüksəlməsindən tutmuş yaddaş pozğunluğu, görmə zəifliyi, ürəkbulanma, çəkinin azalması kimi ümumi simptomlar onkoloji prosesin əlamətləri ola bilər. Bu səbəbdən pasientlər əksərən digər mütəxəssislərə müraciət edir, müvafiq müayinədən sonra məhz həkim-onkoloqa yönləndirilirlər".

N.Həsənova bildirir ki, dünyada, xüsusən də inkişaf etmiş ölkələrdə onkoloji xəstəliklərin sayında artım müşahidə edilir: "Statistik göstəricilərə əsasən, ağciyər, süd vəzi, kolorektal, prostat və mədə xərçəngi xəstəlikləri ilk beşlikdədirlər. Ölüm göstəricisinə görə, ağciyər xərçəngi birinci yerdədir. Qadınlarda ən yüksək xəstələnmə göstəricisi süd vəzi xərçəngidirsə, kişilərdə ağciyər xərçəngidir. Uşaqlarda isə təəssüf ki, daha çox qanyaranma sistemi orqanlarının xərçəngi, leykemiyalara rast gəlinir".

Mütəxəssisin sözlərinə görə, xərçəngin yaranmasının ekzogen və endogen səbəbləri var. Orqanizmə xaricdən təsir edən kimyəvi, radiasiya və viral təsirlər mövcuddur ki, bu istiqamətdə araşdırmalar davam etdirilir.

### Xərçəngə qalib gəlməyin əsas yolu yüksək əhvali-ruhiyyədir

N.Həsənova qeyd edib ki, müasir dövrdə xərçəngin müalicəsində cərrahiyyə, kimyaterapiya, şüa terapiyası olmaqla yanaşı, hormonal, target terapiyası və digər metodlar tətbiq edilir: "Xəstəliyin növündən, yerləşməsindən, hansı mərhələdə aşkarlanmasından asılı olaraq müalicə növü seçilir. Bir sözlə, pasiyentlərə fərdi yanaşılır. Bəzi növlərdə müştərək müalicə, məsələn cərrahi və kimya-terapiya tətbiq edilirsə, müəyyən növlərdə bu metodlardan yalnız biri istifadə edilir. Sınanmış metod olan kimya-terapiya bəzi növlərdə yeganə müalicə metodudur. O, konkret klinik situasiyada dəyərləndirilib müvafiq sxem üzrə aparılır".

"Heç bir müalicə növü digərinin tam alternativi hesab edilmir" deyən mütəxəssis klinik situasiyada bu və ya digər müalicə metodunun effektivliyinin fərqli olduğunu bildirir. Onun sözlərinə görə, süd vəzi xərçəngində cərrahi metod əsas müalicə növüdürsə, limfomalarda kimyəvi dərman müalicəsinə üstünlük verilir.

"Xərçəng xəstəliyinin profilaktikası üçün həm səhiyyə təşkilatları müvafiq tədbirlər görməli, həm də əhali maarifləndirilməlidir. Ən önəmli məsələ sağlam həyat tərzi ilə yanaşı, vaxtında həkimə müraciət edilməsi, lazımi müayinələrdən keçilməsidir. Xüsusən də hər hansı bir əlamət varsa, səbəbi araşdırılmalıdır", - deyə onkoloq bildirir.

Xərçəng xəstəliyinin qarşısının alınması üçün erkən diaqnoz böyük əhəmiyyət kəsb edir. Sağlam qidalanma, tütün və alkoqol istehlakının məhdudlaşdırılması və müvafiq açıq hava fəaliyyəti də daxil olmaqla sağlam həyat tərzinin təbliği xərçəngin yaranmasının qarşısını ala bilər. Bir çox xəstəliklərdə olduğu kimi, bu xəstəliyə də qalib gəlməyin əsas yolu sağalacağına inanmaq və yüksək əhvali-ruhiyyədə olmaqdır.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən 07.11.2018-ci il tarixdə Heydər Əliyev adına Müasir Təhsil Kompleksinə verilmiş D/002272 saylı İstismara hazırlıq aktı itdiyi üçün etibarsız sayılır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

**ALLAH RƏHMƏT ELƏSİN!**

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclis Aparatının İnformasiya resursları və texnologiyaları şöbəsinin sektor müdiri İsa Məmmədova anası

**FƏRİDƏ MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qərbi Kaspi Universitetinin rektorluğu və professor-müəllim heyəti tanınmış jurnalist, Qərbi Kaspi Universitetinin məzunu Cəsarət Valehova atası

**FİKRƏT VALEHOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4030**
**Sifariş 341**

**Qiyməti 60 qəpik**